ƏDƏBİ OVQAT

ƏDƏBİ-BƏDİİ DƏRGİ • 16 • 2025

TƏSİSÇİ: *RƏFAİL TAĞIZADƏ*
BAŞ REDAKTOR: *VAQİF OSMANLI*
RƏSSAM: *SEHRAN ALLAHVERDİ*

Əlaqə telefonları: *050 339 19 85*
055 766 83 02

E-mail: edebiovqatdergi@gmail.com
Çapa verilib: *01.07.2025*
Çapa imzalanıb: *05.07.2025*

Ədliyyə Nazirliyində 03 iyun 2021-ci il tarixində qeydiyyatdan keçib.
Qeydiyyat sayı: 4344.
Başqa mətbu orqanlarda çap olunmuş materiallar qəbul olunmur və rəy verilmir.
Mətnə görə müəllif məsuliyyət daşıyır.

BU SAYIMIZDA:

Musa Yaqub *(şeirlər)* 4
Kamran Nəzirli Gecə yaman uzundur *(hekayə)* 6
Ələmdar Quluzadə *(şeirlər)* 11
Fəxri Müslüm *(şeirlər)* 13
İsmayıl Mərcanlı İmanzadə *(şeirlər)* 15
Zeynalabdin Novruzoğlu *(şeirlər)* 17
Aysel Xanlarqızı Səfərli *(şeirlər)* 19
Xatirə Fərəcli *(şeirlər)* 21
Nazir Rüstəmov *(şeirlər)* 23
Məmməd Mərzili *(şeirlər)* 25
Lalə İsmayıl *(şeirlər)* 27
Nazim Hüseynli *(şeirlər)* 29
Solmaz Qəribel *(şeirlər)* 31
Elmaya Cabbarova *(şeirlər)* 33
Vaqif Əsədoğlu Ana *(hekayə)* 35

Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakultəsinin "Gənc Yazarlar və Ədəbiyyatşünaslar Klubu"

Gülay Tahirli *(şeirlər)* 44
Firuzə Quliyeva *(şeirlər)* 46
Rafiq Təhməz *(şeirlər)* 48
Fərasət Babazadə Qırmızı cild *(hekayə)* 50
Sədaqət Babayeva Kimyagərin mesajı bilirsinizmi nədir? *(təhlil)* 52

PUBLİSİSTİKA

Rəfail Tağızadə Sənin ki, bu qədər təmizliyin var 54

DEYİMLƏR

Hacı Əvəz Abdullayev 56

ESSELƏR (İÇSƏSLƏR)

Safruh Atalı Bir doğmam varmış, Uşaq dili 59

TƏHLİL

Alimcan Dövlətov Həzrət Nəvai və Həzrət Nəqşibəndin nəbirəsi 64
Aygün Bağırlı Taleyimiz qələm verdi əlimizə 69

DÜNYA ƏDƏBİYYATI

Vislava Şimborska *(şeirlər)* 72
Çingiz Aytmatov Köçəri quşların ağısı *(hekayə)* 74

POEZİYA

MUSA YAQUB

ÖYRƏTMƏ ÖZÜNƏ, ÖYRƏTMƏ MƏNİ

Taleyin qisməti rast saldı bizi.
Yolumuz haradasa qırılacaqsa,
İtirəcəyiksə, bir-birimizi,
Xatirəm yadında qalmayacaqsa,
Bu əllər mənimki olmayacaqsa,
Bu tellər mənimki olmayacaqsa,
Gəl məni, özünə öyrətmə məni,
Hicran qorxusuyla göynətmə məni.

Əlimi saçıma öyrətmə belə,
Gözümü gözünə öyrətmə belə,
Üzümü üzünə öyrətmə belə,

Mən bir az baharlı budaq kimiyəm,
Bir az da sadəlövh uşaq kimiyəm.
Bala atasına qovuşan kimi,
Leylək yuvasına yovuşan kimi,
Arı gül-çiçəyə uyuşan kimi,
Eh, mən də adama tez yovuşanam,
Sevgi atəşində tez alışanam.
Amma ki, sönməyim çox çətin olur,
Sevgidən dönməyim çox çətin olur,
Öyrətmə özünə, öyrətmə məni.

Bəlkə, gözləmirdik bu xoş görüşü,
Yaman qəribədir dünyanın işi;
Heç vaxt yollarında dayanmadığın,
Heç həndəvərində dolanmadığın
Gəlib birdən sənə nə şirin olur!
Ömrünün içində ömür doğulur.
Bu şirinim acı olacaq isə,
Bir qismət çiçəyim solacaq isə,
Öyrətmə özünə, öyrətmə məni.

Könlümdə yerin var, qopmaz yerindən,
Bir əkiz ləçəyi, haça budağı
Ayırmaq olmursa biri-birindən,
Məni də ayırmaq çətindir, axı
Öyrətmə özünə, öyrətmə məni.

Yox buna taqətim, yox buna tabım,
Əlimi əlindən üzmək əzabım,
Sonra bu əzaba dözmək əzabım…
Yoxsa da, könlümün sınıqları var -
Hicranın köz basmış yanıqları var
Mənim dərdlərimin ayaqları var-
Harda olsa, gəlib tapacaq məni.
Yanıb yandıracaq bu alov səni
Gəl məni özünə öyrətmə belə,
Əlimi əlinə öyrətmə belə,
Gözümü gözünə öyrətmə belə…

DAĞLAR ÇOX QƏRİBƏ OLUR GECƏLƏR

Nədir, üfüqlərə qar düşüb elə,
Bir cuna göylərdən asılıb qalıb.
Girib ünsiyyətə qaranlıq ilə,
Dərələr ucalıb, zirvə alçalıb.
Kahalar ətrafa qaranlıq ələr,
Dağlar çox qəribə olur gecələr.

Bircə qarışlıqda zülməti qırıb,
Bir şırım qar tutub qar yarğanını,
Sanki çadrasını ildırım cırıb,
Pambığı çıxıbdı daş yorğanının.
Çaylar qaranlıqda – bəyaz küçələr,
Dağlar çox qəribə olur gecələr.

Bütün üfüq boyu qara bir nəhəng
Uzanıb yer adlı çarpayısına.
Qorxuram yuxudan ayıla hövlnak,

Göydə tufan qopa, çarpayı sına.
Bəlkə də, yuxusu fələkdən gələr,
Dağlar çox qəribə olur gecələr.

Nə aydan, nə ildən hesab götürməz,
Min belə yatışla vaxtı ötürməz.
Göyün soltanlığı, yerin xanlığı,
Dünyanın ən böyük arxayınlığı,
Ömrün sonsuzluğu yatır elə bil.

Deyirəm belə bir daş yuxuluya
Bəlkə, çay laylası heç gərək deyil.
Bir şirin röyadır başdan-ayağa,
Ən uzun sükutdur enib torpağa,
Ən dərin yuxudur, dərindən dərin,
Torpağın ən nəhəng kölgəsi yatır.
Vəhşi qartalların, dağkəlilərin
Qayalı-qapçaqlı ölkəsi yatır.
Ayılmaz, min dəfə harayla, hayla,
Lap belə üstündən top-tüfənglə keç,
Yəni bu səhərin açılmasıyla
Bu nəhəng uyğudan ayılarmı heç?!

Bir şirin yağışdan gəlib həvəsə,
İstərəm mən də bir dincəlim yatam.
Bu böyük yuxunun önündə nəsə
Kiçik yuxusundan utanır adam.
Yəqin ki, nəhənglər belə dincələr,
Bəlkə də, ucalıq belə dincələr…
Dağlar çox qəribə olur gecələr!

BİR GÜNAH SƏNİNDİR, BİR GÜNAH MƏNİM

Bir gözünü mən əydim, bir gözünü sən,
Niyə narazıyıq bu tərəzidən?
Sən çeşmə qurudan, mən ağac kəsən,
Bir günah sənindir, bir günah mənim.

Bu südə su qatıb hərə bir qaşıq,
Arını şəkərə dadandırmışıq.
Bazarın yağı şor, balı qarışıq,
O mətah sənindir, bu mətah mənim.

Söz sözə gələndə sən nəfsi qıran,
Mən dünya malına göz yumub duran.
Amma ayrılıqda daşı da yaran,
Bir tamah sənindir, bir tamah mənim.

Görürük bu silah vurmur hədəfə,
Vurmur, ha atırıq mininci dəfə.
Əlimiz dolaşıb düşüb kələfə,
Bir əl gah sənindir, bir əl gah mənim.

Qoyma yalanımız qalxsın ayağa,
Hay deyirik, haya gəlmirik, qağa.
Sözü güləşdirib əhdi danmağa,
Bir vallah sənindir, bir vallah mənim.

Yamanca ustayıq hər ehtiyatda,
Dostluq şirnisi də dilimiz altda.
Amma yaman günə əlimiz altda,
Bir silah sənindir, bir silah mənim.

Ömür təsəllidi, ümid sabahdı,
İndi öz xeyrinə çoxu agahdı.
Hərə dolanışa bir cür nikahdı,
Bir nikah sənindir, bir nikah mənim.

Orda bulanıq su hopur torpağa,
Burda üzə çıxıb dönür bulağa.
Hələ ki, vaxtımız var durulmağa,
Bir sabah sənindir, bir sabah mənim...

BU DÜNYANIN QARA DAŞI GÖYƏRMƏZ

Leyləklərin çöp yuvası boş qalıb,
Bahar gedib, payız gəlib, qış qalıb.
Göy çəməndə ocaq yanıb, daş qalıb,
Bu dünyanın qara daşı göyərməz.

Nə o ocaq közərəsi, sönəsi,
Nə o günlər bir də geri dönəsi…
Qəm eləmə, könlümün bir dənəsi,
Bu dünyanın qara daşı göyərməz.

O gülyanaq bənddir bir xoş baxışa,
Körpə budaq əl açıbdır yağışa.
Min baharın hərarəti yığışa,
Bu dünyanın qara daşı göyərməz.

Ot göyərdib o cığırım, o izim,
Tufanlanıb çalxalanmaz dənizim.
Daha məndən sevgi umma, əzizim,
Bu dünyanın qara daşı göyərməz.

Araz boyu çox mənalar sezmişəm,
Elə bilmə əllərimi üzmüşəm.
Ürəyimə daş bağlayıb dözmüşəm,
Bu dünyanın qara daşı göyərməz.

NƏSR

KAMRAN NƏZİRLİ

GECƏ YAMAN UZUNDUR...

Hekayə

Gecəyarı qəflətən itlər hürüşdülər. Bu heç hürüşməyə də bənzəmirdi, ulayırdılar canavar kimi, elə bil kəndə düşmüsən. Əcaib-qəraib səslərdən adamın lap əti ürpəşirdi. Bir azdan həyətin pişikləri də onlara qoşuldu, heyvanların bir-birinə qarışmış qəribə səs-küyünə beşmərtəbəli "sovet kibrit qutusu"nun çoxdan sönmüş işıqları bir-bir yanmağa başladı. Pərdələr aralandı, adam siluetləri göründü.

- Allah xeyir eləsin, it uladısa, sürüyə qurd gətirər... - kişi deyinə-deyinə adyalı üstündən tıncıxırmış kimi atdı, durub çarpayıda oturdu, sonra çəhrayı zolaqlı ağ xalatını geyinib həyətə açılan pəncərə önünə sarı yeridi. - Bunların ağız-ağıza verib ulaması yaxşı əlamət deyil...

Otaqda heç kim yox idi, görünür, kişi sözləri qaranlığa deyirdi. Qaranlıq heç vaxt cavab vermir. Olur bəzən, əsasən kənd yerlərində, adam hirsini qaranlığa tökür, ya da heç tökmür, sadəcə, onunla mırt vurur, yaxud da belə yarıyuxulu anlarda onu həmsöhbəti bilib dərdləşir. Düzü, uzun qış gecələrində şəhərlə kəndin bir o qədər fərqi olmur; mahiyyətcə, hər iki məkanda qış gecələri uzun olur, həyat yorğun görünür, fərq, bəlkə də, çöl heyvanlarının səs-küyündə və tərkibindədir; itlərin, pişiklərin siyahısına mal-qaranı, toyuq-cücəni, çaqqal və tülküləri, hətta bəzən zülmət gecələrdə həyət-bacalara soxulan, gözlərindən od tökülən canavarları da əlavə eləsək, kəndlə şəhərin qış gecələrinin fərqini qismən də olsa, aydın görmək olar. Əlbəttə, məsələ təkcə bunda da deyil. Misal üçün, kəndə nisbətən şəhər adama çox şey öyrədir; öyrədir ki, həyat əlvandır, qaynardır, səs-küylüdür, vaxt çox qısadır, tələsmək heç də təndirə düşmək deyil (təndirə düşmək ehtimalı da az deyil!). Divarın o üzündəki qonşu

arvadının, ya da uşağının çığır-bağırını eşitməyi, gecənin tən yarısı, ya da sübh tezdən çöldən gələn maşın siqnallarına dözməyi, yuxarı mərtəbələrdəki eyvanlardan iylənmiş bozbaş qazanlarından həyətə tökülən çirkli suların qəfil şappıltısına diksinməyi öyrədir, bir az aralıdakı küçə və xiyabanlardan gələn təkər qıjıltılarına, daha başqa-başqa min cür uğultu və gurultulara uyğunlaşmağı... öyrədir. Bu anlarda kişi şəhərlə kəndin fərqi hayında da deyildi, o, neçə illər idi ki, pəncərəsi önündəki parkda müxtəlif çöl və ev itlərini, özlərini peyğəmbər övladı kimi aparan və günü-gündən çoxalan pişik və pişik balalarını görürdü. Onlar da həyətin və parkın daimi sakinləri kimi gah harasa tələsir, gah da ora-bura hərlənib sülənirdilər; hərdən görürdü ki, hansısa ağacın, gül kolunun, yaxud da oturacağın dibində şəhər həyatının kübar ədasıyla uzanıb mürgü vururlar. Hürüşmə və ucadan miyoldama çox nadir hallarda baş verirdi. Görünür, bu qəribə gecə heyvanları da tıncıxdırıb...

Kişi işığı yandırmadan pəncərəni açdı; binanın qarşısındakı parkın Nuh əyyamından qalma işıq direklərinin ikisi düz onun pəncərəsi önündəydi, ordan otağa zəif işıq düşürdü. Maraqla həyətə boylandı, yüngül külək çöldən isti gərmic havasını içəri vurdu; bir sürü it hündür şam və qovaq ağaclarının altında ağzını göyə tutmuşdu, həyətin və parkın demək olar ki, bütün pişikləri də həyəcanla o tərəf-bu tərəfə vurnuxur, arabir miyoldayır, mələşir, hətta bəziləri doğmaq istəyən inək kimi böyürürdü.

Pəncərəni örtüb işıq gələn qonaq otağına keçdi. Arvadı əlində kitab divanda yuxulamışdı; hansısa gənc nasirin "Gecə yaman uzundur" adlı ilk romanıydı. Görən, nə romandı belə? Bayaq da dedi ki, yuxum gəlmir, gərək bu əl boyda kitabı oxuyub qurtaram... Nə görüb onda?

İstədi durğuzsun, vaz keçdi. Necə oldusa, arvadının aram-aram döyünən sinəsi üstündəki uzun, nazik barmaqları diqqətini çəkdi. Üzüksüz qadın barmaqları tərtəmiz, səliqəli, qırışsız idi, elə bil məktəbli barmaqlarıydı. Kişi onları xeyli süzdü. O, bu qadınla düz əlli il idi bir yastığa baş qoyurdu. Zarafat deyil, əlli il! Nələr yaşamışdılar, nələr görmüşdülər: yaz, yay, payız, qar, boran, çovğun, yarıac, yarıtox günlər, qazanclar, sevinclər, itkilər, bir əli yağda, bir əli balda olan övladlar böyütmüşdülər, daş-qaş, qızıl-brilyant almışdılar, satmışdılar, oğlanlarına toy eləmişdilər, ev almışdılar, kiminsə başına soğan doğramadan... ömür beləcə ötmüşdü, qarnına daş bağlaya-bağlaya keçmişdi ömür. İndi bu köhnə "kibrit qutusu"nda tək qalmışdılar, əl-ayaq öpmədən, mürvətlərə qalmadan yeddi ruhlu adamlar kimi həyatı yola verirdilər...

O, ilk dəfəydi qadınına beləcə, yatandan sonra baxırdı. Bircə dəfə də olsun onu yatmış vəziyyətdə görməmişdi, indi gördü. Aman Allah! Sən yatanda daha gözəl olurmuşsan, qadın! Elə bil dünənki qızdı - sevgilisi, nişanlısı, görüşünə həvəslə getdiyi, gəlişini həsrətlə gözlədiyi "ağbənizli, qələmqaşlı, qaragözlü, incəbelli, gülərüzlü" nağıl mələyi... (bəlkə, elə həyat nağıldı?). Evlənəndən sonrakı illər ərzində bircə dəfə də olsun belə düşünməmişdi; sevgisini, istəyini, ürəyindəki ən mərhəm hisslərini belə, bu qadına açmamışdı...O da dünyanın bütün başqa kişiləri kimi, əsl sevginin kitablarda və kinolarda olduğunu zənn etmişdi. Düşünmüşdü ki, sevgi əbədi deyil, çox qısa ömrü var sevginin. Evlənməmişdən ona elə gəlirdi ki, sevgilisini ölənədək sevəcək, onun bir sözünü iki etməyəcək, ona hər gün xoş sözlər deyəcək (qadını gərək hər gün tərifləyəsən!), onu hər gün əzizləyəcək, onun üçün lap dünyanın o başına da gedəcək... Amma sonra o hisslər, düşüncələr, arzular yavaş-yavaş çiçək kimi soldu; bir il, beş il, on il, əlli ildən sonra isə tamam öldü... Yox, ölə bilməz! Axı bu ədalətsiz və amansız aqibətdir! Axı qadın bütün qəlbini və ömrünü sənə bağışlayıb - sənə həyatın ən qiymətli və ən gözəl duyğularını, həzzlərini yaşadıb; o səni kişi edib, ər edib, ata, baba edib, sənin başına tac qoyub, səni şah, peyğəmbər edib, evini-eşiyini, ailəni, övladlarını, ətrafını, havanı... tənzimləyib, nizama salıb... Məgər dünyada onun kimi nizamlayıcı var? Nə olsun peyğəmbərlərin hamısı kişi olub? Məgər peyğəmbərlərin özünü qadın doğmayıb?..

Kişi işığı söndürdü, ayaqları ucunda geri qayıdaraq dolabçadan adyal götürüb gətirdi, astaca arvadının üstünə örtdü. Birdən ona elə gəldi ki, otaq işıqlanır, o, hər şeyi apaydın görür. Kitabı

zərif barmaqları arasında sinəsinə sıxan uyumuş qadının üzündən nur yağır. Arvadının dinc və ağ bənizinə məsum tanış təbəssüm qonub - hə, xatırladı, əlli il bundan qabaq bir dəfə görmüşdü. Bəs necə olub ki, evləndikdən sonra o təbəssümü bircə dəfə də sezməyib... Axı necə ola bilər? Bəlkə də, görüb, fərqinə varmayıb? Ah, doğrudan, nə qəribə gecədi?! İt hürüşməsi, pişiklərin vəngiltisi, qaranlıq, işıq, sevgi və qadın təbəssümü... Görünür, həyat elə buymuş!

Dekabr gecələri uzun olur. İllah da ki, Bakıda; qar-şaxta yox, yağış yox, hərdən külək vıyıldayır, uğuldayır, isti hava kütlələri qıvrıla-qıvrıla yarımadanın gecələrinə qarışır. Belə gecələrdə yaşlı adamların, xüsusilə qan təzyiqi olan qocaların gözünə yuxu getmir. Oturub səhəri dirigözlü açırlar. Çox vaxt heç onlar üçün səhər də açılmır, elə əbədi gecə olur. Bəlkə, elə onun üçün də hər zaman gecə olub, hə?

Kişi xatirələrini dəmə qoyub asta-asta yataq otağına qayıtdı; həyətdən yenə heyvan səsləri gəldi. Bu dəfə itlərdən daha çox pişiklər vay-şivən qoparırdılar. Soyunub çarpayıya uzandı, düşündü ki, bəlkə, o da bir kitab götürüb oxusun; kitab oxuyanda adamın yuxusu gəlir. Nə çox yuxu gətirən kitab! Yox, yaxşısı budur, televizora baxsın. Hər halda, televizor yuxu üçün ən münasib dərmandır. (Yuxu dərmanı!). Düyməni basdı, kanalları bir-bir dəyişdirdi. Nəhayət, birinin üstündə əlini saxladı - film göstərirdilər...

...Qadın yataqda ərinə deyir:

- Cek, sən məni həqiqətən sevirsən?

- O nə sözdür, Marta, dünyalar qədər!.. Sənsiz ömrümü təsəvvür etmirəm...

- Yalan demirsən ki?

- Məni qorxudursan, Marta...Axı biz təzəcə evlənmişik! Hardan gəldi bu fikirlər ağlına?..

Pauza...

Qadın qəmli-qəmli yataqdan qalxır, geyinir, Cek də çarpayıda əyləşib təəccüb və heyrət dolu baxışlarla qadını süzür.

- Noolub, Marta?.. Bu gün səni tanıya bilmirəm...

Marta susur. Vanna otağına girir, tez də qayıdır. Gecədir. Pərdəsiz pəncərədən yataq otağına Ay işığı düşür. Marta yerinə girib arxasını ərinə çevirir, Cek arxadan onu qucaqlayır.

- Marta, sənə nə oldu axı? Bəlkə, bayaq kazinodakı milyoner nəsə...

- Hə, hə, Cek, o... mənə təklif etdi...

- Aman Allah! (Cek dikəlir, həyəcanlanır). De görüm nə təklif etdi o əclaf?

- Özündən çıxma! Dedi ki, sən gözəlsən. Gözəllik də sevgi kimidi - boş şeydi... Ötəridi, yel kimi... əsir, keçib gedir...

- Elə beləcə dedi? Nə üçün dedi axı? Başa düşmürəm...

- Cek, bilirsən, mən düşünürəm ki, bu dünyada hər şeyi almaq olar... Sevgini də...

- Marta, sən dəli olmusan? Bu nə sözdür?

- Yox, Cek, dayan bir, mənə qulaq as...İstəyirəm biz bir qədər açıq başla, sağlam düşüncəylə müzakirə edək bir məsələni...

- Hansı məsələni?

- O milyonçunun təklifini...

- Aman Allah, Marta... Mən onu öldürəcəyəm!

- Səfehlik eləmə...

Yenə pauza. Kadrlarda Ceklə Martanın yaşadığı kasıb, darısqal yataq otağındakı əşyaları göstərirlər: köhnə televizor, paltar dolabı, nimdaş pencək və köynəklər, rəngi ovulub tökülmüş divarlar, asılmış ucuz şəkillər...

- Bilirsən, gəl ağılla müzakirə edək... O məni bir gecəliyə satın almaq istəyir... Bir milyon dollar verir... Bir gecəliyə, eşidirsənmi? Qoca kişidir... Bir gecəliyə...

Pauza... Cek susur. O, dodaqlarını gəmirir. Marta isə davam edir:

- Mən düşünürəm ki, biz bu barədə birlikdə qərar verməliyik... İkimiz... Axı biz bir-birimizi sevirik... Seviriksə, deməli, sevgimizə görə riskə də gedə bilərik... Elə deyil, Cek?

Cek susur. Kədərlidir.

- Cek, səninləyəm. Niyə dinmirsən? Bəlkə...

- Marta, mən səni dəlicəsinə sevirəm... səni heç kimə dəyişmərəm...

- Mən də... Ah, səni sevirəm, Cek...

Qucaqlaşıb öpüşürlər...

Kadrda havanın işıqlandığı görünür. Səhərdir. Cavan ər-arvad yuxudan durur. İkisinin də kefi yaxşıdır.

Cek deyir:

- Bu gün kirayə haqqını verməliyik...Gedim görüm hardan pul tapa bilərəm...

Marta:

- Bəlkə, o milyonçuya...

Cek (düşünür, sonra gülümsəyir):

- Bilirsən, Marta, sənə demək istəyirəm ki... Mən fikrimi dəyişdim... Bəlkə, sən bir gecəliyə razı olasan... Hər halda, bir milyon dollar... Bütün həyatımız dəyişər...

Marta qayğılanır, bir qədər də əsəbi görünür:

- Mən bilirdim ki, sən məni sevmirsən... Yalandı sevgi...

- Yox, Marta, axı sən özün istədin... Mən səni sevirəm...

(Arvadına sarı gəlir, qucaqlamaq istəyir, amma qadın hirslə onu rədd edir).

- Mənə toxunma! Bir daha inandım ki, sevgi, əslində, yoxdu... Bir daha inandım ki, hər şey satılır...

Marta qapını çırpıb gedir...

...Kişi artıq yuxuya getmişdi. Yuxuda gördü ki, bir qızı sevir. Qız onun arvadına bənzəyir, elə bil bir almadır, ikiyə bölmüsən. Qız da onu sevir; o, qıza hər gün çiçək alır, xoş sözlər deyir, onu əzizləyir. Birlikdə kinoya, teatra gedirlər, bir-birlərinə diqqət göstərirlər. Evlənirlər, ata-ana, qonum-qonşu, qardaş-bacı, uzaq-yad adamlar onların sevgisinə həsəd aparırlar; cütlük, sanki güzgüdü, hamı o güzgüyə qibtəylə baxır, amma hamı görə bilmir, (axı güzgü görə bilən adamlar üçündü!), kirayələrdə yaşayırlar, işləyirlər, əziyyət çəkirlər, uşaqları olur, itkiləri, qazancları, məhrumiyyətləri... çox olur, amma sevgilərini qoruyurlar; ev-eşik qururlar, bir-birlərinə dayaq olurlar, xeyrə-şərə yarıyırlar, qəlblərini, ruhlarını, nəfslərini, övladlarını, evlərini, həyətlərini... hətta ehtiraslarını belə bütün burulğan və təhlükələrdən qoruyub qocalırlar. Birdən görür ki, əslində, təkcə o özü qocalıb, arvadı elə həminki ağbəniz qızdı - məsum, təmiz, üzügülər, namuslu və əzabkeş... Qəribədir, bəs nə üçün o gözəl qocalmayıb?.. "Ay qız, ay gözəl, de görüm sən hansı çaydan gəlmisən, adın nədir? Nə, nə dedin? Mələk? Mələk, sənsən?..".

Ayıldı. Başının üstündə arvadını gördü, yenə o tanış təbəssüm!

- Məni çağırırdın? - Mələk soruşdu.

- Hələ gecədi? Səhər açılmayıb?..

- Bu gün qış girir, innən belə gecələr uzun olacaq...

- Mələk, yaman yuxu görürdüm... Allah xeyrə calasın...

Mələk güldü.

- Üstümü sən örtmüsən? Bə niyə durğuzmadın?..

- Qıymadım... Elə şirin-şirin yatmışdın ki... Bütün günü işləmisən - paltar yumusan, evi təmizləmisən, xörək bişirmisən, dibçəklərə su vermisən, mənim köynəklərimi ütüləmisən, hələ bir gedib nəvələrini də bağçadan gətirmisən, aparıb vermisən ata-anasına... İstirahət də eləməmisən...

- Bə özün niyə yatmamısan?

- Filmə baxırdım... Axmaq bir Amerika filmidi...

- Hə, görürəm... Televizoru da söndürməmisən... - qadın kişinin böyrünə qısıldı.
- De görüm nə gördün yuxuda? Məni görürdün?
- Hə, inanmazsan, səni gördüm...Görürəm, toyumuzdu...
- Danışma...

Hər ikisi susdu.

- Səhər suya danışarsan...Yat, mənim şahım...

...Kişi əlini qadının saçlarına apardı, sığalladı, qadın gözlərini yumdu, onun üzündəki tanış təbəssüm kişiyə elə doğmalaşdı ki... Pıçıldadı:

- Dünyada ən yaxşı qadın sənsən!

Mələk dərhal gözlərini açdı, ucadan heyrətlə soruşdu:

- Nə dedin? Bir də təkrar elə...
- Dünyada ən yaxşı qadın sənsən, sən!

...Həyətdəki səs-küy kəsilmişdi. Qadın yenə şirin-şirin uyumuşdu. Kişinin yuxusu gözündə qırılmışdı, yata bilmirdi, bu gecə ona çox uzun gəldi. Televizordakı film isə davam edirdi.

...Marta Cekin yanına qayıtmışdı. O, göz yaşları içində ərindən üzr istəyirdi. Cekin gözləri də dolmuşdu.

- Bağışla məni, Marta!
- Bağışla məni, Cek. İndi başa düşürəm ki, həyatda üç şey var ki, onları pulla almaq olmaz: sevgi, təbəssüm, hava...
- Yox, Marta, pulla hər şeyi almaq olur... Axı sən özün o gün dedin ki...
- Cek, əzizim, məni bağışla, o milyonu qaytardım...
- Qaytardın? Dəli olmusan?
- Hə, Cek, mən dəli olmuşam, yalnız səni sevirəm, yalnız səni... Bizim o milyonçu ilə aramızda isə heç nə baş verмədi...

...Kadrlar dənizin dalğalarını göstərir. Dalğalar sahilə çırpılır, bir-birinə sarılan ər-arvadın üstünə su sıçrayır. Onlar öpüşürlər...

...Kişi televizoru söndürdü. Durub astaca yataq otağından Şərqə tərəf baxan mətbəxə keçdi. Çöldə bir qiyamət qopmuşdu ki, gəl görəsən. Hava, yer, göy uğuldayırdı. Qasırğaydı. Pəncərəni açar-açmaz gördü ki, külək həyətdəki yekə şam ağacını yerə çırpdı, o boyda ağac şaqqıldaya-şaqqıldaya dayanacaqdakı maşınların üstünə düşdü. Elektrik dirəklərindən bir neçəsi aşdı. İşıqlar söndü. Kişi "Allah, sən saxla!" - deyib pəncərəni örtdü. Günün ağarmasına hələ çox qalırdı.

POEZİYA



ƏLƏMDAR QULUZADƏ

İNDİ MƏNDƏN KÜS GÖRÜM...

Gözlərim bulud kimi sellərini axıdar,
Yersiz umu-küsünün dağlar boyda dağı var.
Küləyi öyrədərəm, tellərini dağıdar,
İndi məndən küs görüm....

Biz üz-üzə gələndə qəhərlənib çaşarsan,
Gözümün qabağında od tutub alışarsan.
Gördüyün yuxuları qızlara danışarsan,
İndi məndən küs görüm...

Sükut olub sakitcə yanından ötüşərəm,
Saçı saçından uzun söyüdlə öpüşərəm.
Nəğməmi dinləyəndə mən yadına düşərəm,
İndi məndən küs görüm...

SALAM, XOCALI DƏRDİM

Mən qoynunda doğuldum, sən içimə köçmüsən,
Nağıl dili olmasın, qıl körpüdən keçmisən,
Nəyinə güvənmişəm, nəyimə and içmisən?
Toyuna, bayramına bir vaxt salam verərdim –
Salam, Xocalı dərdim!

Qırxqız mehi mizrabın, Qarqar qopuzun idi,
Çölün də, çınqılın da şəkərin, duzun idi,
Qoynuna qısılanda qolların uzun idi.
Sənə ana deyərdim, mənə oğul deyərdin –
Salam, Xocalı dərdim!

Əlim ətəyə çatmır, əlim göylərə dəyir,
Öləyənlər öləyib əyilməzləri əyir,
Yetim uşaq görəndə yaralarım göynəyir.
Bu dərd tək mənim olsa, ürəyimdə çəkərdim –
Salam, Xocalı dərdim!

Qara, qərib daşı var hər əyilən xurcunun,
İstəyi gizli deyil burnumuzun ucunun,
Sağlığını istəyir axı borclu borclunun.
Sənin dərdin olmasa, bəlkə, çoxdan ölərdim –
Salam, Xocalı dərdim!

Məni daştək kündələ, məni qum kimi yoğur,
Bu dünyanın havası məni dördəlli boğur,
Üzümə bahar doğmur, üzümə payız doğur.
Əlim əlinə dəysə ayağını öpərdim –
Salam, Xocalı dərdim!

Mən qanımı görmüşəm düşmənin qaşığında,
Eşqim dəli olubdur həsrət yaraşığında,
Tonqal çatacağam mən bu dərdin işığında.
Sevincim inciməsin, mən dərdimə güvəndim –
Salam, Xocalı dərdim!

Ürəyin ülkər qızı, idrakın nizəsi var,
And mənə köhnə dostdur, sözümün təzəsi var,
Sevincin sirri bəlli, dərdin möcüzəsi var;
Pencər kimi biçilib, xəncər kimi göyərdim –
Sağ ol, Xocalı dərdim!
Sağal, Xocalı dərdim!
Salam, Xocalı dərdim!

QADAĞA

Yazda bulud sənsən, qışda çən mənəm,
Bu necə ədalət, necə bölgüdü?
Gözünün oduna bələnən mənəm,
Gözündən gülüşü dərən güzgüdü.

Dizləri əsməyib dizlərim kimi,
Gördüyü yuxunu yozub saxlamır.
Hələ gözəlliyi gözlərim kimi
Güzgü yaddaşına yazıb saxlamır.

Güzgü var, ürəkdən gülür yaz günü,
Güzgü var, üstünü bürkü alıbdı.
Gözlərin dolanda sənə könlünü
Gözlərindən qabaq güzgü alıbdı.

Eşqimi ucaldıb bu güzgü göyə,
Sən mənə nə yayı, nə yazı saxla.
Təkcə qadan alım, soyuq güzgüyə
Məni payızacan tamarzı saxla.

Özünə güvənib özgəyə baxma,
Qıyma ürəyimə bir sözün dəyə.
Gözlərin güləndə güzgüyə baxma,
Qorxuram özünə öz gözün dəyə.

HANI

Dumansansa, sinəmə çök,
Baharsansa, gülün hanı?
Donmusansa, buza oxşa,
Yanmısansa, külün hanı?

Şəkərsənsə, bircə kəlmə
Şəkər kimi sözün olsun.
Yağışsansa, bulağa dön,
Bulaqsansa, gözün olsun.

Göydən gələn mələksənsə,
Gəl köksümə qısıl mənim.
Yazın səhər şehisənsə,
Kirpiyimdən asıl mənim.

Həsrət ilə xoşbəxtsənsə,
Ağlama heç, ağrıma heç.
Bu çəpərin o üzündən
Baxmısansa, bağrıma keç?

Gəlirsənsə, yola baxım,
Sevirsənsə, səbrin hanı?
Dirisənsə, öldür məni,
Ölmüsənsə, qəbrin hanı?

BİR QƏLƏMİN ƏSİRİ

Dünya quzğun, mən də quzu,
Bir ağaca qatdı məni.
Bir top verib dedi, oyna,
Sonra topa tutdu məni.

Nə tapdısa tez taladı,
Gah tüpürdü, gah yaladı.
Kötük üstə baltaladı,
Comaq kimi ütdü məni.

Nəfi yeyin nəfəs dərdi,
Arxalıya sinə gərdi.
Qatır məni yerə sərdi,
Kirpi gəlib ötdü məni.

Dünya mənə can-can dedi,
Nə dedisə yalan dedi.
Bir dəliyə qurban dedi,
Bir dəllala satdı məni.

Sədası var hər sələmin,
Düz yüküyəm öz şələmin.
Dünya bir gün bir qələmin
Qabağına qatdı məni.

GÖY GÖZÜN ƏFSANƏSİ

Qız güləndə, dodağımda söz yanıb,
Söz görəndə közün üstdə bişmişəm.
Göy dənizin gözlərindən yayınıb,
Göy gözlərin ovsununa düşmüşəm.

Səs kövrəlir tütək təki, ney təki,
Gözdən axıb gələn düzlü çay olur.
Gözdən qorxan gözəl qızlar bilir ki,
Göz qaytaran gözmuncuğu göy olur.

Həsrət sənin gözlərinə qıyanda,
Dərdin alım, dəyərimi bilirsən.
Dizlərini göy çəməndə yuyanda,
Gözlərini göy dəsmalla silərsən.

Gözlərimdə göyəribdi izlərin,
Gözüm gülmür göyərçinin köçünə.
Bəlkə, girib göy zənbilə gözlərin,
Göydən düşüb gözlərimin içinə.

Gülü dərib gözlərinə baxıram,
Bu incidən mənə də ver bir gilə.
Gözün dolub, göl daşacaq, qorxuram,
Kirpiklərin özün ata göy gölə.

POEZİYA



FƏXRİ MÜSLÜM

SIZLAYIR

Olanlar bezdirib adamı daha,
İlişib dodaqda sözüm sızlayır.
Könül də, qanadı qırıq quş kimi,
Sinəmdə meh altda közüm sızlayır.

Hələ ovulmayıb çox itin boynu,
Qurtarmır əməli, qurtarmır oynu,
Bir kimsə dartıb da çəkəmmir yaynı,
Hirsimdən, qəzəbdən üzüm sızlayır.

Kipriklər sallanb enər danüzə,
Ölüm kölgə kimi enər bənizə,
Sanki duman enər, çən enər üzə,
Bir acı damcıdan gözüm sızlayır.

Sən elə ha buda, bu kol da, kos da,
Yenə tikan-tikan, dik, ayaqüstdə,
Qatıb qanı qana neçə can üstdə,
Yaddaş it-bat olub, izim sızlayır.

Yollar daraq kimi, köçü daradı,
Ağrılar, acılar içi daradı,
Külək, sazaq tutub diki daradı,
Eniş-yoxuşunda dizim sızlayır.

Olanlar bezdirib adamı daha,
İlişib dodaqda sözüm sızlayır.
Könül də, qanadı qırıq quş kimi,
Sinəmdə meh altda közüm sızlayır.

TUTAM

Bu zalım dünyanın, acı dünyanın,
Əməli qoydumu beli düz tutam?
Kəlmə də, hər yerdən yarımçıq keçir,
Hardasa haqmı var, əli düz tutam?

Daha gözlərim də, biri üç seçir,
Canım sığınmağa bayır, künc seçir,
Könül də kövrəlib yazından keçir,
Dizmi var cığırı, yolu düz tutam?

Nə var dənləmişəm dən-dən içimə,
Ömür də köklənib uzaq köçünə,
Canım, gücmü qaldı əkin, biçinə,
Toxanı düz tutam, beli düz tutam?

Tapdadı yamacı, tapdadı dağı,
Heç yer də qoymadı ipuca, yağı,
O gündən ağarmır sübhün dan ağı,
Hal-əhvalmı qaldı dilim söz tuta?

Dərd də paltar kimi yamanıb qaldı,
Dəymir hədəfinə sonnanıb qaldı,
Elə kürəyimdə qınnanıb qaldı,
Məndə hənirmi var külüm köz tuta?

Yüklənib sinəmiz çəkir torpağa,
Ruh da əsim-əsim dönüb yarpağa,
Hərə də, bir məmur, hərə bir ağa,
Adammı qalıbdı elim üz tuta?

Yolun ayağında umud ilinir,
Yolun o başında yer-yurd bölünür,
Tam yeni sifətlər, üzlər bilinir,
Yaddaşmı qoydular çəlim, iz tuta?

Bu zalım dünyanın, acı dünyanın,
Əməli qoydumu beli düz tutam?
Kəlmə də, hər yerdən yarımçıq keçir,
Hardasa haqmı var əli düz tutam?

MƏN QƏDİM ADAMAM

(75 yaşıma)

Baxmayın ömür-gün,
Bir nazik sap kimi iynədən keçdi,
Yarı ac, yarı tox öynədən keçdi,
Şehlənib, mehlənib meynədən keçdi,
Mən, qədim adamam, qədim, a, dostlar.

Bu yaş yetmiş beş yox, min, milyon ildi,
Könlümə Ay üzlü nur dolan ildi,
Yaddaşda hələ də sirr qalan ildi,
Mən, qədim adamam, qədim, a, dostlar.

Sədam da Tanrıdan, göydən gəlibdi,
Bozqurdun səsindən, küydən gəlibdi,
Şərə, zülmə qarşı,
Oxumdan gəlibdi, yaydan gəlibdi,
Mən, qədim adamam, qədim, a, dostlar.

Min illik qayamda, daşda yazım var,
Hər köhnə cütümdə, xışda yazım var,
Arazda bir qərib, xoş avazım var,
Mən, qədim adamam, qədim, a, dostlar.

Bozqır çöllərimdə,
Göydəmir atların nal izi durur,
Ulusun-ulumun yol-izi durur,
Ağrıdan, acıdan
İçimdə hələ də, xal izi durur,
Mən, qədim adamam, qədim, a, dostlar.

Hələ çəkəmmirəm, yüküm də, ağır,
Qıpçaqdan, oğuzdan köküm də, ağır,
Sevinci, qüruru könlümə yağır,
Mən, qədim adamam, qədim, a, dostlar.

Türkün türk gəlişi, türk qayıdışı,
Keçdi nəsil-nəsil, keçdi, nə yaxşı,
Canıma, qanıma çökdü, nə yaxşı,
Mən, qədim adamam, qədim, a, dostlar.

Baxmayın ömür-gün,
Bir nazik sap kimi iynədən keçdi,
Yarı ac, yarı tox öynədən keçdi,
Şehlənib, mehlənib meynədən keçdi,
Mən, qədim adamam, qədim, a, dostlar.

BİTİRƏR

Boz köynək şairlər, künə şairlər,
Sözdən qala tikib, qala bitirər,
Hər biri Tanrıya, göyə üz tutub,
Gecəni obaşda belə bitirər.

Sirdən, sifətdən də, boz olar bir az,
Gecəsi, gündüzü sozalar bir az,
Könlünü sar payız, yaz alar bir az,
Eşqini çiçəklə, güllə bitirər.

Qibləsi Güneyə, Təbrizə tərəf,
Ulular qoyduğu yol, izə tərəf,
Yalı-yamacına, hər düzə tərəf,
Barı-bərəkəti əllə bitirər.

Zamanı qalmaz ki, qəmi ovuda,
Başından dumanı, çəni ovuda,
Sinədə səs verən simi ovuda,
Beçə köküdəki tellə bitirə.

Yaşlanar, yer çəkər, dizlər yığılar,
Ağarar kipriklər, gözlər yığılar,
Qırış qıyma çəkər üzlər yığılar,
İçə gizlin düşmüş,
sirr qalmış bir qara xalla bitirər.

Soyuq incə-incə kürəkdən çəkər,
Ayağı yer alar, ürəkdən çəkər,
Biraz da qolundan, biləkdən çəkər,
Qış ağzı ömürdə çillə bitirər.

Fəxri der: sıxılıb söz də, yan keçər,
Ömür-gün arsıztək yüzə can çəkər,
Yaddaşda çözülən izə can çəkər,
Obayla bitirər, ellə bitirər.

Boz köynək şairlər, künə şairlər,
Sözdən qala tikib, qala bitirər,
Hər biri Tanrıya, göyə üz tutub,
Gecəni obaşda belə bitirər.

DƏYİŞDİ

İndi də havaya əl uzatdılar,
Yağış da dəyişdi, qar da dəyişdi.
Dodağı açılmır gülün, çiçəyin,
Ağacda meyvə də, bar da dəyişdi.

Qançır dəymiş attək, adamda üz yox,
Dinməyə ağızı, deməyə söz yox,
Meydan dərə-təpə, heç harda düz yox,
Canda da bu varlıq, var da dəyişdi.

Keçmişin bir boyat günü yaşandı,
Cəhənnəmin dibi, sonu yaşandı,
Sanki mollalığı, xanı yaşandı,
Şallax gündəm oldu zor da dəyişdi.

Yalan yer süpürdü, qayadan keçdi,
Qürurlu qürurdan, həyadan keçdi,
Daşıdığı addan, soyaddan keçdi,
Zülmə çəkdi, ahı-zar da, dəyişdi.

Fəxri der: Güneyim, Təbrizim gözlər,
Ot basmış cığırım, hər izim gözlər,
Bizləri Göy üzüm, yer üzüm gözlər,
Bu nədi sülhü də, hürr də, dəyişdi!?

POEZİYA



İSMAYIL MƏRCANLI İMANZADƏ

ZƏFƏRİN MÜBARƏK, VƏTƏN

(Allah şəhidlərimizə rəhmət eləsin)

Xoş günlərdən soraq verir,
Axşamın, səhərin, Vətən!
Düşmənlərə göz dağıdır
Hər təzə Zəfərin, Vətən!
İgid-ərən oğulların
Tapdayıb bəndi-bərəni,
Bir həmləylə sevindirdi
Xocalını, Əsgəranı,
Xocavəndi, Ağdərəni...
"Dəmir Yumruq"dan güc aldı
Qatlanmaz qanadın-qolun!
Qırdın paslı qıfılını
Xankəndiyə gedən yolun!
Qarşında tab gətirmədi
Zülmə sipər olan "barı".
Diz çöküb, aman dilədi
Səndən harsın dığaları...
Başın sağ olsun... yenə də
Haqq yolunda cəngə çıxıb,
Candan keçənlərin də var!
Qanlı şəhid köynəyiylə
Ulu Tanrı Dərgahına
Vaxtsız köçənlərin də var...
Qalibiyyət simvoludur
Üç rəngli bayrağın sənin!
Bütövləşən sərhədlərin
Sabahkı növrağın sənin!..
Türkün Türkə can borcu var,
Nə yalqızsan, nə tək, Vətən!
Hünərindən soraq verən
Zəfərin Mübarək, Vətən!

OTUZ İL

Otuz il yanımdan yel kimi keçdi,
Əymədim qəddimi qərib eldə də.
Sandım dönük bəxtim yol azmış köçdü,
İşartı axtardım soyuq küldə də.

Hərdən yamanlıqla durdum üz-üzə,
Kölgəmi daşlayan çoxmuş heç demə!
Döndüm misra-misra kəlməyə-sözə,
Səsim bürünsə də qüssəyə, qəmə.

Otuz il boylandım Cəbrayıla mən,
Yuxumda dil açdı aranım, dağım.
Xəyalən adladım Xudafərindən,
Böyük Mərcanlıdan gəldi sorağım.

Otuz il səmtini itirdim köçün,
Heç demə içimdə boğulan səsmiş.
Bildim bu günlərə çatmağım üçün
Yurdumun bir udum havası bəsmiş!

Otuz il ələdim dostu, doğmamı,
Bildiyim çox şeyi üzə vurmadım.
Minnətsiz qazandım halal loxmamı,
Minnətli heç nəyə yaxın durmadım...

Düşmənlə savaşda Zəfər müjdəli
Ərənlər yolların tilsimin qırdı.
Elə bil təzədən Tanrının əli,
Yaralı könlümdə toy-büsat qurdu...

O illər dönməyə geriyə bir də,
Mənim yurd həsrətim lal bir hənirmiş.
Hərdən sızlayanda Mingəçevirdə,
Qəlbim yurd yerimdə tüstülənirmiş...

ARAZ NƏMLİ GÖZLƏRİMDƏN AXIRMIŞ...

Ürəyimdə sızıldayan dərd çayım,
Qismətindən hələ incik-pərt çayım.
Bakı-Təbriz qiyafəli mərd çayım,
Deyən varmı doluxsunub heç nədən,
Göz-göz olan yaraları qövr edən?
Qəm-qüssəsi gör necə də ağırmış -
Araz nəmli gözlərimdən axırmış!

Yaranışdan həm Sultandı, həm də Xan,
Bir düşməni gödən sökən, ev yıxan.
O birisi hürə-hürə vurnuxan,..
Bel sütunu Xoy, Ərdəbil, Qaradağ,
Qilbəgahı Zəfər taclı Qarabağ...
İllər boyu bəxtinə qar yağırmış -
Araz nəmli gözlərimdən axırmış!

Xudafərin daş köynəkli dastanı,
Yağı bəlli, namərd aşkar, dost hanı?..
Görən varmı heç möhləti-amanı?
"Gülüstan"da şux qaməti bükülən,
"Türkmənçay"da gözünə mil çəkilən.
Xəmirini kimlər dərddən yoğurmuş -
Araz nəmli gözlərimdən axırmış!

Həsrət yükü hələ o tay, bu taylı,
Bəd taleyi nə sovqatlı, nə paylı...
Hayqırtısı hərdən cəngli-haraylı,
Gorum çatlar qisas qalsa sabaha...
Gülsə üzü, deyərəmmi heç daha,
Tanrı ona gəc nəzərlə baxırmış -
Araz nəmli gözlərimdən axırmış!..

YAŞADIM

Baxan kimi bəxt üzümə qıyqacı,
Bildim yoxdu tənhalığın əlacı.
Xatirələr həm şirinmiş, həm acı,
Hərdən dönüb ötən anda yaşadım.

Qoşa gördüm bəzən sevinclə qəmi,
Həzm elədim həm artığı, həm kəmi.
Haqlı-haqsız daşladılar kölgəmi,
Zülmət donlu bir ünvanda yaşadım.

Bələd oldum sərt üzünə möhnətin,
Halallıqla baş girləmək çox çətin...
Arxasınca sürünmədim şöhrətin,
Təkcə təmiz adda-sanda yaşadım.

Avazımdı vərəqlərdə əkdiyim,
İlk eşqimmiş göz yaşıma bükdüyüm.
Misra-misra şəkilini çəkdiyim
Ay-ulduzlu asimanda yaşadım.

ÖMRÜMÜN "ŞİKƏSTƏ"SİYƏM...

Bəllidir ismim, ünvanım,
Halallıq şərəfim-şanım.
Təmizdir cismimdə qanım,
Ruhumun əkiz tayıyam.

Sanmayın bir ovuc küləm,
Daş üstə də açan güləm.
Yarpağam, dənəm, sünbüləm,
Tanrının şirin payıyam.

Zülmət donlu yol üstəyəm,
Həm "zil"də, həm də "pəs"dəyəm.
Ya "Segah", ya "Şikəstə"yəm,
Ömrümün son harayıyam.

ÜRƏYİM TAPDANMIŞ ƏKİN YERİDİ...

Əzəldən su kimi safam, duruyam,
Ürəyim nə qəzəb, nə kin yeridi.
Bəlkə də bir zərrə Günəş nuruyam,
Şirin arzularım əkin yeridi.

Acı söz - mürgülü iynəm-tikanım,
Yalana bəllidir təkcə, sərt üzüm.
Haqdan soraq verir hər gələn anım,
Dilimin ucunda söz düzüm-düzüm.

Əlimdən çıxanda bəzən dincliyim,
Heç kimi nahaqdan tapdamamışam.
Nə yersiz hökmüm var, nə boş hay-küyüm,
Mərdlik nişanəli cəngəm-savaşam...

Söz odum, torpağım, havam, suyumdu,
Saflaşa biləndə niyyət etmişəm.
Ovcuma düşənlər tale payımdı,
Qəmə-qüssəyə də biət etmişəm.

Kim kəsə bilər ki axı, yönümü?
Bəxtin sapandından atılan daşam.
Səyirdib yüyənsiz "söz köhləni"mi,
Şeirin "quluncunu" ovxarlamışam...

Sevincim bəmdədir, nisgilim zildə,
Vücudum nə qəzəb, nə kin yeridi.
İllərlə sızladım bir qərib eldə,
Ürəyim tapdanmış əkin yeridi...

POEZİYA

ZEYNALABDİN NOVRUZOĞLU

ARAZ İÇİMİZDƏN AXIRMIŞ BİZİM

İnanan inansın, inanmayan heç,
Araz içimizdən axırmış bizim.
Buyur, bu da Araz, bu da körpü, keç!
Araz içimizdən axırmış bizim.

Keçənlər haraya gedir, görəsən?
Bazara gedənlər deməz, öləsən.
Narkobaronları hələ görəsən,
Araz içimizdən axırmış bizim.

Xalılar, xalçalar sərilib yola,
Kisələr, qutular verib qol-qola,
Alış-veriş gedir baxırsan hara,
Araz içimizdən axırmış bizim.

Tamah mindi ata, qaldıq piyada,
Qul olduq şöhrətə, sərvətə, ada...
“Gülüstan”, “Türkmənçay” düşməyir yada,
Araz içimizdən axırmış bizim.

Süleyman Rüstəmlə Səhəndə qədər,
Şəhriyar, Bəxtiyar, Məmmədə qədər.
Arzular ürəkdə qaldı nə qədər,
Araz içimizdən axırmış bizim.

Bir vaxt Söhrab Tahir görüş istədi,
Dedi ki, görüşsəm, ayrılmaq nədi?
Bugünkü görüşlər ayaqüstdədi,
Araz içimizdən axırmış bizim.

Elə hey Babəki, Tomrisi andıq,
Sözün arxasında gizlənib qaldıq.
Hələ su gəlməmiş arxı hoppandıq,
Araz içimizdən axırmış bizim.

Bu yolda min il də yürüsək əgər,
Nə çaylar quruyar, nə sərhəd itər,
Arazdan şikayət hədərdir, hədər.
Araz içimizdən axırmış bizim,
Araz içimizdən axırmış bizim...

ALLAH, GƏDALARDAN UZAQ TUT MƏNİ

Allah, gədalardan uzaq tut məni,
Bunca ayaqlara salma bəndəni!

Nərin dizlərinin altında olum,
Torpağın yeddinci qatında olum,
Dəmir çarıq, dəmir əsa - yol yorum,
Allah, gədalardan uzaq tut məni.

Anlamaq dərdinə onlar biganə,
Anlamayan həngamədi, həngamə.
Mənmi günahkaram, yoxsa zəmanə?
Allah, gədalardan uzaq tut məni.

Ona ağa olmam, bunda gözüm yox,
Qanana qul eylə, buna sözüm yox,
Belə yaşamağa məndə dözüm yox,
Allah, gədalardan uzaq tut məni.
Allah, gədalardan uzaq tut məni!

SATDILAR ONU

Qılınc parıldadı, atlar kişnədi,
İlanın zəhəri qana işlədi.
Siyasət şeytanı barmaq dişlədi,
Bu Novruzəlini tovlamaq üçün,
Bu Novruzəlini ovlamaq üçün.

Pusqular quruldu, kəmənd atıldı,
Toxunan arğaca qəzil qatıldı,
Kimin nəyi vardı, onu satırdı.
Bu Novruzəlini tovlamaq üçün,
Bu Novruzəlini ovlamaq üçün.

Dillər haçalandı yalan deməkdən,
Qarınlar piy tutdu haram yeməkdən,
Üzlər yorulmadı dəri geyməkdən.
Bu Novruzəlini tovlamaq üçün,
Bu Novruzəlini ovlamaq üçün.

Çörək yeməmişdi, gözü tutuldu,
Saldılar quyuya, özü tutuldu,
Dedilər ki, öldü, canı qurtuldu.
Sən demə yazığın nəfəsi varmış,
Nəfəsi olana soyuq olarmış.

Bu Novruzəlini tovlamaq üçün,
Bu Novruzəlini ovlamaq üçün.
Əl-əl axtaranlar tapdılar onu,
Çox ucuz qiymətə satdılar onu.

ƏCLAFIN YERİNƏ ÖLMƏK İSTƏYİR

Nifrət toxumunu kim əkib yerə?
Göyərib insanın başından uca...
Əlinə bir balta götürüb hərə,
Vuruşmaq istəyir məğlub olunca.

Zənci saçı kimi qarışıb dünya,
Qarası ağına meydan oxuyur.
Zorun ətəyindən yapışıb dünya,
Yüyürür, yıxılır, durur, oynayır...

Bu sərsəm halında dünya gülməli,
Ağlayan güləndən çoxdu, nə fayda?
Hər kəs çalışır ki, çıxsın irəli,
Əl-ələ yapışan yoxdu, nə fayda?!

Xalqlar bir-birinə qənim kəsilib,
Kimin tifaqını kim dağıdacaq?
Ev yıxan, baş kəsən yaman tələsir,
Di gəl ki, arada xalq qırılacaq.

Ölkələr dağılır, ocaqlar sönür,
Zati-alilərin iradəsiylə.
İnsanın insandan üzümü dönüb?
Etnik ayrıcılıq bəhanəsiylə.

Güclülər döyüşdə zəif axtarır,
Zəiflər terrorla silahlanırlar.
Hamı cibidolu hərif axtarır,
Hərif lər hər yerdə yaxalanırlar.

Qırır bir-birini bu bəşər nədən?
Guya ki, dünyada nizam yaransın.
Davanın səbəbi gödəndir, gödən,
Bunu hər kəs gərək qansın, anlasın.

Neftin iyindən, qazın qoxusundan,
Başlar sərməst olub, gözlər tutulub.
Tankın, təyyarənin uğultusundan,
Uşaqlar qorxudan ödünü udub.

Bəs sivil ölkələr, mədəni xalqlar,
Niyə bu vəhşəti görmür, görəsən?
Rütbəsi boyundan uca cənablar,
Niyə xəcalətdən ölmür, görəsən?

Dəlilər ağıllı donuna girib,
Bölünən dünyanı bölmək istəyir.
Ağıllı əcəli qənimət bilib,
Əclafın yerinə ölmək istəyir.

HÖRÜMÇƏK
(Satirik qələmlə)

Hörümçək, ay hörümçək,
Xortumunu məndən şək.
Get milçək tutmağına,
Nə düşsə qarmağına,
Allahına şükr elə.
Mozalana kəmənd at,
Arını gətir ələ.
Mənlə işin olmasın,
Çal, böcəklər oynasın.
Yığışdır bu yumağı,
Məni ələ salmağı,
Gətirmə heç ağlına.
Yerləşmərəm ağzına.
Bəlkə, ayrı sözün var?
Şadsan, gülər üzün var.
Nə deyirsən mənə, nə?
Gətirdiyin xəbər nə?
Atam axşam gələcək,
“Gündəliy”i açacaq,
“Beş” qiyməti görəcək.
Başımı sığallayıb,
Sonra “sağ ol” deyəcək.
Sən də sağ ol, hörümçək!
Necə göyçəksən, göyçək.
Lap yerində gəlmisən,
Xoş xəbər gətirmisən.

POEZİYA

AYSEL XANLARQIZI SƏFƏRLİ

YAĞIŞLI ŞEİR

Yenə yagış yağır bir tərəfimə,
Xəyalın Günəşdir bulud qəlbimdə.
Yenə həsrətinin dumanı çöküb,
Yazın qış baxışı inad qəlbimdə.

Gecə təbiətlə döyüşə çıxıb,
Yenə üst-başını isladıb şimşək.
Gözümün qarasın çəkib çarmıxa,
Yenə yoxluğuna çəkirəm keşik.

Dəli leysan yuyub yanaqlarımı,
Kədər kölgələnib dözümün altda.
Səbrin ətəyini dartıb qalmışam,
Düşüb əzilmişəm gözümün altda.

MƏN SƏNƏ YOLUXDUM…

Mən dolu dünyanın boş tərəfiydim,
Buludun əynində yaş tərəfiydim,
Yazın şaxta vurmus qış tərəfiydim...

Eşqi daşa hörmüş məzar şəkliydim,
Gözü firtınalı Xəzər şəkliydim,
Dəli şübhələrin azar şəkliydim...

Ruhumu tərs geydim dəli ömrümə,
Qismətin çatmadı əli ömrümə,
Döşə sənə gedən yolu ömrumə...

Sıxdım buludların nəm saçlarını,
Açdım ulduzlara ovuclarımı,
Ömür çiçəklədi ağaclarımız...

Nəmli kirpiyimin çırpdım qarını,
Payızdan götürdüm budaqlarımı,
Gəldin, yaşıl etdin yarpaqlarımı...

Mənə söz bağçandan gül dəstələdin,
Şeirimin sətrinə eşq bəstələdin,
Mən sənə yoluxdum, bil, xəstələndim...

GECƏNİN BAŞI AĞRIYIR...

Eh, bu necə darıxmaqdır,
Qolları yox, qucağı var.
Xəzan rəngli yuxularım,
Ağacı yox, budağı var...

Eh, bu necə darıxmaqdır,
Küləyi göydə boğulub.
Gecəsinin batıb səsi,
Nəfəsi yerə dağılıb...

Buludları yuyub sıxıb,
Döşəyirəm göyə xalı.
Günəşi əlimdə tutub,
Yandırıram ömür yolun.

Budağına qısılıram,
Nar ağacı asır məni.
Yarpağın səbri daralır,
Dar ağacı asır məni.

Ürəyimdən keçən yollar,
Əllərində gəlir, bitir.
Gözlərində rəngləndikcə,
Dinir şeir, yanır sətir.

İslanır gözü Tanrının,
Dua edir tək otaqda.
Açıram nəmli gözümü,
Payızla eyni yataqda.

Eh, bu necə darıxmaqdır,
Gözlərim soğan doğrayır.
Sabahı tələş bürüyüb,
Gecənin başı ağrıyır...

SONUNCU SEVGİ ŞEİRİ

Qan tutmuş gözlərini gecə ovar sabahın,
Kirpiyim arasında dan yeritək sökülər.
Əllərindən üzülən əlim ovuclarımda,
Sıxar barmaqlarımı, öz içinə çəkilər...

Keçib tənha ürəyim dünyanın bir küncünə,
Qarğıyar ayrılığın döyər yanaqlarına.
Sən gedəli yüz ildir, qollarından yetiməm,
Həsrəti duz basıram dərdin yanıqlarına...

Saçımda qoxlayaram vida öpüşlərini,
Daramıram, itməsin əlinin sığal yeri...
Adın dua əvəzi hecalanar dilimdə.
Sən mənim ürəyimin sonuncu sevgi şeiri,
Bil, adınla sonlanar bütün qafiyələrim...

İSTƏYİRSƏN YOL OLUM…

Saçlarımdan yıxılıb
Sığalın baş aşağı...
Dodağının ucunda,
İtirmişəm sabahı...

Həyat - ayağım altda
Sınmış ümid tikəsi.
Ölümün işığında -
Gözlərimin kölgəsi.

Ruhum qürub eləyir
Bəxtimin zülmətində.
Sancılanır buludlar
Bir sevginin bətnində.

Barmağımın ucunda
Yarımçıq, çərək notam.
Məni anam doğmayıb
Allah qovub həyata...

İstəyirsən yol olum,
Sən də məndən gedən ol.
Al götür nəfəsini, -
Başqa ruha bədən ol…

ŞAİRİM

Sən hər beyt titrədikcə içimdə,
Failatün, failatün, faülün…
Qəliblərə sığmıram,
Sənə olan duyğuları
Misralardan yığmıram.
Şeir-şeir yaşadıqca
sevgini,
ölçülərə baxmıram…
Tutub ilham pərisini
Dizi üstə çökdürürəm.
Sətirlərin qarşısına,
Heca-heca eşq səpirəm.
Duyğuları Günəş-Günəş
doldururam qələmə…
Çiçəklərin ruhunu
çəkirəm söz şirəmə,
səni hər an
eşq-eşq doğub şeirimə,
Şairim!..
Nə bölgüm var, nə qəlibim,
gəl ömrümə,
Failatün, failatün, faülün…

“SƏFİLLƏR”

Qavroş tənhalığında
səfilliyi yaşayıram,
Fil heykəlində
isinməyə çalışan ümidləri
Fantinanın doğum ağrılarına
daşıyıram...
Özümdən böyük
ömür yükü ilə
qorxulu gecələrin
vahiməli tənhalığından keçirəm.
Yuxularım katorqalı məhkumun
arzuları qədər ağrılı,
insanlıq Yepiskopdan
bagışlanmaq istəmək
qədər qayğılı...
Oyanıb
qoynuma buraxılan
gəlincik sevinci yaşamaq həsrətiylə
yeni üfüqlərə can atmağa istəkliyəm.
Talesiz misralarda
küskün bir ruham,
həsrəti
cildlənmiş sabaham...
Ömür,
göz qapaqlarım arasında
intihara
yol gedir....
Arzular zədə alanda
yalnızlıq da qoşun çəkir,
savaşır düşüncələr də
hətta,
Görən səfilliyin nə olduğunu
mənim kimi bilirmi
Kozetta???
"Səfillər" məndən bəhs edir...

POEZİYA

XATİRƏ FƏRƏCLİ

QATAR GÖZLƏYİRƏM

Bu qatar da ötüb getdi,
Ünüm yetmədi, yetmədi.
Gedib, gedib gözdən itdi,
Güman itmədi, itmədi.

Bir dəli inada qulam,
Könlümdə dağıntı, savaş.
Nagüman qatar gözləyib,
Nə çəkirəm, biləydin kaş.

Söykənib tənha söyüdə
Budaqdan bar gözləyirəm.
Qatarlanıb illər gedir,
Mənsə, qatar gözləyirəm.

SƏNİ İSTƏMƏK AĞIR

Niyə çat vermisən, torpaq,
kimin həsrətin çəkirsən?
Bu nə sevgi?
Sənin istəyin bəlli,
səni istəmək ağır...
Ruhsuz gəlir qucağına
bağrına basdığın adam,
qoynuna gələn fağır.
Üstündə həyat-həyat oynayanlar,
dünyayla başın qatanlar,
səni sevənlər,
səni satanlar.
Eyni gözlə baxırsan hamıya.
Bu nə böyüklük, nə səbr?!
Torpaq, torpaq...
qoynun gülüstan,
için qəbir.

BU SÜKUT

Bu sükut nə soyuqdur
Dondurur ruhu belə.
Nə qədər sarmaşsa da,
İnsana yaddır elə.

Ünvansız vahimədir,
Bir kölgə tərpənişi.
Bir sərçə uçuşunda
Ürəyin ürpənişi.

Az qalır uda səni
Hünərin var yarıb keç.
Sazağın sırsıratək
Boynundan asdınmı heç?

Bunun əfkarı zillət,
Dili ilan dilidir.
Niyə ölü deyiblər?
Bu sükut dipdiridir.

SÖZ OYUNUNDA

İçimə çəkilib daldalanmışam
Dəli duyğularım öz oyununda.
Təpədən dırnağa misralanmışam,
Çarpışan fikirlər söz oyununda.

İntizarım bilmir nə həddi, nə hüdud,
İtir, güman itir, üzülür umud.
Yüklənən kirpiklər toqquşan bulud,
Yaşlar qıraq gedir göz oyununda.

Sən qutsal sandığın kimində oyun,
Aşkarında oyun, sirrində oyun,
Ömrümüz illərin əlində oyun,
Özümüz taleyin boz oyununda.

TOXUNSAN DONARSAN

Toxunma,
ruhumun ağrıyan yeri
Soldurar dünyanın rəngini, sökər.
İtirər fəhmini, qarışar aləm,
Cahana bir ağrı zülməti çökər.

Diri udar nə var o ölü zülmət,
Udar, nə mərhəmət, nə insaf qanar.
Ağrılar görünməz kimsəyə üzdən,
İnsan korun-korun içindən yanar.

İçdəki tüstüdən qurum bağlar can,
Ha gizlət, gözləri satar adamı.
Toxunsan, donarsan yandığım yerdən,
Mən soyuq adamam, mən hal adamı.

BİR OVUC İSTƏK İDİ

Sovuşdu qar sevdam da,
soyudu isti hisslər.
Çox gecikdim vüsala,
bəlkə də, küsdü hisslər.

Bir ovuc istək idi,
ovcumdaca əridi,
susdu o çılğın həvəs,
öz içində kiridi.

Ən işıqlı diləklər
kölgələnib fon oldu.
Bir dünya həsrətimə,
istəyimə son oldu.

SONDUR BU

Rəng-rəng, ilmə-ilmə seçib getdiyim,
Diş ilə, dırnaqla biçib getdiyim,
Ağrılar içindən keçib getdiyim
yoldur bu.

Fırtına səngidib selə verdiyim,
İstəklər uçurub yelə verdiyim,
Əlimin içindən ələ verdiyim
yöndür bu.

Yazda çiçək üçün, qışda qar üçün,
Əsim-əsim əsdim dostçün, yar üçün,
Dönə-dönə itən etibar üçün
sondur bu.

ŞEİR HAVASINDA

Mən
bir şeir havasında,
bircə şeir havasında
dolanıram hər yeri,
dolanıb gəlirəm
dünyasını bir dəqiqəyə gəzən
saniyəölçəntək
qoşulub
dağ ətəyində topa-topa bulud
kölgəsinə
axıb gedir ürəyim,
yuyulur dünyanın kiri,
yaşananlar qar üstündə
ləpir kimi,
təzə doğulan
uşaq ruhuna dönür ruhum
uçuram,
uçunuram,
gəzirəm eşqli, həvəsli,
sevirəm,
sarır içimi gözəllik, lütf, kərəm,
sevgim,
sevgilim şeirdir,
vəfasız çıxsa, ölərəm.

QAYTAR BU ÜMİDİ

Sən necə anlaya bilərsən məni,
Mən özüm özümü bilə bilmirəm.
Fikrimlə şum vurub, çeşin atıram,
Sökürəm sinəmi niyə, bilmirəm.

Yaşamaq dediyin hal mənlik deyil,
Qaytar bu ümidi, al, mənlik deyil,
Sükut mənlik deyil, qal mənlik deyil,
Niyə gəldim belə Yerə, bilmirəm.

İlləri yellərə verməkdir işim,
Yorub
yollarımı
yorğun yerişim.
Hansı dağa çıxım, dərəni aşım,
Verim belə ömrü selə, bilmirəm.

POEZİYA

NAZİR RÜSTƏMOV

***
Nə o Göy, nə də bu Yer
Canıma yatmır daha...
Mənə bir az nəfəs ver,
Nəfəsim çatmır daha.

Gözlərinin gülüşü
Gözümdə qonub qalıb.
Hər gedişin, gəlişin
Qapımda donub qalıb.

İndi bir az ömr edib
Yaşamaq dahilikdir.
Ölüm baş alıb gedir
O da bir adilikdir.

Dayanıb dözüm necə?
Nələr danışım sənə?!
Apar məni gizlicə,
Apar, qarışım sənə.

Nə o Göy, nə də bu Yer
Canıma yatmır daha...
Mənə bir az nəfəs ver,
Nəfəsim çatmır daha.

***
Üzümü tutam göylərə,
Baxam, gözlərim sevinə
Ağ kağıza gilə-gilə
Axam, sözlərim sevinə.

Gəzəm, Yer üzünü yoram,
Dağını, düzünü yoram...
Bir yerdə bir bardaş quram,
Yorğun dizlərim sevinə.

Günlər ötür sıra-sıra,
Ötür söz-söz, misra-misra...
Gedirəm, kaş, məndən sonra
Qalan izlərim sevinə.

***
Ulduzlar suyunda axar, yorulmaz,
Dalğalar min şahə qalxar, yorulmaz,
Gözəllər baxdıqca baxar, yorulmaz -
Bu dənizi bizdən alma, İlahi.

Gözləri sahilə dikilib gedir,
Başı sinəsində bükülüb gedir,
Bizdən umub-küsüb, çəkilib gedir -
Bu dənizi bizdən alma, İlahi.

Qoyma bu dənizi getsin, amandır,
Qoyma bu nağılı bitsin, amandır,
Qıyma yanından yel ötsün, amandır -
Bu dənizi bizdən alma, İlahi.

Darıxan qəbrimin daşı bu dəniz,
Ağrıyan qəlbimin başı bu dəniz,
Quruyan gözümün yaşı bu dənuz -
Bu dənizi bizdən alma, İlahi.

***
Gündüz nələr çəkirəm
Gecə canımdan keçər...
Ağrılarım yol tapar,
Axar, qanımdan keçər.

Ay olub suya baxdım-
Dedim açılar baxtım...
Son saatım, son vaxtım,
Bircə anımdan keçər.

Ömür payıza bənzər -
Tökülər xəzəl-xəzəl...
Bir vaxt sevdiyim gözəl
Gülüb, yanımdan keçər.

Göylə yerin arası,
Sözlə şeirin arası,
Ürəyimin ağrısı
Bircə ahımdan keçər.

AZƏRBAYCANIN İGİD OĞLU, ŞƏHİD ATASI, QAZİ HACI ƏKBƏR RÜSTƏMOVA

Ay, bu torpaq uğrunda
ölümə gedən adam,
Ay, təpədən dırnağa
yurd adam, Vətən adam.
"Vətən", "Azadlıq" oldu
sənin ilk və son andın,
Tufanlarda bərkidin,
döyüşlərdə sınandın.
Savaşın ilk günündən
əlində silah oldu,
Dilində Vətən sözü,
qəlbində Allah oldu.
Sənanın, Yusifin də
igid oldu, Ay ƏKBƏR,
Bu torpağın uğrunda,
bu xalqın, bu dövlətin,
bu bayrağın uğrunda
Şəhid oldu, Ay, ƏKBƏR...
Ay bu torpaq uğrunda
Ölümə gedən adam,
Ay, təpədən dırnağa
yurd adam, Vətən adam.
Gözün aydın ordumuz
bayraq taxıb Şuşaya,
Bizə həsəd aparır
dünya baxıb Şuşaya.
Sənin sevdiyin Vətən,
Canım, - dediyin Vətən,
azad olub, Ay Əkbər!
Sevincdən bax, ağlayır,
Göylər dolub, Ay ƏKBƏR!

BİLMƏ

Səni sevdiyimi kimsə bilmədi,
Səni sevdiyimi heç sən də bilmə...
Ağlımdan, duyğumdan, fikirlərimdən
Gecə də, gündüz də keçsən də bilmə.

Səni sevdiyimi mələklər desin,
Yarpaq pıçıldasın, küləklər desin,
Kəpənəklər desin, çiçəklər desin...
Səni sevdiyimi kimsə bilməsin.

Günlərim ömrümə həsrət düzümü...
Bunu kimsə bilməz, heç sən də bilmə.
Ayrılıq qaraldıb ağ gündüzümü
Əriyib gecəmdən keçsə də bilmə.

Səni sevdiyimi kimsə bilmədi,
Səni sevdiyimi heç sən də bilmə...
Günlərin bir günü bir ər evinə
Qəmli vağzalıyla köçsən də bilmə.

***

Haçan getsən apar məni,
Hara getsən fərq eləmir.
Mənim ağlım, mənim hissim,
Sənsizliyi dərk eləmir.

Mənim sənli günlərimin
Sayı ulduz sanı olsun...
Hara getsən apar məni,
Lap dünyanın sonu olsun.

Qalan bütün illərimi
Yolunda qurban deyərəm.
Ölsəm son anımda səni
Qucaqlayıb, can deyərəm.

Saçlarımda əlin gəzsin,
Qoy aparsın yuxu məni...
Mənim sevgim içimdədir -
Gözlərimdən oxu məni.

***

Ötən sənli günlərin
Birini göndər mənə,
Söhbətini, sehrini
Sirrini göndər mənə.

Elə ki, tapdım səni,
Ruhuma yapdım səni...
Yaz yolla ünvanını,
Yerini göndər mənə.

Sevib, sevib atmağın,
Sevgiylə baş qatmağın,
Və necə unutmağın
Təhrini göndər mənə.

Səni kəşf elədiyim,
Səni vəsf elədiyim,
Səni fəth elədiyim
Şeirimi göndər mənə.

POEZİYA

MƏMMƏD MƏRZİLİ

ŞƏHİD ANASI

(Şəhid Zülfü Qədimovun və bütün şəhidlərin əziz xatirəsinə)

Qoruyubdu oğlun səni,
Özünün doğma Vətənin.
Kədərlə dolu badəni,
Qaldırıbdı o, başına -
Ağlama, şəhid anası!

Dərd-qəm amanını qırıb,
Bağlı yollar səni yorub.
Oğlun bir vaxtlar hayqırıb
Döndü yurdun sal daşına -
Ağlama, şəhid anası!

Tanrı dərgahı əbədi,
Ünyetməyən bir zirvədi...
Haqdan gələndə dəvəti,
Köçüb elin yaddaşına -
Ağlama, şəhid anası!

Kimsə deməz sənə öyün,
Sinəndə dağ düyün-düyün.
Şəhid balan diriliyin,
Döz taleyin savaşına -
Ağlama, şəhid anası!

QAZİLƏR

Düşübdü adları ağıza-dilə,
Arxa-dayaqdılar obaya-elə.
Savaşda qanları axsa da belə,
Ağrıya, acıya dözdü, Qazilər!

Bəzisi ayağın-dizin itirdi,
Bəzisi nur saçan gözün itirdi.
Düşmənin çəhlimin, izin itirdi,
Kim deyər yoruldu, bezdi, Qazilər?!

Bilmirəm onları bənzədim nəyə,
Qalxdılar bir anda qarlı zirvəyə.
Yağının külünü sovurub göyə,
Şuşadan gül-çiçək üzdü Qazilər!

GƏRƏK AXTARAM SƏNİ

Zəmanə bəd gəlib, dövran dəyişib,
Karvan önündəki sarvan dəyişib.
Didərgin düşəndən ünvan dəyişib,
Gərək bu günlərdə axtaram səni.

Açılan rəngbərəng çiçək içində,
Gözümə göründün, yolu keçəndə...
Özümə layiqli həmdəm seçəndə,
Gərək bu günlərdə axtaram səni.

Seyr edəm bağçada qızılgülləri,
Hərdən qabaqlayam əsən yelləri.
Gəzib obaları, gəzib elləri,
Gərək bu günlərdə axtaram səni.

Hələ çoxlarına yaddı dərdimiz,
Qəm-kədər içində sızlayırıq biz.
Yaxına-uzağa mən tutsam da üz,
Gərək bu günlərdə axtaram səni.

QARDAŞIM

Mərdi qovub namərd edir bu dünya,
Deyən yoxdu hara gedir bu dünya?
Arxasızı əzib-didir bu dünya,
Haqsızlığın qurbanıyıq, qardaşım.

Savaş deyib hayqırsa da çoxları,
Gizli əllər dayandırdı oxları.
Narahatdı babaların ruhları,
Haqsızlığın qurbanıyıq, qardaşım.

Torpağımız yağmalandı, talandı,
Daş səbrimiz bağlı yoldu, dalandı...
Kim deyirsə "Lazım" gəlir, yalandı,
Haqsızlığın qurbanıyıq, qardaşım.

Sərvətimiz yağlı əppək parçası,
Şirin yalan "ədalət"in carcısı.
Yadlar qansız zəmanənin falçısı,
Haqsızlığın qurbanıyıq, qardaşım.

ANA

Xeyirxah işlərdən durmazdın gendə,
Keçdi ömrün-günün avazda, ündə.
Arxasız birini qəmli görəndə,
Üzündən qəm-qüssə yağardı, ana.

Unuda bilmərəm əziyətini,
Mənə bəxş etmisən saf niyyətini.
Gördün gözlərinlə yüz yol çətini,
Saçların çox erkən ağardı, ana!

Barlı-bəhrəliydin sünbül-dən kimi,
Kəsməzdin yolumu duman-çən kimi.
Səni uşaq vaxtı incidən kimi,
Qəlbində şimşəklər çaxardı, ana!

Bir evin yükünü çiynində çəkdin,
Varlığı sarsılmaz sütun-dirəkdin…
Mənim nəzərimdə xoş gələcəkdin,
Köksünə bir dünya sığardı, ana!

Hər işin dalınca özün qaçardın,
Nurlu baxışınla işıq saçardın.
Həmişə xoş üzlə süfrə açardın,
Səbrini gizlicə boğardın, ana!..

Daha xəyallarım adınla bağlı,
Sənsən dogma yurdum - aranlı-dağlı…
Ta səni gəzirəm də əliçıraqlı,
Yoxluğun sal daşdan ağırdı, ana!

HƏLƏ

Hərdən qınayıram özüm-özümü,
Qaytara bilmirəm geri dözümü.
İllərim qırılan zəncir düzümü,
Əlimdən nə gəlir de, mənim hələ.

Qamətimi bükən qəm, şələm olub,
Qəlbimi titrədən ah-naləm olub.
Kədər meylə dolu piyaləm olub,
Dalımca boylanır çəmənim hələ.

Açarı itəndən keyfim açılmır,
Kədərlə dopdolu "seyfim" açılmır.
Nisgilim ərimir, beynim açılmır,
Göyərmir sünbülüm, səmənim hələ.

Sanki kül içində qovrulan odam,
Bu boyda əzaba dözərmi adam?
Hələ də çoxuna ögeyəm, yadam,
Zülmətdə qərq olub dünənim hələ.

Dönük bəxtin əməli nə, işi nə,
Mat qaldım taleyin bu gərdişinə…
Yağılar çəkibdir yurdu dişinə,
Yoxdumu geriyə dönənim hələ?

KÖÇ GERİYƏ QAYIDIR

Düşmənimiz əməlliydi, felliydi,
Şər-böhtanda yaman uzun dilliydi.
Çəkdiyimiz bir Allaha bəlliydi,
Şükür, Allah, köç geriyə qayıdır!

Əsgərimiz çox sədləri yıxıbdı,
Coşqun seltək doğma yurda axıbdı,
Torpağımız azadlığa çıxıbdı,
Şükür, Allah, köç geriyə qayıdır!

Hər tərəfə yeni yollar çəkilir,
Mina çıxan yerə taxıl əkilir.
Viran yurdda yeni evlər tikilir,
Şükür, Allah, köç geriyə qayıdır!

Sevincindən üzü gülür hamının,
Xalqım aldı arzusunu, kamını.
Yandırarıq elin ocaq-şamını,
Şükür Allah, köç geriyə qayıdır!

Ağdam, Laçın, Kəlbəcərə gedirik,
Füzulidən Cəbrayıla ötürük.
Şuşamızda yenə bayram edirik,
Şükür, Allah, köç geriyə qayıdır!

Yağıların külün göyə sovurdu,
Düşmənlərdən qisas aldı öz ordum.
Abadlığın mübarəkdi, a yurdum,
Şükür, Allah, köç geriyə qayıdır!

POEZİYA



LALƏ İSMAYIL

DUZUNU HALAL QOY UNUNA, DÜNYA

Sıyrılıb, ölümün çıxıb əlindən,
Əcəldən sığındım qoynuna, dünya.
Əgər keçəmməsəm bu dərd selindən,
Günahım yazılsın boynuna, dünya.

Yenə nə fırlayıb, qarışdırırsan?!
Gah isti, gah soyuq, alışdırırsan.
Əlini yaxamla barışdırırsan,
Yoxsa oyuncağam oy(u)nuna, dünya?!

Daha bezmədinmi Dəccal doğmaqdan?
Bəd nəfs əkməkdən, bəd əl sıxmaqdan?
Ənsənə lənəti bədəl yığmaqdan,
Yaman yoğunlayıb boynun, a dünya.

Durulmur suların, süzmür lilindən,
Düzəlmir nə adam, nə daş gilindən,
Laləni düşürməz qanan dilindən,
Duzunu halal qoy ununa, dünya!

AS ÖLÜMÜNÜ

Fikrim dar ağacı, söz ipək kəndir,
Ruhum əsir düşüb, intihardadır.
Ölümü səsləyən meydanım gendir,
Bəs at oynadanlar indi hardadır?!

Çəkib qulaqlardan səsi, səmiri,
Gizlədib cıqqırın atıb içinə.
Şeytanlar yoğurur gildən xəmiri,
Qanımızı sutək qatıb içinə.

Verib ixtiyarı goreşənlərə,
Bu qədər arxayın hara gedirik?!
Baxmırıq sarılıb, direşənlərə,
Öz ayağımızla gora gedirik?!

Oyan! Mürgü yetər atam, qardaşım,
Sürüşüb kökündən aralanırıq.
Torpaq dayaq üçün desin, var daşım!
Neçə ac gözlərdə qaralanırıq.

Qalacaq kəfənli cismimiz göydə,
Bizə çatmayacaq bir məzar yeri.
Sahib çıxmayacaq ruhlara göy də,
Daha olmayacaq gizləyən sirri.

Hələ ki, gec deyil, gec deyil hələ,
Dur as ölümünü dar ağacından.
Boğulsun yoxluğun, qalmasın kölə,
Vətənə yar olmaz gor ağacından.

QAMQALAQ EYLƏ

Elə susamışam, çat verib dilim,
Torpağın yaxasın cır, bulaq eylə.
İllərdir yollarda yorgunam, gülüm,
Dağda alaçığı qur, soraq eylə.

Bir ömür ruhumu sıxıb bu şəhər,
Doğub, pəncərəmdən baxmayır səhər.
Yəhəri belində, kişnəyir kəhər,
Çağır Əsgülümə, pir, qonaq eylə.

Azıb dərələrdə, bataq dərinə,
Çataq baxışları ocaq yerinə.
Külək əvəzinə sən tellərimə
Şanə barmaqları vur, daraq eylə.

Baharam, güllərin nazı məndədir,
Eşqin alovundan qor sinəmdədir.
Bu qulun halından razı bəndədir,
Hüsnümü ruhuna qur, calaq eylə.

Adımı qayaya, daşa yaz, qalım,
Vədəsiz yetişən qışa yaz, qalım,
Həsrətin yanında qoşa yaz, qalım,
Şairin halına bir maraq eylə.

Budur son istəyim, götür yaz yada!
Əzdirmə özgəyə, qoxlatma yada!
Ya gül bil Laləni, özün bil, ya da -
Xırdala, ocağa qamqalaq eylə.

QALANDI, GETDİ

Əgər məni səndən soruşan olsa,
Deyərsən, Ay idi, dolandı, getdi.
Sığdırıb dünyanın qəmin köksünə,
Dərdin şaxtasına qalandı, getdi.

İnsaf eyləmədi bəxt yazan yenə,
Düşdü taleyimə göy xəzan yenə.
Kimdir bu yuxumu tərs yozan yenə?
Ömrümün baharı talandı, getdi.

Nələr çəkdiyimi bilən olmadı,
Alıb, qəm yükümü bölən olmadı.
Əhdi yada salıb, dönən olmadı,
Son dəfə geriyə boylandı, getdi.

İÇİMDƏ ALLAH İLƏ

Fırtına qollarında arzuları döyülən,
Bir sahibsiz gəmiyəm, çırpılıram sahilə.
Küləklər rəndəsində ləpirləri yeyilən,
Mən dənizin qəmiyəm, çırpınıram “ah” ilə.

Bilmirəm qaya qərib, yoxsa ləpə naşımı?
Qağayı harayında ovundurur başımı.
Xırçınlaşan ləpələr qurudur göz yaşımı,
Buludam, içim dolu, yağıram günah ilə.

Sular yuyub izini, nə Tanrı var, nə bəndə,
Hisslərimi xəyallar çəkib salır kəməndə.
Günah, vəfasız gülüm, nə səndədir, nə məndə,
Unuduldum yiyəsiz, içimdə Allah ilə.

AXTARMA
Şəhid Müşfiq Orucovun xatirəsinə

Düşünmə ki, odum sönüb,
Günəşə dönmüşəm, ana.
Bir ovuc torpağa dönüb,
Mən Vətən olmuşam, ana.
Axtarma yollarda məni.

Demə, rüzgar, tufan olub.
Demə, gülüm qönçə solub.
Buxarlanıb, bulud olub,
Gözünə qonmuşam, ana,
Axtarma yollarda məni.

Sübh səhərin mehi kimi,
Göy çəmənin şehi kimi,
Yandıran can ahı kimi,
Köksünə dolmuşam, ana,
Axtarma yollarda məni.

Çəkəmmədim daha nazın,
Qırdım yarın könül sazın.
Sevdiyim alagöz qızın,
Naməsin almışım, ana,
Axtarma yollarda məni.

Mərd yeridir meydan, savaş,
Nə qəm eylə, nə də təlaş.
Bas yerimə bağrına daş,
Dağlarda qalmışam, ana,
Axtarma yollarda məni.

BİR ÇIX GƏL BU YOLDAN
Şəhid qardaşım polis İsmayıl Barat oğlu İsmayılovun əziz xatirəsinə

Ayağının izinə tamarzı qalıb yollar,
Nə vaxt ləpirlərinlə öpüşəcək görəsən...
Gözləmək gözdən salıb, yaman qocalıb yollar,
Getdiyin cığırları bir də geri dönəsən.

Yoxdur gedib, gələni bircə xəbər gətirə,
Küləklər oynatmayır, tozu dönüb daş olub.
Könlümün sirdaşına bir “mərhaba” götürə,
Dilimizin əzbəri bir “ah”, bir də “kaş” olub.

Alıb səni əlimdən, uzanıb gedən yollar,
Bir gün peşiman olub, qaytararmı görəsən?!
Azıb qara dumana gözümdə itən yollar,
Səni gözlərimdəcə axtararmı görəsən?!

Bu yolun başı həsrət, sonunda sən dursan,
Buludlar gözlərimdən, gözüm yollardan keçir.
Köksümdə ürək deyil, elə bil sən vursan,
Qanımla dövr eyləyib yol damarlardan keçir.

Dönüb, çıx gəl bu yoldan, sevindirmə kədəri,
Duman olum, başına dolanım yollar kimi.
Ömür eyləmir vəfa, Lalə yolcu - gedəri,
Sənli, sənsiz məhbusdur, daşlaşmış yollar kimi.

POEZİYA

NAZİM HÜSEYNLİ

YÜZ İL DEYİL, MİN İL KEÇƏ...
Bəxtiyar Vahabzadənin 100 illiyinə

İmperiya üzərinə qılınc çəkdin,
Azadlığın məşəlçisi mücahidsən.
Əldə qələm ömrün boyu səngərdəydin,
Hürriyyətin qəhrəmanı, bir şəhidsən.
Səndən, sənin neçə-neçə əsərindən
Güc aldıq biz - tarix, millət, sən şahidsən!

Bəxtiyarla, Xəlil Rza, Məmməd Araz,
Şəhriyarla nəfəs aldı, yetişdi xalq.
Şeirlərin oxuyaraq, dinləyərək
Mətinləşdi, poladlaşdı, bitişdi xalq.
Azadlığı haylayanda Ana Vətən,
Göz qırpmadan bu haraya yetişdi xalq!

Bilə-bilə cəzasıdır ölüm, qanlı,
Kəfən geyib "Gülüstan"ı yazan şair.
Şeirləri azadlığın himni olan,
Təzyiqlərə, zülümlərə dözən şair.
20 Yanvar şəhidini "Şəhidlər"də
Qanı ilə vəsf eyləyən ozan şair!

Özgə dili üstün tutan manqurtların,
Öz xalqına bir faydası, sözü də yox.
Biganəlik şaxtasından dona bilən,
Öz dilini isitməyə közü də yox.
Ana dili silinənin, yox olanın
Dövləti də, milləti də, özü də yox!

Sən azadlıq eşqin ilə millətimin
Fikrindəsən, ruhundasan, qanındasan.
Əldə silah düşmən qovan əsgərimin
Ürəyində, nəfəsində, canındasan.
Yüz il deyil, min il keçə dövlətimin,
Bayrağımın keşiyində, yanındasan.

SEV DÜNYANI, İNSAN OĞLU

Yeri sənin, göyü sənin,
Torpaq, hava, suyu sənin,
Qışı sənin, yayı sənin,
Sev dünyanı, insan oğlu.

Dəniz, sahil, yol, dağ sənin,
Ağac sənin, yarpaq sənin,
Nə görürsən, gör, bax sənin,
Sev dünyanı, insan oğlu.

Çirkləndirmə, zərbə vurma,
Beş əkməmiş birin qırma.
Heç kimsəyə kələk qurma,
Sev dünyanı, insan oğlu.

Qara, sarı, ya ağ ol sən,
Dərə, təpə, ya dağ ol sən,
Hər dərdinə ortaq ol sən,
Sev dünyanı, insan oğlu.

Bacı ol sən, qardaş ol sən,
Yaxın ol sən, sirdaş ol sən,
Dünya birdir, yurddaş ol sən,
Sev dünyanı, insan oğlu.

Görsən ki, bir büdrəyən var,
Dara düşən, titrəyən var,
Çat köməyə, halını sor,
Sev dünyanı, insan oğlu.

Olsa da çox amansız, sərt,
Gəl eyləmə hər dərdi dərd.
Ölümü də qarşıla mərd,
Sev dünyanı, insan oğlu.

Günəş baxış əsirgəməz,
Göylər yağış əsirgəməz,

Tanrı naxış əsirgəməz,
Sev dünyanı, insan oğlu.

Pisləməsin onu yetən,
Deyilik heç yana gedən.
Üstü Vətən, altı Vətən,
Sev dünyanı, insan oğlu.

DOĞULMAĞA DƏYƏR DÜNYA

Qoxusunu duymaq üçün,
Laylasından doymaq üçün,
Dizinə baş qoymaq üçün
Doğulmağa dəyər dünya!

Uzaq düşmək, ayrılmaq var,
Həsrətindən qovrulmaq var,
“Ana!” deyib sarılmaq var,
Doğulmağa dəyər dünya!

Sevdiyinə varmaq üçün,
Ürəyini vermək üçün,
Bir çiçəyi dərmək üçün,
Doğulmağa dəyər dünya!

Öz yuvanı qurmaq üçün,
Öz nəslini vermək üçün,
Qulluğunda durmaq üçün,
Doğulmağa dəyər dünya!

Övlad, nəvə baldan şirin,
Möcüzəsi göyün, Yerin.
Çox olsa da qayğı, sorun,
Doğulmağa dəyər dünya!

Bir kasıbı güldürməkçün,
Göz yaşını sildirməkçün,
Yıxılanı qaldırmaqçün
Doğulmağa dəyər dünya!

Yollarına zülmət çöksə,
Dövran səni dara çəksə...
El yanında başın diksə,
Doğulmağa dəyər dünya!

Elə dayaq olmaq üçün,
Bir yol, cığır salmaq üçün,
“Vətən!”- deyib ölmək üçün,
Doğulmağa dəyər dünya!

SƏN DÜNYAYA NƏ VERMİSƏN?

Özünü hey öyən adam,
Dünyamızı söyən adam,
Dünya pisdir deyən adam,
Sən dünyaya nə vermisən?

Dünya səni bəsləyibdi,
Yediribdi, süsləyibdi,
Dürüstlüyə səsləyibdi,
Sən dünyaya nə vermisən?

Yıxılanı qaldırdınmı,
Bir ağlayan güldürdünmü,
Göz yaşını sildirdinmi,
Sən dünyaya nə vermisən?

Zülüm gördün hayqırdınmı,
Zalım gördün hayqırdınmı,
Sorun gördün hayqırdınmı,
Sən dünyaya nə vermisən?

Şeytanla əl tutan bizik,
Əyri yolu gedən bizik,
Dünyanı pis edən bizik,
Sən dünyaya nə vermisən?

Xeyir ilə şər sarışıb,
Yaxşı yamanla barışıb,
Saflıq çirkabla qarışıb,
Sən dünyaya nə vermisən?

Cəhənnəmə döndərmişik,
Alçaltmışıq, endirmişik,
Körpüləri yandırmışıq,
Sən dünyaya nə vermisən?

Leş axtaran qarğa çoxdu,
Oğrulara arxa çoxdu,
Haqqa düşmən darğa çoxdu,
Sən dünyaya nə vermisən?

Qiblən bəlli, tuşun bəlli,
Təvəllüdün, yaşın bəlli,
Məzarın, baş daşın bəlli,
Sən dünyaya nə vermisən?

Əlləşirsən yerlə, göylə:
- Dünya böylə, zaman böylə.
Bir özünə sual eylə,
Sən dünyaya nə vermisən?

Dünya mənəm, sənsən, bizik,
Çoxu əyri, azı düzük,
Nə eyləsin dünya yazıq,
Sən dünyaya nə vermisən?

POEZİYA

SOLMAZ QƏRİBEL

SƏN DUYAN KİMİ

Nə giley edəsən, nə söz deyəsən,
Kim duyur qəlbimi sən duyan kimi?
Hər kəs göz oxşayır qəlbdən xəbərsiz,
Kim duyur səsimi sən duyan kimi.

Xoş söz ərşə çıxıb, gülüş gizlənir,
Dünya yaranandan boşa hərlənir.
Kimi baş aldadır, baş girələyir,
Kim duyur səsimi sən duyan kimi?

Göz gözdən yorulub, söz sözdən düşüb.
Üz üzdən utanır, üz üzdən düşüb.
İçindən yıxılan özündən düşüb,
Kim duyur səsimi sən duyan kimi?..

ÜZÜ YANSIN AYRILIĞIN

Bu yolun sonunda biz iki aşiq,
Həsrətlə baxırıq iki qovağa.
Nə geri dönməyə çatır cəsarət,
Nə ata bilirik addım qabağa.

Sən mənə baxırsan, mən sənə susqun,
Əlini buz kəsib, dodağın solğun,
Baxışın kədərli, qolların yorğun,
Nə ata bilirik addım qabağa…

Qağayı qıy vurur, coşur dəniz də,
Göz yaşın çilədi, baxıb dəniz də.
Arzumu, sevgimi atıb dənizdə,
Nə ata bilirik addım qabağa…

DUMAN ÇÖKÜB RUHUMA

Ruhum dumanda azır,
Gözlərimə nəm çökür.
Əlim adını yazır,
Ürəyimə qəm çökür.

Bir kor duman, bir kor eşq,
Tutub əl-ələ gedir.
Duman dağdan gileyli,
Eşqin qəlbimi didir.

Duman çöküb gözümə,
Elə bil zaman umur.
Perik düşən ruhum da,
Dumandan güman umur.

Of, nə qədər gileyli,
Baxış baxır gözümə.
Bəlkə duman qısqanır,
İz salmayır izimə?

Bir ah çəkib deyirəm,
Çəkil, duman dağlara,
Dağ başından dayan bax,
Xal düşməsin ağlara...

DÜNYANIN AHI

El eldən aralı, oba obadan,
Köz küldən yaralı, tüstü sobadan.
Qurtarın, dünyanı dərddən, bəladan,
Əyilib dünyanın tən tərəzisi.

Havası zəhərdi, Günəşi solğun,
Yol yolun itirib, düşübdü yorğun.
Bülbülü qəfəsdə, bağında quzğun,
Əyilib dünyanın tən tərəzisi.

Əl uzadıb silkələsən tökülər,
Çözələnər ilmə-ilmə sökülər.

Qəzəblənib bir yumruqtək bükülər,
Əyilib dünyanın tən tərəzisi...

Solmaz, bas bağrına bir telli saz çal,
Sızlatma ruhunu bir namə yaz, çal.
Göz süzdür dünyaya, muzraba naz sal,
Əyilib dünyanın tən tərəzisi...

ARASINDA

Başıma gələnlər başımdan aşır,
Qalmışam "kaş" ilə, baş arasında.
Könlümdə həsrətim kükrəyib daşır,
Axıram kirpiklə, qaş arasından.

Yıxıb sürükləyir bu möhnət, bu qəm,
Toplayıb çıxıram kəm gəlir ki, kəm.
Ömür pərvanəsiz əriyir dəm-dəm,
Yanıram quruyla, yaş arasında.

Dünya, nədən sönüb yanmır çırağın?
Arzumun budağı tökür yarpağın.
Oxşayır ruhumun səssiz qonağın
Baxışım göz ilə qaş arasında.

OLMAYAN

Hər sözünü söz eyləyir,
Sözdən xəbəri olmayan.
Gülümsəyir göz eyləyir
Düzdən xəbəri olmayan.

Eşq desən eşqdən danışır,
Məşq desən sənlə yarışır
Alovsuz yanır, alışır,
Közdən xəbəri olmayan.

Dünya özü dörd göz olub,
Namərdin sözü "söz" olub.
Yol salıb izi iz olub,
İzdən xəbəri olmayan.

Ay Solmaz, nədir bu dövran?
Nə yaz duyulur, nə bayram.
And içir əlində haram,
Duzdan xəbəri olmayan.

KİMDƏN ÖTRÜ

Kimdən ötrü, kimə görə yanıram?
Alovumun kölgəsi yox, görünə.
Öz-özümlə dərdə qonaq qalıram,
Dərdlərimin süfrəsi yox, bölünə.

Kimdən ötrü, kimə görə yanıram,
Yol çəkirəm, yol gedirəm, sonsuza.
Dərd də bilir, vallah, harda qalıram.
Tuş olmayır əyri gedən yolsuza.

Kimdən ötrü, kimə görə yanıram?
Soran varmı atəşimə, istimə?
Soyuq rüzgar olub əsdi yaxınlar,
Boğdu məni öz içimdə tüstümə.
Kimdən ötrü, kimə görə yanıram...

KEÇMİR BURADAN

Bu yolun yolçusu keçmir buradan,
Yaman qəribsəyib, o tin, o döngə.
Elə boylanır ki, həsrəti soldan,
Üşüdür könlünü saldığı kölgə.

Bu yolun yolçusu keçmir buradan,
Köçən durnalardan xəbər göndərin.
Bükülüb qaməti çəkilən ahdan,
O gedən yolçunu geri döndərin.

Gör neçə il keçib, gör, neçə bahar,
O yolda bir kölgə onu səsləyir.
Yarımçıq yazılıb eşq hekayəsi,
O kölgə hələ də sonu gözləyir.
Bu yolun yolçusu keçmir buradan…

BU YOLUN SONU YOX

Bu yolun sonu yox, ayrıcı yoxdu,
Sənlə yolumuz dolaşıb qalıb.
Tutubdur bu yolun ahı könlümü,
Sevgim vəfasıza bulaşıb qalıb.

Elə hey çırpınır, vurnuxur yenə,
Quştək yuvasından perik düşübdür.
Bağı viran olmuş bağbana dönüb,
Meyvəsi ağacdan çürük düşübdür.

Dil açır, elə bil, daş da, qaya da,
Qan qoxur dünyanın üzündən yenə.
Barışıb qismətlə qismətsiz biri,
Gecələr qan damır gözündən yenə.

Yarasın sarıyır gah hicran, gah qəm,
Göylər də dərdini yumur yazığın.
Xoşbəxtlik üzünü döndərib gedir,
Gözünü əcaltək "yumur" yazığın.

POEZİYA

ELMAYA CABBAROVA

ÖMÜR KİTABIM

Mənim ruh əkizim, ömür kitabım,
Vardır hər vərəqdə gözəl anlarım.
Xəyali də olsa, "Sonsuz roman"ım,
Ay hər il yenidən gələn baharım!

O qədər uzaqsan, həsrət bitməyir,
Harayım çatmayır, ünüm yetməyir.
Nədən taleyimiz üzə gülməyir,
Bəxtimin ulduzu, sevgili yarım!

Gözlərimə məftun olan sevgili,
Gəl baxışlarına qərq eylə məni.
Yoxluğunda qəlbə dolan nisgili,
Varlığınla yox et, son intizarım!

Sevgiyə dünyada qal, həvəsini,
Sevənə qaytaraq ruh, nəfəsini.
Ölməyən sevdanın xəritəsini,
İlk dəfə biz çəkək, əhdim-ilqarım!

Ruhun nəğməsini, qəlbin səsini,
Sevən könüllərin iradəsini,
İlahi sevginin abidəsini,
İkimiz yaradaq, könül memarım!

Yerini dəyişək Günəşin, Ayın,
Səmtini çevirək axar gur çayın,
Hər ağacdan verək meşəyə payın,
Biz qoşa dayanaq, dağtək vüqarım!

Bir süfrə bəzəyək güllü-çiçəkli,
Cəh-cəhli quşlarla, ağ kəpənəkli.
Sən rəssam xülyalı, sevən ürəkli,
Mən "Şur", "Bəstənigar", ey vəfadarım!

SADİQ QƏLƏM

Həyat dəyişdirir sevən adamı,
Taleyi güldürür, gah da ağladır.
Keçən günlər çox yandırır adamı,
Könlündə bir həzin nəğmə çağladır.

Sevginin bal ömrü çox az olurmuş,
Gecəsi gündüztək bəyaz olurmuş.
Gündüzü qaranlıq, zülmət olurmuş,
Öz qərib dünyası yaman ağladır.

Mənə vurulmuşdun səssiz-səmirsiz,
Mən də sevdim səni səndən xəbərsiz.
Keçdi bahar ömrü, gəldi boran, qış,
Bu gedişə biz də qaldıq çarəsiz.

Sən mənim ulduzlu dünyam olsaydın,
Günəşdən bir zərrə, nurum olsaydın,
Dilimdən düşməyən nəğməm olsaydın,
Olmadın, bax qəhər məni ağladır!

Sənsiz səninlə bir xəyal qurmuşam,
Ömrün yarısını başa vurmuşam.
Əbədi sevgimə sadiq qələmim,
Sonu bilinməyən "roman" yazdırır.

HƏQİQİ MƏHƏBBƏT HEÇ VAXT YOX OLMUR

Hər kimin könlünə düşsə məhəbbət,
Tale quşu qonar şah budağına.
Bəsləyər qəlbində eşqə sədaqət,
Asta-asta uçar gül budağına.

Gizlənər hər kəsdən, gözə görünməz,
Necə gələr, gedər sirri bilinməz.
Elə hopar, heç vaxt izi silinməz,
Nə qədər tökülsə kül ocağına.

Sevdalar rövnəqdir gənclik çağına,
Damar damla-damla könül bağına.
Düzər çiçəkləri sola, sağına,
Su səpər eşqinin künc bucağına.

Ötüb keçsə illər, dolansa aylar,
Gəlsə başa cəfa, haqsız olaylar,
Bir gün aydınlığa çıxar hesablar,
Tökülər həqiqət yar qucağına.

ƏBƏDİ SEVGİ

Yəqin yadındadır - çiskinli gündə,
İlk dəfə yolumuz kəsişdi bizim.
Yağış damlaları islatdı bizi,
O gündən sevgimiz başlandı bizim!

Hər gün o küçədə görüşərdik biz,
Olmazdı nə qüssə, nə kədərimiz.
Elə bilirdik ki, tale, bəxtimiz,
Gülüb üzümüzə, əbədi sevgi!

Arada nə oldu, bu bir sirr qaldı,
Kimlər nə danışdı, günahı aldı.
Sevən qəlbimizə şübhə, xof saldı,
Heyif, zədələndi əbədi sevgi!

Yenə qarşılaşdıq həmin küçədə,
Həminki zamanda, həmin vədədə.
Gözlər yerə baxır - qəmdə, kədərdə,
Bax, tab gətirmədi əbədi sevgi!

Ayrıldıq doymadan gənclik çağında,
Yazdıq yeni dastan eşqin bağında,
Yaşayır xəyalda, üzən ilğımda,
Bizi ovsunlayan əbədi sevgi!

GÖRDÜM KÖLGƏ KİMİ YANIMDASAN SƏN

Bir səs gəldi, aldı məni özümdən,
Qoymaram, gedəsən bir an gözümdən.
İnan ki, dönmərəm heç vaxt sözümdən,
- Mən səni bir ömür sevəcəm, - dedi.

İpək tellərinin rayihəsindən,
Çəmənlik ətirli gül nəfəsindən,
Bəhs edib könlümə yatan səsindən,
- Mən səni bir ömür sevəcəm, - dedi.

Sən demə bu səda əks-səda imiş,
Mənim keçmişimdən o səslənirmiş.
Yarımçıq sevdamın səsi deyirmiş,
- Mən səni bir ömür sevəcəm, - dedi.

GÖZLƏRİN FƏLSƏFƏSİ

Axtarır alimlər, gəzir səyyahlar,
Daim müəmmadır dünya sirləri.
Min illərdən bəri həsrətə dözüb,
Axır şair tapdı xülya gözləri!

Sən demə o gözlər mənimki imiş,
Şair onu dərin ümman bilibmiş.
Yeri, Göyü ona yerləşdiribmiş,
Görüb ədaləti, rəhmi gözümdə!

Yelena mələkdi gözəlliyilə,
Riyakar gözünün məkr, hiyləsilə,
Axilles ram oldu cazibəsilə,
Məhv oldu Troya gözü önündə!

Hər sözün, söhbətin öz mənası var,
Pünhan baxışların öz təması var.
Gözlərin şəfası, həm xatası var,
Şair cənnət görür mənim gözümdə!

Fəlsəfi dünyanın adamıdır o,
Pərvanə eşqində eşq şamıdır o.
Aşiqin sevgiyə inamıdır o,
Hörmətə layiqdir mənim gözümdə!

MUSİQİ KÖNÜL SƏSİDİR

Musiqi səsləri qəlbə məlhəmdir,
Onu çalanların kim olduğunu,
Hansı dinə, irqə, hansı millətə,
Arayıb, axtarma yad olduğunu!

Qəlbləri titrədən, nüfuzedici,
Azanın səsidir, Quran sözüdür,
Mələk timsalında məftunedici,
Ana laylasıdır, Ata sözüdür!

Bulaq şırıltısı, Göy gurultusu,
Yarpaq xışıltısı, yağış damlası,
Külək vıyıltısı, qarın çovğunu,
Hərəsi bir notdur, ud çalınası!

Sevincdən quş təki uçmaq istərkən,
Dilində nəğmələr durnalar kimi.
Sevdiyin ürəyə qonmaq istərkən,
Kükrəmə dənizdə dalğalar kimi!

Arzular çələng tək başa qoyulsun,
Dünyada mərhəmət, hürriyyət olsun.
Hər kəsin dilindən nəğmə duyulsun,
Musiqi baş tacı, ülviyyət olsun!

NƏSR

VAQİF ƏSƏDOĞLU

ANA

Hekayə

Özümü biləndən yaddaşımda qalan ən qədim xatirələrdən biri bizim, yəni, anamın, bacımın və mənim mülayim yaz günlərinin birində səhər çağı köhnə at arabasında səfərə çıxmağımız səhnəsidir. Son dərəcə həyəcanlı idim, həm də sevinirdim, çünki biz gəzintiyə nadir hallarda çıxırdıq. Anam, adəti üzrə, yaşmaqlanmışdı, məndən iki yaş kiçik bacımı qucağında tutmuşdu, mən də anama söykənmiş vəziyyətdə oturaraq Kürün o tayındakı sanki insan ayağının dəymədiyi əzəmətli bir mənzərəyə - Ceyrançöl yaylasına tamaşa edirdim. Arabanı sürən, deyəsən, ata babam Abdulkərim kişi idi. Mən o zaman dörd yaşında idim, ona görə də bir çox şeyləri müfəssəl xatırlaya bilmirəm. Anam nədənsə sevinmirdi, fikirli idi və hərdən dərindən köksünü ötürürdü. Anamın əhvalı mənim də qanımı qaraldırdı, fəqət Kürün şırıltı ilə axan suyuna baxdıqca, sahildəki balıq tutan, mal-qaranı naxıra ötürən uşaqların hərəkətlərinə tamaşa etdikcə uşaqlıq həyəcanım və sevincim coşub-daşırdı. Mən də tez böyümək və onlara qoşulmaq istəyirdim.

Səyahət kimi zənn etdiyim bu səfər, demə, anamın təkidi ilə baş tutan bir köç imiş. Həkimlər mənim anama sətəlcəm diaqnozu qoymuşdular. Onun xəstəliyinin uzanması Abdulkərim babamın ailəsində narahatlığa və dedi-qoduya səbəb olduğu üçün anam atamdan ayrılaraq (yəqin ki, müalicə olunub sağalana qədər) atası evinə qayıtmaq və bununla da evdəkiləri yoluxdurmamaq qənaətinə gəlmişdi. Arabanın təkərləri cırıldaya-cırıldaya bizi apardığı zaman mən (əlbəttə, bunu hələ başa düşmürdüm) anamla birlikdə gəzintiyə çıxdığım üçün özümü xoşbəxt sanırdım. İstərdim ki, bu səfər uzun çəksin və mən anamla uzun bir yolun yolçusu olum. Hərdən başımı qaldırıb anama baxırdım, onun əhvalının yaxşılaşmasına inanmaq istəyirdim. Anam kələğayının altından mənim sual dolu nəzərimə təbəssümlə cavab verməyə çalışırdı. O son

zamanlar üzünü məndən kənara tuturdu, mənimlə az təmasda olmaq istəyirdi. Məni yedizdirib-içizdirən kimi eşiyə oynamağa göndərirdi. Bu, sərbəstlik əldə etdiyim üçün məni bir tərəfdən sevindirsə də, digər tərəfdən, anamla az ünsiyyətdə olduğum üçün məyus edirdi.

Arabamız Səhnə nənəmgilin doqqazında dayananda nənəm sanki bizi gözləyirmiş kimi tez eşiyə çıxdı və bizi əllərini dizinə döyə-döyə qarşıladı. Bir qədər sonra qonşu Nabat qarı da eşiyə çıxdı və pərişanlığına görə nənəmi möhkəm danladı. Nənəm ağlamağını kəsdi, toxdadı və məni qucaqladı. Bir azdan Mərzə xalam da gəldi, qadınlar söhbətə başladılar və sanki hamının əhvalı yavaş-yavaş düzəldi. Xalam bir neçə məzəli söhbət etdi, anamı güldürdü. Mən söhbətin nədən getdiyini bilməsəm də, onlara qoşulub ürəkdən, qəhqəhə ilə güldüm. Mənim bu cür ağılsız gülüşüm qadınların söhbətinə əlavə impuls verdi, uşaqlarla oynamaq üçün eşiyə qaçdım.

Nənəmin evi tərəkəmə üsulu ilə tikilmiş adi bir ev idi - üstü palçıq və saman məhlulu ilə suvanmışdı, içəridə evin ortasına qədər taxt döşənmişdi, evin bir tərəfində ocaq yeri, əks tərəfdə isə barxananaı yığmaq üçün yük yeri vardı. Divarlar içəridən yerli suvaq materialı kəclə suvanmışdı, üstündən o zamanın interyer atributu olan qu şəkilləri çəkilmişdi. Bunlardan başqa divarlar nənəmin əl işləri olan xalçalarla, anamın əl işləri olan bir neçə tikmələrlə bəzədilmişdi. Taxtın üstünə kilimlər sərilmişdi. Hava qaralan kimi taxtın üstündə döşəklər sərilirdi, bir qıraqda mən, bir qıraqda anam, ortada isə mən tərəfdə nənəm, anam tərəfdə isə bacım yatırdıq. Mən çox çətinliklə yuxuya gedirdim, gecə bir neçə dəfə anamın yanına keçməyə cəhd göstərirdim, adətən, alınmırdı, nənəm buna imkan vermirdi; anam da bacıma layla çalaraq mənə sanki əhəmiyyət vermirdi. Nəhayət, mən yorulub yatırdım. Ancaq hərdən gecənin bir vaxtı istəyimə müvəffəq olurdum. Anamın üzü əks tərəfə olsa da, mən onun heç olmasa saçlarını qucaqlayıb şirin yuxuya gedirdim.

Xalam mütəmadi olaraq bizə baş çəkirdi, cürbəcür biş-düş və içmək üçün anama müxtəlif ərzaqlar - bal, bəhməz və sair gətirirdi. Bəzi qonşular və qohumlar da tez-tez bizə gəlirdilər. Anamın əhvalı yavaş-yavaş düzəlirdi. Son zamanlar məni özünə xeyli yaxın buraxırdı. Vaxtlı-vaxtında məni çimizdirirdi. O, məni qurulayan zaman bədənimi qətiyyən kobudcasına silmirdi, həmişə bədənimin suyunu dəsmala hopdurmaq üsulu ilə qurulayırdı. Mənim bədənimlə sanki qiymətli bir əşyanı zədələməkdən ehtiyatlanaraq davranırdı. Məni qurulayan zaman zümzümə edirdi:

Qoy gülüm gəlsin, ay nənə,
Qoy yarım gəlsin, ay nənə,
Qapıda duran oğlana
İrəhmin gəlsin, nənə...

İndi bu mahnının mətnini öyrəndiyim ilk şer kimi xatırlayıram.

May bayramında idarənin yanında Leninin heykəlinin qarşısında qələbəlik idi. Burada üstündə heykəl olmayan digər postament də var idi, aşkar görünürdü ki, bunun üstündəki heykəli söküblər. Kənd camaatının əksəriyyəti bayramı qeyd etmək üçün buraya toplaşmışdı. Mən, anam, bacım və nənəm də burada idik. Bəylərin başçılığı ilə zurnaçılar dəstəsi və bir nağaraçı da gəlmişdi. İlk dəfə qara zurnanın o möhtəşəm səsini eşitdiyim an! İnsana yaşamaq, yaratmaq, sevmək, sevilmək həvəsi aşılayan, çətinliklərə sinə gərməyi təlqin edən, mübarizəyə səsləyən bir qüvvə! Mən sanki sehrlənmişdim - həyəcandan damarlarımda qanım qaynayırdı, amma heyrətdən yerimdə donmuşdum! Cəngi səsləri altında cavanlar müxtəlif yarışlar keçirirdilər - bir dəstə oğlan dirədöymə oynayır, başqa bir dəstə oğlan at çapmaq yarışında iştirak edir, daha cəsarətliləri isə güləşirdilər. Uşaqları daha çox əyləndirən və heyrətə salan isə əlbəttə, ipin üstündə oyun çıxardan kəndirbazlar idi. Həmin gün mənim sevincimin və həyəcanımın həddi-hüdudu yox idi. Evə dönmək istəmirdim.

Bir neçə gün bayramdan aldığım təəssüratla yaşadım. Mən gah yerə ip uzadaraq guya kəndirbazlıq edir, gah təlxəkləri yamsılayır, gah da çubuğu at kimi çapırdım. Anam kənardan mənim hərəkətlərimi izləyərək gülümsəyirdi.

Ancaq bir gün onun səhhəti qəfildən pisləşdi. May bayramından bir müddət sonra kəndə ayıoynadan qaraçılar gəlmişdi. Onlar məktəbin həyətində Leninin may bayramında gümüşü

boyanmış büstünün yanında ayını oynadaraq pul yığırdılar. Mən də anamla buradaydım. Qəfildən ayı qaraçının əlindən çıxıb nərildəyərək izdihama tərəf cumdu. Hər tərəfdən qışqırtı qopdu. Mən də son dərəcə qorxdum, çünki ayı məni az qala tapdalayacaqdı. Sonda kişilərin köməyi sayəsində ayı ram edildi. Anam məni qucağına alıb izdihamın içində ayıdan gizləndi, üz-gözümdən öpdü. Bu məni çox təəccübləndirdi, nə vaxtdan bəri ondan belə iltifat görmürdüm. Ayı ram edildikdən sonra anam məni qəfildən yerə qoydu.

Anam həmin gün olmazın stress yaşadı, rəngi qaçmış, qan-tərə batmışdı, güclə nəfəs alırdı. Biz evə qayıdanda xalamdan xahiş etdi ki, məni təcili çimizdirsin. Mənim istəkli xalamın əlləri qarğıdalı çörəyi kimi cadar-cadar imiş. O, məni qurulayanda mənə əziyyət verdiyi üçün ona dedim ki, məni öz dəsmalımla qurulasın. Xalam, - ölöm qabağında, sənin öz dəsmalındı, - dedi. Zavallı xalam iki körpə uşağı ola-ola üstəlik kolxozda da işləyirdi, ona görə də əlləri bu vəziyyətdə idi.

Anamın vəziyyətinin düzəlmədiyini gördükdə xalam həkim çağırmaq üçün evdən çıxdı, bir azdan həkimlə geri döndü. Həkim anamı müayinə edib fikirli-fikirli başını buladı, anamın xəstəxanaya aparılmasını məsləhət bildi. Xalam həkimlə birlikdə evdən çıxdı, bir azdan şofer Zahidlə birlikdə qayıtdı. Anamın əynini dəyişib Zahidin QAZ-51-də Ağstafaya xəstəxanaya apardılar.

Anamdan ayrı yaşadığım ilk gecə. Bu mənim üçün son dərəcə qorxulu bir gecə idi. Divarlar sanki əcaib varlıqlar kimi üstümə gəlirdi. Çaqqallar da lap bizim doqqazımızda ulaşırdı. Nənəm mənim hisslərimi anlayaraq axşamdan məni işətmişdi. Ancaq gecənin bir vaxtı yenə də bu işə ehtiyacım olsa da, eşiyə çıxmamaq üçün səsimi çıxartmadım. Dözdüm, dözdüm və bir də gözümü açıb gördüm ki, təbiətin ən gözəl möcüzəsi olan səhər bizim pəncərəmizə qədəm qoyub.

Səhər çörəyimi yeyib qalxan kimi dərhal doqqazımızdan Zahidin anamı apardığı yola boylandım. Mənə elə gəlirdi ki, anam bu gün qayıdacaq, fəqət qayıtmadı. Anam səhərisi gün də, birisi gün də qayıtmadı. Anasız günlərim belə başladı. Ancaq Zahidin maşınını hərdən görəndə, nədənsə, çox sevinirdim. Mənə elə gəlirdi ki, anam məhz bu maşınla evimizə qayıdacaq. İlk günlər maşın kəndə tərəf gələndə son dərəcə həyəcanlanırdım. Ürəyim tez-tez döyünür, nəfəsim təngiyirdi. Yeganə və ən sevimli oyuncağım mənim nəzərimdə Zahidin maşınına bənzəyən bir çay daşı idi. Mən bu daşı əlim ilə itələyərək və guya maşın kimi sürərək balaca beynimdə böyük xəyallar qururdum. Ancaq yavaş-yavaş vəziyyətə alışdım və hətta Zahiddən də, onun maşınından da zəhləm getdi.

Nənəmdən tez-tez anamı soruşurdum. Nənəm həmişə eyni cavabı verirdi: “Balinsədədi, ölöm, darıxma, gələjək”. Bu cavab mənim əhvalımı tamam korlayırdı. Nənəmin yalançı olduğunu tədricən başa düşürdüm. Əhvalım pis olanqa heç bir uşaqla oynamaq istəmirdim. Əslində, məhəlləmizin uşaqları da mənim kimi küsəyən, özünəqapanmış bir uşaqla oynamaq istəmirdilər.

Axşamın düşməyini heç istəmirdim. Biz çox nadir hallarda axşam düşəndən sonra başımızı nə iləsə qatırdıq. Bəzən nənəm bacımın əllərindən tutub yeritməyə çalışırdı. Bəzən əllərinin şappıltısı ilə ritmik səs çıxararaq oxuyurdu: “Azadın qızı, donu qırmızı! Azadın qızı, donu qırmızı!”. Qonşuların işığı gecənin bir vaxtınadək yanılı qalsa da, nənəm bizi adətən tez yatızdırmağa çalışırdı. Bacıma layla çalırdı, qəmli-qüssəli bir layla. Bacım onun hiyləsinə tez düşərək yatırdı. Mən isə uzun müddət müqavimət göstərirdim. Ona nağıl danışdırırdım, gah “Cırtdan” nağılını, gah da keşiş ilə gəlin haqqında bir nağıl danışırdı. Nə etsin, bildiyi bunlar idi, mən də onu danışmağa məcbur edirdim. Keşişin əhvalatının müəyyən yerinə çatanda özünü saxlaya bilməyərək, əlini qızarmış üzünə tutub ürəkdən gülürdü. Onun nəyə güldüyünü anlamaya-anlamaya ona qoşulub mən də gülürdüm. Bu nağılı ona dəfələrlə danışdırmışdım və əhvalatın həmin yerinə çatanda mən artıq gözümü ona zilləyərək onun gülməli reaksiyasını gözləyirdim. Əslində, mənim üçün nağıldan çox onun reaksiyası maraqlı idi. Bəzən nənəm yatırdı, mən isə oyaq qalırdım. Bəzən gecələr acırdım, yorğun nənəm narazı halda durub mənə dürmək verirdi. Mən dürməyi dişim kəsmədiyi üçün yeyə bilməyəndə xamralı çörəyi istəyirdim. Bəzən yeməyə heç nə olmurdu, yaxud da nənəm tənbəllik edirdi, - çaydanın içinə yumurta atmışam, qoy bişsin, durub yeyərsən. Sən bir yuxu yat, durana kimi bişəjək, - deyirdi. Nənəmin

o qəmli laylaları - “Balam, ayl-ləl-lə, yuxuya getsin, ayl-ləl-lə” eşikdə külək əsəndə, yağış yağanda daha da kədərli səslənirdi.

Nənəm Kürə su gətirməyə gedəndə hərdən məni də özü ilə aparırdı. Yaşı yetmişi keçmiş bəstəboy nənəmin az qala özü boyda su səhəngini çiynində daşımasına mən adət etmişdim. Onun bu əziyyəti azmış kimi, mən yanına düşüb gedəndə ona əlavə əziyyət verirdim: gah ona ağılsız suallar yağdırırdım, gah yıxılırdım, gah geridə qaldığım üçün yükün altda qalan nənəmin dayanmağını istəyirdim...

Bir dəfə mən evin açarını itirəndə nənəm onu tapmaq üçün saatlarla vaxt itirmişdi. Ərsiz, oğulsuz çabalayan, nəvələrinin ağır yükünü çəkmək məcburiyyətində qalan biçarə nənəm, sənə övladlıq borcumu qaytara bilmədim. Mən onunla yarğandan Kürün sahilinə ilk dəfə düşəndə vahiməli hisslər yaşamışdım. Əvvəllər də Kürün sahilində ata-anamla, yaxud bunlardan biri ilə olanda çaydan heç zaman qorxmamışdım. Nənəmlə Kürün sahilində olanda isə mənə elə gəlirdi ki, o sahildəki tuqay meşəsindən bu saat bir yekə div çıxacaq. Qorxurdum ki, bu div üzə bilən və ağıllı olar, boynuna dəyirman daşı keçirməz, onda vay bizim halımıza! Yazıq nənəm, yəqin ki, səni zəif və aciz sandığım üçün belə fikirlər məni narahat edirdi.

Yaxşı ki, xalam var imiş! O, mənim üçün tanrının hədiyyəsi idi. Xalam hərdən məni öz evlərinə aparırdı, burda onun oğulları Rəhman və Fazillə oynayırdım. Xalamın əri Abbas evdə olmayanda özümü sərbəst hiss edirdim, o, evdə olanda isə nə mən, nə də onun oğlanları cınqırımızı da çıxarda bilmirdik. Abbas uşaq evində böyümüşdü, təbii ki, yaxşı tərbiyə görməmişdi, ağzından söyüş düşmürdü, bəzən bir cümlədə iki-üç dəfə söyüş söyürdü. Bizim kənddə onsuz da söyüş söymək bir adət idi, ancaq hamı çox yaxşı bilirdi ki, ən mahir söyüş söyən məhz Abbasdır. Ona görə də onun yanında heç kəs risk edib söyüş söymürdü. Hərdən mənimlə məzələnirdi:

- Ayə, bir almanın üstünə bir alma gələndə neçə eller?
- İki.
- Düz demədin - iki yox, iki alma eller.
- İki almanın üstünə üç armud gələndə neçə eller?
- Beş.
- Beş nə?
- Beş alma.
- Düz demədin.
- Beş armud.
- Tupoysan ki, tupoysan! Beş meyvə eller, ay tupoy.
- Indi de, göröm, iki qoyunun üstünə iki canavar gələndə neçə eller?

Abbasın hiyləsini başa düşdüyüm üçün təntənə ilə dedim:

- Dörd heyvan!
- Düz demədin, iki dənə tox canavar eller. Ayə, neçəyə qədər saya bilersən?
- Azərbaycanca yüzə qədər, rusca ona qədər.

Abbas təəccüblənirdi:

- Rusca saymağı kimdən öyrənmisən?
- Anam öyrədib!
- Yalan danışma. Anan ruscağı kimdən öyrənib?
- Ona da atam öyrədib. Atam anama deyirdi ki, səni oxudub rus dili məllimi eliyəjəm.

Abbas qarnını tutub gülürdü:

Ayə, məni hələ belə güldürən olmamaışdı. Yaxşı, indi de, göröm, haralısan?

- Azərbaycanlıyam!
- Bunu da anan öyrədib?
- Yox, bunu atam öyrədib.
- Ayə, sən atana qulaq asma, onun oxumaqdan başı xarab olub. Adam olar bakılı, şəkili, gəncəli, üstü açıq kəndli, daha bu azərbaycanlı hardan çıxdı? Sən qazaxlısan, bildinmi? Deməli, sən haralı oldun?

Xalam mənə kömək etmək istədi:
- Ölöm, ona inanma, biz akstafalıyıq.
- Sən kəs səsini, kişi söhbətinə də qarışma! Yusif, sən haralı oldun?
- ....
- Haralı oldun?
Mən qorxudan dizlərim əsə-əsə cavab verdim:
- Azərbaycanlı.

O, hərdən bir neçə həftəlik Gəncəyə işləməyə gedəndə bu evdə uşaqların hay-küyündən həyətdəki toyuq-cücə də diksinirdi. Hətta gecələr evin içində gizlənpaç oynayırdıq. Gizlənmək yerlərimiz - taxtın altı, sandığın içi, yorğan-döşəyin altı, xalamın kürəyinin dalı...Sevdiyimiz oyunlardan biri də xalamın öyrətdiyi "motal-motal" oyunu idi. Taxtın üstündə cərgə ilə oturaraq ayaqlarımızı uzadardıq.

Motal-motal, dərzi motal,
İllər yatar, qaymaq tutar,
İlmə-ilik, yeddi milik,
Səfər səkkiz, durna doqquz,
Durna gəldi, durul çıx.

"Çıx" sözü kimin ayağına təsadüf edərdisə, o, həmin ayağını qatlayardı. Axırda kimin ayaqları qatlanmamış qalardısa, oyunu birinci qurtaran onu eşşək kimi minib sürürdü. Bu oyun üzrə mən mütləq çempion hesab olunurdum - adətən "eşşəyi" minən mən olurdum. Çünki həmişə sayan və hakimlik edən xalam olurdu. Mən xalam uşaqlarını, başqa uşaqları, hətta xalamın özünü də, əstağfürullah, eşşək kimi minirdim. Xalam əvvəllər Rəhmanın və Fazilin canına and içirdi, son zamanlar isə mənim canıma and içməyə başlamışdı. Ümumiyyətlə, bizim kənddə hər bir ailənin öz andiçmə obyekti vardı və mütləq surətdə bu obyektlər kişi cinsinə aid olmalıydı. Lakin and içən şəxsin doğrudanmı, yoxsa yalandanmı and içməyi elə də inandırıcı deyildi. Xalam mənim canıma and içəndə isə kənddə hamı bilirdi ki, xalam sözünə inanmamaq olmaz. Xalam hətta Abbas dayı kimi bir nəhəng, kobud adamın yanında belə mənim kimi bir cılız uşağın canına and içməkdən çəkinmirdi.

Xalam hərdən bizi özü ilə pambıq tarlasına aparırdı. O bizi artezianın yanında fasilə zamanı istirahət etmək üçün düzəldilmiş talvarın altında otuzdurar, özü isə sahəyə girib pambıq yığardı. Talvarın altı bizim üçün axşama qədər həm əyləncə, həm də yaşamaq yeri olardı. Qadınlar nahar fasiləsinə çıxanda termosda gətirdikləri qaynar su ilə çay, yaxud şərbət hazırlayıb özləri də içər və bizə də verərdilər. Yedikləri isə əsasən pendir-çörək, yumurta, xiyar-pomidor, bəzən də toyuq qızartması olardı. Bəzən qaynar su olmurdu, onda şərbəti birbaşa çiy sudan hazırlayırdılar. Nahardan sonra zarafat edə-edə yenidən sahəyə qayıdırdılar.

Xalamdan da tez-tez anamı soruşurdum. Cavab vermək xalam üçün çətin olsa da, o, nənəmə nisbətən daha yaxşı cavablar verirdi və məni ümidləndirirdi. Mən ondan məni anamın yanına aparmağı xahiş etdikdə, - yox, qabağında ölöm, ora uşaqları buraxmerlar, - deyirdi.

- Onda məni, heç olmasa, Akstafaya apar, o yatdığı balinsəni mənə göstər, - deyəndə xalam fikrə gedirdi. Bir dəfə o mənə sürpriz cavab verdi:

- Mən səni Akstafaya yox, Tiflisə aparajam!

Mən çox sevindim, çünki Tiflisə nə zamansa səfər etmiş uşaqlar həmişə yanımda qürrələnirdilər. Səhər çağı evdən piyada Poylu stansiyasına getdik, oradan da dünənə qədər yalnız arzulaya bildiyim elektrik qatarı ilə Tiflisə çatdıq. Çox həyəcanlı idim, ilk dəfə böyük şəhər görürdüm, başqa dillərdə danışan xalqlar görürdüm, hətta başqa dillərdə danışan uşaqlar görürdüm. Saysız-hesabsız maşın görürdüm. Bir dənə də olsa eşşək arabası görmədim, ancaq Şeytanbazarda bir at arabası var idi, əvvəlcə onu sürənin Abdulkərim baba olduğunu zənn etdim. Xalam da mənim bu yalançı qənaətimə xeyli güldü-güldü, arabaçını yersiz gülüşü ilə xeyli qəzəbləndirdi, qamçı yeyən isə yazıq at oldu. Həyatımda ilk dəfə dondurma yedim, siroplu şirin su içdim. Xalam mənə ayaqqabı və köynək aldı. Şalvar da almaq istəyirdi, qoymadım, daha

doğrusu, qıymadım. Əgər atam, yaxud anam almaq istəsəydi, aldırardım. Mənə elə gəlirdi ki, birdən-birə xalam mənə bu qədər şey alsaydı, Abbas xalamı döyərdi.

Bundan sonra heç kəs mənim yanımda Tiflis səyahəti ilə qürrələnmirdi, əksinə, mən qürrələnirdim. Özümü elə aparırdım ki, guya Tiflisin hər yerini tanıyıram.

Səyahətdən qayıdandan sonra mənim əhvalım xeyli düzəlmişdi. Uşaqlara yovuşurdum, bütün oyunlarda aktivlik göstərirdim. Hərdən ağac kölgəsində toplaşaraq bildiyimiz nağıllardan danışırdıq. Etiraf edim ki, nənəmin nağıllarını bacarıqla danışmırdım.

Bu minvalla anamın xəstəxanaya getməsindən bir il keçdi.

Bir gün kəndimizə mənim Tiflisdə gördüyüm, ağ rəngli, içində ağ xalatlı adamların oturduğu bir maşın gəldi. Hamı çox təəccüblənmişdi. Maşının arxa qapısı açılanda oradan anam çıxdı. Mən gözlərimə inanmadım, sanki yuxu görürdüm. Həmişə xəyalımda anamla görüş səhnələrini quran mən deyildimmi? İndi mənə nə olmuşdu? Mən niyə donmuşdum? Niyə onunla görüşə bilmirdim? Mən divara qısılmışdım, yad insanların yanında nə edəcəyimi bilmirdim. Anam özü mənə yaxınlaşdı, yenə də yaşmaqlanmışdı. Qarşımda diz çökdü. Başını qarın nahiyəmə sıxdı, qarnımdan öpdü. Sonra ayaqlarımı öpmək istədi, ayaqlarımı geri çəkdim, ancaq onun çiyinlərini buraxmadım. Onun çiyinləri titrəyirdi. Xalam onu durğuzdu, həkimlə birlikdə köməkləşərək onu evə daxil etdi. Həkim xalama və anama tibbi məsləhətlər verdi, çay içməkdən imtina edib gəldiyi maşınla getdi.

Anama taxtın üstündə yer saldılar. Xalam mənə və soruşanlara deyirdi ki, anam tam sağalana qədər evdə müalicə olunacaq.

Anam evə qayıdandan sonra mən gecələr şirin yuxular görməyə başladım. Atam, anam, mən və bacım təyyarə ilə uzaq yerlərə səyahətə gedirdik. Təyyarədən yerə baxanda Tiflis kimi böyük şəhərləri, meşələri, çayları görürdük. Mən gecələr yatanda yenə də sərhəddi pozaraq anamın yanına keçirdim. Ehtiyatla, nənəmdən çəkinərək bacımla anamın arasına girirdim, anamın saçlarını qucaqlayırdım, onun çiynindən öpürdüm. Bir dəfə bacım gecə ağlayanda anam mənə layla çaldı, özü də yuxulu idi. Mən yalandan özümü yuxuluğa vurub kefnən mürgüləyirdim. Handan-hana bacımın susmaması səbəbindən anam yuxudan oyananda məni yanında gördü.

İşlər sanki yaxşılığa doğru gedirdi. Ancaq anam tez-tez xalamdan ayın tarixini və həftənin günlərini soruşurdu. Mənim artıq az-çox ağlım kəsirdi. Əvvəla, bilirdim ki, anam məni yoluxdurmamaq üçün üzünü məndən kənara tutur, ikincisi, hiss etməyə başlamışdım ki, o bir daha xəstəxanaya qayıtmaq istəyir. Bir dəfə səhər çağı mən yerimdən duranda onun hələ də yatdığının şahidi oldum, çox təəccübləndim. Xalam dedi ki, səs salmayım, anam dərman içdiyi üçün gec duracaq. Ancaq anam qısa zamandan sonra oyandı. Məni yanına çağırdı, qarnımdan öpdü, mənim qıdığım tutduğu üçün güldüm. Bir daha qarnımdan öpdü, mən yenə güldüm. Anam dedi:

- Elə gülmə, ürəkdən gül!

Mən yenə güldüm.

- Bir az da ürəkdən gül, mənim xətrimə. Həmişə necə gülürdünsə, bax, elə gül.

Mən anamın sözünü yerə salmayaraq qəh-qəhə ilə uzun-uzadı güldüm. Sonra anam dedi:

- Çox sağ ol. İndi isə get, uşaqlarnan oyna.

Mən evdən çıxdım, ancaq uzağa getmədim, qulağımı qapının dəşiyinə dayadım. Anam xalama dedi:

- Mərzə, mənə diqqətnən qulaq as. Mən bu gün getməliyəm.

Xalam diksindi:

- Bə deyirdin, bir də oraya qayıtmayajaxsan.

- Mərzə, sən nə dilbilməz adamsan, mən başqa bir yerə getməliyəm...Məni müalicə edən həkimlər bir-birinnən... rusca söhbət edəndə mənə yarım ay vaxt qoymuşdular. Bu gün yarım ay tamam olur. Məni axıra kimi dinlə, Yusifi sənə tapşıreram, ondan muğayat ol.

Anam çətinliklə, fasilə verə-verə danışırdı:

- Qoyma yad əllərə düşsün... Ciji, sən də məni eşit, Aybənizi də sənə tapşıreram. Mən bu gün getməliyəm, Mərzə, ciji... Sağ olun, haqqınızı halal eləyin.

Mənə aydın oldu ki, anam bizi bir daha tərk etməlidir. Tiflisəmi, Bakıyamı, bilmirəm? Axır ki, uzaq bir yerə. Bundan çox məyus oldum. Uşaqlar məni dartıb oynamağa apardılar. Mən onlarla birlikdə qaçsam da, özümdə deyildim, fikrim başqa bir dünyada idi. Bu zaman Səhnə nənəm ayaqyalın, saçı dağınıq vəziyyətdə, sinəsinə döyə-döyə eşiyə çıxdı.

- Nabat, ay Nabat! Sinəm yandı, ay Nabat! Bir çölə çıx!

Nabat qarı eşiyə çıxdı:

- Nə olub, aaz, yenə niyə özünü öldürörsən?

- Evim yıxıldı, ay Nabat! Güləndəm öldü!

Bir azdan evimizin qarşısı kənd camaatı ilə doldu.

Mən həyətin xəlvəti bir yerində durub sanki anamın qınağından çəkinərək anamın hüzündə iştirak edən insan kütləsinə baxırdım. Tanıdığım və tanımadığım adamlara. Görmək istədiyim adamları axtarırdım. Kimsənin məni görməsini və dindirməsini, mənə nəvaziş göstərməsini istəmirdim.

Atamdan başqa...

Bu zaman Abbas dayı həyəcanla həyətə girdi.

- Yusifi görən varmı? Hardadı Yusif?

O, məni tapanda qucağına almaq istədi, mən getmədim.

- Ağrın alem, burda niyə durmusan? Abbas dayın ölməyif ki, boynunu büküf burdajıx dayanmısan. Gedək. Sakit ol, özünü də ələ al. Axı, biz kişiyik. Sənin dağ kimi atan var. Bəs, mən bədbəxt nə edim? Mən nə ata görmüşəm, nə ana… Bir buna bax, gör, sənə nə gətirmişəm.

O, cibindən bir fənər çıxartdı. - Bunu gecələr yandırıf yola işıq salerlar, deyərək, əlimdən tutub məni oradan uzaqlaşdırdı.

- Batareyası təzə olanda göydə samolyotu da vuror. Bir dəfə bu fənər mənə, bilersən, necə kömək eliyif? Danışem, sən də qulaq as. Deməli, Daşdıcada maşından düşüf, gələrəm üzü kəndə sarı, çiynimdə də tüfəng. Hava qaralıf. Ancaq mən Cüccülü Bozuna catanda gördüm ki, Ceyrançöl tərəfdən Ay yavaş-yavaş çıxer. İsrəfil ağanın evinə çatanda onun uçuq damından bayquşların səsi gələrdi. Birdən bayquşlar pırıltıynan uçdular. Baxıb görörəm, kolun dalından iki göz parılder. Yusif, sən bilən, bu hansı heyvan idi?

- …

- Əlamətlərini deyimmi? Qulaqları dik, rəngi də boz...Nə oldu, tap, göröm.

- Bunu bilməyə nə var - canavar.

- Düzdü! Sənin canavar ananı .... Ayə, sən dəli Abbasımı, Yusifin dayısınımı qorxudorsan? İstədim tətiyi çəkəm, ancaq gülləyə hayıfım gəldi. Fənəri yandırıf tutdum bunun üzünə. İşıq yanan kimi qaçıf canını qurtardı. Gedək mağazinə, ordan sənə xoruzlu konfet də alajam.

Biz Elton əmimin işlətdiyi mağazaya gəldik. Abbas dayı iki ədəd xoruzlu konfet aldı - biri mənə, biri Aybənizə. Elton əmim mənə təzə köynək bağışladı, Abbas dayı bunun pulunu verəndə götürmədi.

Bu zaman radioda qara zurna ilə cəngi havası çalınırdı. Eyni ilə may bayramında çalındığı kimi.

“Cəngi” havası mənə həmişə anamı xatırladır. Fəqət, qara zurnanın ifasında “Cəngi” havası mənə həyatda inandırdı ki, insan anasız da yaşaya bilərmiş.

Kaş ki, yaşadığımız dünya ulduzlu səmaya fənərdən işıq salan uşaqların paklığına rəğmən bu qədər amansız olmayaydı…

Yadındamı, əziz ana, ötən günlər,
O kənd evi, bağçasında qızıl güllər?!
Yadındamı, mənim tifil uşaqlığım,
Sənin isti qucağında xoşbaxtlığım?!
Yadındamı, mənim atam, şık geyimli,
Yaraşıqlı, kəndimizin müəllimi?!
Səhnə nənəm, Mərzə xalam, Abbas dayı,

Özləritək qara kişmiş oğlanları?!
Xəstə bacım, ağrım-acım, o Aybəniz,
Beş yaşında uçub gedən o çarəsiz?
Yadındamı toy-düyünlü o kənd yolu,
Uşaqlarla, böyüklərlə müdam dolu?!
May bayramı, yadındamı zurnaçılar,
Güləşəngi, xalça üstdə pəhləvanlar?!
Bayram günü ayıoynadan qaraçılar,
Kəndirbazlar min bir oyun açırdılar!
Bir nəşəsi vardı onda həyatın da,
Mənsə sənin o isticə qucağında!
Kür çayının sahilinə getməyimiz,
Əyilib də bulaqdan su içməyimiz!
Sahil boyu düzülmüşdü balıqçılar,
Ayaqyalın, əlləri də cadar-cadar.
O sahildə motorların işləməsi,
Yersulayan bostançının o gur səsi:
- Getmə, dayan, ay Güləndəm, sovqat verim,
Yanındakı uşağı da sevindirim.
Bostançının qayıq ilə üzməsi də,
Bu sahildə bizə yemiş kəsməsi də
Yadındamı?..
Durnaların göydə gecə uçmasını,
Ordan ayın yerə işıq saçmasını
Xatırlaram, ötüşsə də qərinələr,
Milyon illər!
Biz də durub əl edərdik durnalara,
Bir də geri qayıtmayan o quşlara!
Bəzən bunlar yuxu kimi gəlir mənə,
İndi sənin "can" deyərdim hər kəlmənə!
Sonra birdən nə oldu sənə, əziz ana,
Gözmü dəydi sənin o gül əndamına?
Rəngin-ruhun gündən-günə niyə soldu,
Ürəyinə kədər-nisgil hardan doldu?
Yoxsa, xəstə bacılığın yoluxdurdu,
Səni zalim xəstəliklə soluxdurdu?
Ana! İllər ötüb-keçib o dövrdən,
Yaşca səni xeyli vaxtdır ötmüşəm mən.
Ziyarətə gələn sənin övladındır,
Ömrün hər bir anı üçün duaçındır!
Eşidərmi anam məni, bilməm, susar,
Qarşımdasa həmin köhnə soyuq məzar.
Səndən sonra, əziz ana, bir kimsədən
O pak, ülvi duyğuları görmədim mən.
Buna görə heç kimdən də incimirəm.
Fəqət, sanki bir boşluğun içindəyəm.
Sədaqətli məsləkdaşlarım olsa da,
Övladlarım dərslərini oxusa da,
Soyuq qışdan sonra gözəl yaz gəlsə də,
Baxçamızda qızıl güllər yetişsə də...

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN TARİX-FİLOLOGİYA FAKÜLTƏSİNDƏ GƏNC YAZARLAR VƏ ƏDƏBİYYATŞÜNASLAR KLUBU

Naxçıvan Dövlət Universitetinin Tarix-Filologiya fakültəsində "Gənc Yazarlar və Ədəbiyyatşünaslar Klubu" fəaliyyət göstərir.

Klubun məqsədi ədəbi-bədii, həmçinin elmi yaradıcılıqla məşğul olan gəncləri bir araya gətirmək, yazarlıq dərsləri, müzakirələr, ədəbi görüşlərlə gənclərin söz sənətinin inkişafına töhfə verməkdir. Sənət sahəsində baş verən yeniliklər, yeni tendensiyalar, müasir ədəbi formaları, janrları izləmək, tanımaq gənc yazarların sərhədlərini daha da genişləndirir. "Gənc Yazarlar və Ədəbiyyatşünaslar Klubu" gənclərin sənət və elm yoluna işıq olmağı qarşısına əsas məqsəd kimi qoyub.

"Gənc Yazarlar və Ədəbiyyatşünaslar Klubu"nun təşəbbüskarı Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru Arif Ağalarov, rəhbəri "Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müəllimi, şair, ədəbiyyatşünas, esseist Gülay Tahirlidir. Klub fəaliyyət göstərdiyi qısa zaman içərisində bir çox uğurlara imza atıb. NDU-nun gənc yazarlarının, ədəbiyyatşünaslarının yazıları ölkə mətbuatında mütəmadi şəkildə dərc olunur. Hər keçən gün tələbə yazarların qələmindəki irəliləyişləri sezmək mümkündür. Bədii yaradıcılıqla yanaşı, tələbələrin elmi yaradıcılığı, təhlilləri, müqayisələri, xüsusilə, filoloq tələbələrin gələcəkdə peşəkar ədəbiyyatşünas kimi yetişməsində böyük rol oynayır.

"Gənc Yazarlar və Ədəbiyyatşünaslar Klubu"nda davamlı olaraq kitab müzakirələri də keçirilir. Çünki yaxşı yaza bilməyin ilk şərti çox oxumaqdır. Tələbə yazarlar Azərbaycan və dünya ədəbiyyatının ən gözəl əsərləri ilə tanış olur, bədii və elmi cəhətdən həmin əsərləri təhlil edirlər.

"Gənc Yazarlar və Ədəbiyyatşünaslar Klubu"nun rəhbəri, şair, ədəbiyyatşünas Gülay Tahirli tərəfindən dünya və Azərbaycan ədəbiyyatının müxtəlif janrları, klassik və yeni tendensiyaları izləmək, yazarlığın əsas sirləri, istiqamətləri və s. mövzularda dərslər, müzakirələr təşkil olunur.

Ölkəmizin kiçik bir guşəsində fəaliyyət göstərən "Gənc Yazarlar və Ədəbiyyatşünaslar Klubu"nun ədəbiyyatımızda böyük izlər qoyacağına inanırıq!

POEZİYA

GÜLAY TAHİRLİ

***
Deyim, biləsən…
Möhtəşəm gedişlərim var mənim.
Bu gün istəsən, canımı verərəm.
Sabah elə bir şey edərsən,
Canın çıxsa, qayıtmaram,
Canım çıxsa, qayıtmaram.

Sevəndə ölümünə sevərəm,
Gedəndə ölümünə gedərəm.
Qəfil…
Heç olmamış kimi…

Gedişlərin sevgiyə nə dəxli?
Bir də qırıqlar var,
Bu gün bir dənə,
Sabah qalaq-qalaq qırıqlar.

Bu gün bərəlmiş gözlərlə,
Sabah dərin bir ah,
O biri gün sakitcə,
Səssizcə qarşılanan qırıqlar.

Mən ağlamağı da bacarmıram,
Ağladılacağım yerdə dayanmağı da.

Deyim, biləsən…
Möhtəşəm gedişlərim var mənim.
Elə gedirəm, elə qəfil…
Heç olmamış kimi…

BİR AZ DA VİCDANSIZ GEDİRƏM…

Ciblərimə doldururam Günəşi,
Prometey kimi oğurlayıram atəşi.
(Sonradan didilsə də ciyərim)
Çantamda yaz çiçəkləri,
Qollarımda bir qucaq göy üzü…

Mən gedəndə məğrur gedirəm,
Gedirəm dağ kimi,
Qalıram dağ kimi…

***
Bu gözəl göy üzünün altında
Çirkin adamlar
Elə gözəl yaşayırlar ki, Fyodor!

Bu gözəl göy üzünün altında
Gözəl adamlar elə gözəl
Yaralar daşıyırlar ki...

Bu gözəl göy üzünün altından
Ya gərək dişini sıxıb gedəsən.
Ya da bir ömür
Ürəyini sıxıb ölüm güdəsən.

Olmur, Fyodor, olmur.
Adamları daha göy üzünün
Gözəlliyinə də güzəştə getmək olmur…

***
Torpağın çat-çatdır, Vətən!
Görürəm - bağrın yarılır...
O torpaq altında
nə qədər toxum cücərmədən ölür.
Nə qədər ağacın kökü var,
gövdəsi yox...
O torpağın üstündə
Adamların ürəyi var,
sevdası yox...

Mən ən çox sənə bənzəyirəm, Vətən!
Ürəyim sənin kimi parçalanıb.
Xəritən kimi kiçilmişəm,
Zərrə-zərrə biçilmişəm,
Nə qədər idim,
Nə qədər olmuşam, Vətən!

Xəbərin varmı Güneyindən?
Mənim də solumdan xəbərim yoxdur.

Ən çox sevdiyimiz,
Ən çox ağrıyan yanımız,
Mənim solum - sənin Güneyin.

Hərdən Kür kimi hiss edirəm özümü,
Azalıram, azalıram...
Mən - çölün düzündə,
Adamlar cəhənnəm,
Tanrının unutduğu ağac - sozalıram...

Ən çox torpağına bənzəyirmiş adam.
Min illik yaralarını
əlimdə sıxsam, sıxsam...
Ürəyim soyuyarmı, görən?
Sən xoşbəxt olsaydın, axı mən də...
Mən də, bəlkə...

Deyirəm, başımı qoyum Xəzərə,
Göy üzündən Tanrını çağırım,
Gəlsə,
Qağayılar imkan versə,
Ona çox yox,
bir-iki kəlmə söz deyəcəyəm...

Darıxma, Vətən, darıxma.
O quşlar ki, var -
Təbrizindən dən gətirib
Bakında əkən quşlar.
Onlara baxıb deyirəm ki,
Ümid var…

***
İçimdə kədərli bir qız uşağı,
Güzgülərə ağlayan,
"Dünyanın ən çirkini"
Gözəl bir qız…

Saçına dəyməyən sığalların
Ürəyində əbədilik izi var.
Gözəl olduğunu deməmişdilər,
Bilməmişdi…

Qısılmışdı, utanmışdı,
Ürəkdən gülməmişdi.
Gizlincə qayçını götürüb
Saçını kəsməyi…
Əllərinin, bədəninin əsməyi,
O həyəcanlı macəra
Özü də bilmədən
Ən böyük üsyanı idi.
İçimdə qanadları qırıq qız uşağı…

Yandırdığı kekin "Afərin"inə,
Sındırdığı qabın "Eybi yox"una həsrət…

İçimdə çılğın bir qız uşağı,
Evdəki qırmızı yastıqların anası,
Gəlinciksiz, kuklasız…

İçimdə xoşbəxt bir qız uşağı…
İllər sonra yenidən gələn,
Deyən-gülən və rəqs edən…
Oğlumun möhtəşəm oyun dostu…

Kimsəyə buraxmaram,
Bu dəfə özüm böyüdəcəyəm onu.

***
İndi onun adı dünyadakı
milyon addan biridir,
İndi onun odu dünyadakı
milyon oddan biridir,
İndi o, dünyadakı milyon "O"dan biridir.
İndi küçələri bir-birindən heç nə ayırmır.
İzini də, tozunu da süpürmüşəm -
Bu, mənim saçımın son süpürgə halı idi.
İndi çayın, qəhvənin
danışmağa hekayəsi yox,
Bircə onu bilirəm ki,
Hər masada içilməz,
Hər masadakı ilə içilməz,
Hər masala içilməz.
İndi heç bir mahnının,
Heç bir şeirin qarşısında
"o" işarə əvəzliyi dayanmır.
İndi mənim "o mahnı"m,
"o şeir"im yoxdur.
Nə bilsinlər axı,
Yara-bərə içində,
Kürəyindəki sancı ilə
Ən güclü biçimdə
Pillə-pillə dırmanıb
Antraktidaya çatmaq nə deməkdir!
İndi ürəyimin közərən hər ocağını,
Bu dünyanın hər künc-bucağını,
Anamın isti qucağını
Buz tutub, buz.
İndi bu bədəndə ən çox ruhum üşüyür.
Divarların o tayını görmək ürək işidir.
Təklik məmləkətindən baxanda
Kor ürəkli adamlar məmləkəti
Necə görünür, görəsən?
Necə duyulur?!
Görünürmü? Duyulurmu?

POEZİYA

FİRUZƏ QULİYEVA

***
Sözlərimin beşiyi,
Körpə çağlarımın laylası,
Ana dilim!
Ana nəfəsinin doğmalığı,
Bahar fəslinin istiliyi,
Dağ çeşməsinin duruluğusan.
Nənəmin duası,
dağların əks-sədası,
Anamın həzin laylası
Səndə can tapdı, Ana dilim!
Qızılgüllü xalçalar kimi
Naxış olmusan qəlbimdə.
Hər hecan tarix yazıb,
Bayatılar cilalalayıb,
Köç yolusan zehnimdə.
Sənin sükutun millətin yuxusudur!
Sözlərim yetim,
boynubükük qalmasın,
Sənlə açan duyğularım
bir an belə solmasın.
Sən yaşa -
Nəğmələrdə, dastanlarda,
Uşaq təbəssümündə,
Kitab vərəqlərində
Və...
Ürəyimin ən dərin guşəsində…

***
Susur otaq…
Bir köhnə rəng,
Divarda kölgə - dumana bənzər.
Bir nəfəs boyda qısaldı ahəng...
Pəncərə açıq -
İçəri bahar da girmir artıq...
Əllər göyə uzanmır bu gecə,
Dualar yorğun,
Könüllər lal.
Kimlərin içində gizli heca,
Sükutda çırpınan ümidsiz bir hal.
Qaranlıq ətəyin geyinir indi,
Ağ örpək ruzigarlarda yellənir,
Sanki bu dünyada
Bir vida nəğməsi dindi,
Bir anlıq ölüm məni səsləyir...
Yataq çarşafı ağ deyil,
Zülmətə bürünüb,
Kiminsə nəfəsi -
Başımı yarımçıq qoyduğum
Yastığa dönüb.
Və sonda -
Səssiz bir güllə keçir
Zamanın sinəsindən,
Adın qalır
Rütubətli daşda yazılı…

***
Vətən -
Könlümün dərin qatında gizlənən
Nə bir xəritə, nə də bir ünvan.
O, qönçələrdə gizlənən körpə mələk,
Çinar kölgəsində məğrur qoca…
Üzündə bir İlahi təbəssümtək,
Sonsuz səmalarda açılar sabahı.

O, dağların sükutundan,
Qayaların bağrından qopar
Nəfəs kimi -
Tərəddüdsüz, sözsüz,
İz qoymadan düşər ürəyə.

Göy üzü qaralanda belə,
Vətənin rəngi dəyişmir.
Axı göy qurşağından yox,
Gözdən yağan leysanlardan
Doğulur arzuları.

Yurdum -
Bircə qanadla əsən yel,
Bircə simlə titrəyən tel…
Yurdum, səndən uzaqda
Keçən heç bir gün ömürdən deyil...

***
İçirəm səni...
Dodaqlarım Günəşdən
qabar-qabar olan zaman.
Darıxıram...
Qəribliyim sinəmdə
çırpınan zaman.
Yaşayıram...
Ruhum bir edam havasına
yaşayan kimi.
Məhkumam...
Zehnimə sığındığın südəmər uşaq kimi.
İsti qucağında ilıq səsimi,
Bir yığın küləkdən qoru min əsri.
Rəngsaz deyiləm tablo boyansın,
Günlərə meydan verən
dərdsaz olduğum kimi.
Sonuncu - "Niyə?" - demə, ey şahid,
İstəsən, qəlb qırıntılarını
sərçələrə verərik.
Ayrılıq yaşamış dünya üzərində,
Daha nə deyim?
Bəstəsiz göylərin mavisi dinsin...

***
Sən gedəndən
Mətbəxdə bir boşqab artıqdı.
Heç kim toxunmur.
Heç nə qoyulmur içinə,
İçi hər gün saralır –
Yollarına boylanan
Gözlərimi gördükcə.

Paltar ipində
Bir köynək tək qalıb.
İkincisi yoxdur.
Tapılmır,
Bəlkə də, sən aparmısan –
Tumarına sarınıb.

Əllərimdə qalan izlərin
Gözümdəki gilənara aşiqdi…
Bəlkə…
Bəlkə, sən də bilmirsən,
O izlər gün başına dolanır
Gilənar dünyamın!

Üzümü silmirəm,
Orada sənə baxan adam yaşayır –
Sən tanımazsan onu,
Güzgülərdən qaçır,
Bir rəngin kəskin tonu
Qucub bədənini.

Yediyim çörəyin dadına,
İçdiyim baxışların andına
Deyil!
Yediyim-içdiyim xəyanətin ağrısına
Qarnımı doyururam.

***
Sən heç
Bir çayın içində
Şüşətək qırılmış arzular görmüsən?
Mən gördüm –
Və o gündən bəri
Suya baxanda
Gözlərim buxarlanır.
Torpaq danışmır,
Udur arzuları qəbir ağzıyla..
Və hər dəfə yer titrəyəndə
O qəbir dağılar,
Min dərdin pıçıltısıyla.
Mən bu gün
Bir dağın beynindəyəm.
Bəli, beynində!
Çünki dağlar düşünür,
Qələmin ucuboyda təpəsində
Və onların fikirləri qayadır –
Qırmaq olmur,
Ancaq dırmanırsan.
Buludları fikrimin içərisində
Paltar kimi sərmişəm.
Günəşə deyil,
Bir sözə quruyurlar –
"qayıtma" deyəndə
Yağış yağır və dağılırlar başımda.
Bax, təbiət danışsaydı,
Səni danışardı mənimlə -
Bir quşun qanad çırpmasında.
Sən deyirsən təbiət nədir?
Təbiət –
əllərinə keçməyən
bir insanın içində
illərlə böyüyən
səssiz vulkandır.

Naxçıvan Dövlət Universitetinin Filologiya ixtisası üzrə II kurs tələbəsi

POEZİYA

RAFİQ TƏHMƏZ

GEDİRƏM

Gecələr ulduzlar axanda gözlə,
Bəlkə, ulduz mənəm, axıb gedirəm.
Şimşəklər səmada çaxanda gözlə,
Bəlkə, şimşək mənəm, çaxıb gedirəm.

Gözlərim yuvasın istəmir daha,
Nə fayda fəryada, nə fayda aha!
Dünyada kim bilir özün ən baha?
Vallah, pulum yoxdur, baxıb gedirəm.

Taleyin quşudur - qəfəsi bağlı,
İnsanın insanla ölçülür ağlı.
Tələnin pendiri süfrədən yağlı,
Əlimi üstümə yaxıb gedirəm...

Mənə nə, zəmanə korlanıb lap da,
Mıxın ki, naldadır, nalın ki, mıxda.
Duxun var axtar tap, duxun var tap da!
Dünyaya bir iynə taxıb gedirəm...

Həyat başladımı, deyirlər: "Bitir?"
Hər gün qatda barmaq, eylədim zikir.
Az qalır, şeytanı aparsın fikir,
Mənə nə, əsas mən çıxıb gedirəm...

FƏLƏKLƏ OYNAMAQ İSTƏMİRƏM MƏN...

Fələklə oynamaq istəmirəm mən,
İstəməm, günahkar sayılım səndə.
Gözdən yaş ələnsin, ümidsiz olum,
Boynumu büküm mən çarxın önündə.

Fələklə oynamaq istəmirəm mən,
İstəməm, günahkar ayrılım səndən.
Neynirəm, cibimdə bir manat yoxsa,
Milyonluq dünyada sıxım əlindən?

Fələklə oynamaq istəmirəm mən,
İstəməm, sən verən ağılı, huşu.
Neynirəm bir loxma çörəyi mənə
Sürüyüb verəsən, deyəsən: "Nuşu..."

Fələklə oynamaq istəmirəm mən,
Sən verən imtahan, yaman qəlizdir.
Deyirsən: "Səhradan su çıxar, gətir",
Seçirsən, bəndəmin hansı əzizdir...

Fələklə oynamaq istəmirəm mən,
Sən məni udanda, şadlıq var, əhsən!
Mən yazıq, ağzımla zər tutub atsam,
Şərləyib deyirsən: "Zər tutursan sən"...

Fələklə oynamaq istəmirəm mən,
Dəvələr karvanı, itlər sürüsü...
Qorxuram, bu oyun əlim gətirsə,
Nərdin "N" hərfinə qalmaz heç üzü...

Fələklə oynamaq istəmirəm mən,
Bir dəfə udmağım uduzmağımdır.
Çətini, yuxudan oyanan zaman
Tapım ki, yatırdan hansı nağıldır...

Bayaqdan yaxşıydı, qorxmurdum səndən,
Dostlaşdıq, elə ki, oldum sənə tən.
Doğrusu, bu gecə yaman qorxuram,
Sənlə oynamaq istəmirəm mən...

İNSAN

Gecələr, gecənin dərinliyində,
Zülmət bir gecəyə qərq olur insan.
Dirsək masa üstə, əl çənəsində,
Baxırsan, çevrilib dərd olur insan.

Namərdlik sözünü vərəqləyəndə,
Namərddən çevrilib mərd olur insan.
O qədər zər atıb, bəxt axtarır ki,
Fələk gərdişində nərd olur insan.

Qərbdən "haycan" səsi haraylayanda,
Heyif ki, həmin vaxt Şərq olur insan.
Qədrini heç bilmir, tənha bir ayın,
Günəş ətrafında bərq olur insan...

Təhməz, qədrini bil, çalış namərdin,
Sanma ki, mərd doğub mərd olur insan.
Baxırsan, özüdür, ya da özgəsi,
Bir bədən, min üz var, pərt olur insan...

YARADIB

Əzrayıl sakit olub, macal güdüb, an yaradıb,
Sən demə, xatirələr qılınc çəkib, qan yaradıb.

Nə zaman ki, demişəm: "Can verərəm cananıma",
Nə zaman dövr eləyib, nə də canım can yaradıb.

Hökmdar zənn edərək tutmuş idi əllərini,
İndi də özgə birin səltənətə xan yaradıb.

Az qalır söyləyəsən: "İndi sən deyən deyiləm",
Toy olub, ailəm olub, Tanrı mənə dan yaradıb.

Güya Allah yaradan bəndəsi çox yaxşı olub?
Yaxşılıq onda qalıb, böhtanı şeytan yaradıb.

İncili, Tövratı çox yaxşı bilib, dərk elədik,
Bəlkə də, səhvlik olub, sonrası Quran yaradıb.

Adəmin alması var, buğdası var, keyf eləyir,
Dünyanı peşkəş edib, dünyanı zindan yaradıb.

Cavida, yaxşı düşün İblisə atma günahı,
Allahın naləsi var, günahkar insan yaradıb.

Gözlərim qan içinə qəltan olub, al görürəm,
Məndə üsyan edirəm, dünyanı al-qan yaradıb.

Təhməzin dünyası da sanki oyuncaq kimidi,
Sol gözü üsyan edib, sağ gözü heyran yaradıb...

OLUR

Sanma ki, ləzzət alıb bayquşu viranlıq olur,
Kül ola buğda kimi, bəndə dəyirmanlıq olur.

Sağ çiyin razılaşıb iblisin əlası ilə,
Sol çiyin yük gətirir insana - bir yanlıq olur.

İndi insan yaradır dövləti də, qiyməti də,
Kimisi quş südüdür, kimləri ayranlıq olur.

Sabirin saqqalı da söhbət edir dövrü ilə,
Nə xeyir, şər atasan, dövrana - insanlıq olur.

Gələcək mədh eləyən, sevgi yazan, alqış alan,
Elə ki, mən yazıram, bunlara nadanlıq olur.

Qardaşıq, qarnımıza düşkün olub millətimiz -
Şimalda bəy plovu, sizdə fisincanlıq olur...

Papağın əyrisi də bildirəcək tez kasıbı...
Birin öz varı əyibdir, biri dövranlıq olur...

Ruhuna bir salavat
"A" əvəzi "B" deyənin,
Qurulur dar ağacı, kəlləsi meydanlıq olur.

Fərqi yox, düz deyəsən, səhv deyəsən, fərqi nədir?
Cəh-cəhi bülbül edir, alqışı bağbanlıq olur.

Qatırıq min zibili min zibilin dərgahına,
Deyirik, sonra günah
bizdə yox, mehmanda olur...

Yerli Rafiq yazacaq, lap pozacaq - xeyri nədir?
Siz axı intelligentsiz, xeyir almanda olur...

Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi

NƏSR

FƏRASƏT BABAZADƏ

QIRMIZI CİLD

Hekayə

Qız səhər saatlarında universitetə yollandı. Küçələr səssiz idi, yalnız uzaqdan maşınların səsi eşidilirdi. Yolun kənarında, bir qoca, boz gödəkçəsinin yaxasını qaldırıb, qara-qara düşüncələrə dalmışdı. Onun yanında yerə səpələnmiş kitablar vardı. Bəziləri köhnə, saralmış vərəqləri ilə çox oxunduğunu göstərirdi, bəziləri isə tərtəmiz, sanki heç toxunulmamışdı. Qız addımlarını yavaşlatdı. O qocanın hansı dərdi vardı görəsən?

Yaxınlaşanda kitabların arasında iri, qırmızı cildli bir kitab diqqətini çəkdi. O, yavaşca kitabın adını oxudu, amma heç nə demədən yerinə qoydu və yoluna davam etdi. Lakin bu qırmızı kitab yaddaşına bir iz salmışdı. Hər səhər keçəndə gözləri həmin kitabı və qocanı axtarırdı. Amma bu baxışlar boş deyildi. Onun içində nə isə qopurdu, qırmızı cildin içində gizlənən naməlum sirr onu çəkirdi.

Bir gün yanında rəfiqəsi ilə eyni yoldan keçərkən, yenə kitabların arasında həmin kitabı gördü və bir anlıq dayandı. Rəfiqəsi onun baxışlarını izləyib astadan soruşdu:

– Sən Yusif müəllimi tanıyırsan?

Qız baxışlarını kitaba dikili saxlaya-saxlaya başını yellədi.

– Yusif əmi köhnə müəllimlərdəndir, – deyə rəfiqəsi davam etdi. – Çox savadlı idi, bir zamanlar tələbələri ona pərəstiş edirdi. Amma indi yaşlanıb, artıq əvvəlki kimi gücü qalmayıb. Ailəsinin maddi vəziyyəti də yaxşı deyil deyirlər... O, ən qiymətli varidatı olan kitablarını satmağa başlayıb.

Qızın gözləri hələ də qırmızı cilddə idi. Onun içində nə vardı? Qoca müəllimin ömründən nələr danışırdı bu kitab?

Sanki yollar davam etsə də, qızın ürəyində nə isə yarımçıq qalmışdı. Bəlkə, bu kitab onun yaddaşında yox, ruhunda iz buraxacaqdı...Günlər bir-birinin kölgəsi kimi ötüb keçirdi. Səhərlər eyni idi, yollar eyni, hətta düşüncələr də... Qız hər gün eyni küçədən keçir, eyni baxışla kitablara nəzər salır və sonra yoluna davam edirdi. Amma indi onun içində fərqli bir pıçıltı vardı: "Qırmızı kitab satılsa, ay sonunda gözlədiyim mükafatı alacağam." Bu fikir artıq beynində sadə bir düşüncə yox, bir hökmə çevrilmişdi.

Qız bu müddət ərzində dayanmadan çalışdı. Gözlərində yorğunluq vardı. Günlər bir-birini əvəz edirdi, lakin onun üçün zamanın anlamı dəyişmişdi. Kitabxananın sakit divarları arasında saatlarla qalır, səhifələrin arasına qərq olurdu.

Bəzən kitabxanadan çıxanda hava artıq qaralmış olurdu. Küçələrdə işıqlar yanır, insanlar evlərinə tələsirdi. Amma o, hələ də beynində vərəqlədiyi kitabların sətrləri ilə addımlayırdı. Bəzən isə otağının dörd divarı arasında gecə yarılarını keçirirdi. Lampa işığında açıq qalan kitablar, üst-üstə yığılmış qeydlər və yorğun gözlər... Ağıldı tək düçüncə: "Qırmızı kitab satılsa, ay sonunda gözlədiyim mükafatı alacağam".

Onun bütün həyatı bir hədəfə – o mükafata yönəlmişdi. Amma o, düşünmürdü... Düşünmürdü ki, bu yolda nəyi qurban verdiyini, hansı hisslərini səssizcə itirdiyini...

Kitabxanadan çıxanda hava artıq qaralmışdı. Küçələrin sakitliyini yalnız yağışın astaca döyəclədiyi səki daşları pozurdu. O, paltosunun yaxasını qaldırıb addımlarını sürətləndirdi. Lakin nəsə qəribə idi. Həmişəki yerdə nə qocanı gördü, nə də yerdə yığılmış kitabları.

Sanki heç olmamışdılar. Sanki bu küçədə heç vaxt bir qoca oturub düşünməmiş, qırmızı cildli kitab heç kimin gözündə diqqət çəkməmişdi. Qızın beynində bir sual fırtına kimi qopdu: Bütün bunlar həqiqətən baş vermişdimi, yoxsa yorğunçuluqdan beyninin ona oynadığı bir oyunun içində itmişdi? O, həqiqətən o kitabın adını oxumuşdu? Həqiqətən həmin qocaya baxıb düşünmüşdü? Yoxsa bunların hamısı onun şüurunun yuxu ilə gerçəklik arasında qurduğu bir xəyal idi?

Ancaq suallar yağış damlaları kimi bir-birinin ardınca düşsə də, cavablar yox idi. Qız onları boş verib yoluna davam etdi. Yağış paltarını isladır, ayaq altındakı daşlardan əks-səda verən addımları özündən uzaqlaşırdı. Bəlkə də hər şey gerçək idi. Bəlkə də heç nə real deyildi.

Otağına çatanda hər şey susdu. Çarpayısına uzanıb tavana baxdı. Gözləri hər hansı bir cavab tapmaq ümidi ilə hərəkətsiz tavana zilləndi. Son gecə idi. Göz qapaqları ağırlaşdı. Zaman səssizcə axdı və o, fərqinə varmadan yuxuya getdi...

Ay sonu gəldi. Konfrans başa çatdı. Siyahıdakı adlar açıqlandı. Tələbələrin üzündə təbəssüm vardı, sevinc içində bir-birlərinə sarılırdılar. Amma o qız... O, nə qazandığını, nə itirdiyini tam anlaya bilmirdi. Əlindəki mükafat kağızı sanki bir zamanlar vacib olan, amma indi əhəmiyyətini itirmiş bir əşya idi.

Günlər yenə keçdi. Küçə eyni idi, amma indi o yolu keçənlərdən heç biri kitabları saymırdı. Hətta qırmızı kitabın olub-olmaması da artıq kimisə maraqlandırmırdı. Daha onun digər kitabların yanında qaldığı müddəti hesablayan yox idi.

Bir gün, bir adam kitablara doğru yaxınlaşdı. O, iri həcimli, köhnə vərəqləri olan qırmızı cildli kitabı əlinə aldı. Barmaqları səthində gəzdi, köhnə vərəqlərin arasında itirilmiş zamanları vərəqləyirmiş kimi. Sonra bir müddət susdu.

Kitabı alıb ödənişi etdikdən sonra onun son səhifəsini açdı. Səhifədə bir cümlə vardı: *"Vəd öncə ümidləri, sonra isə sevgini, hörməti, güvəni öldürər... Sonra öyrənirsən ki, baş verərsə, dözə bilməyəcəyini düşündüyün hər şeyə dözə bilərsən"*.

Adam uzun müddət kitabın son səhifəsinə baxdı. Sonra başını qaldırıb göyə nəzər saldı. Həmin an qızın addımladığı küçədə, səki kənarında, haradasa bir köhnə müəllim nəfəsini dərin alıb yavaşca buraxdı...

Naxçıvan Dövlət Universitetinin Filologiya ixtisası üzrə II kurs tələbəsi

TƏHLİL

SƏDAQƏT BABAYEVA

“KİMYAGƏR”İN MESAJI BİLİRSİNİZMİ NƏDİR?

(Paulo Coelyonun “Kimyagər” romanının təhlili)

Raulo Coelyo tərəfindən qələmə alınmış “Kimyagər” 1988-ci ildə dərc olunmuş fəlsəfi romandır. Əsərin əsas qəhrəmanı Santyaqodur. O, yuxusunda xəzinə tapacağını görür və İspaniyadan Misir piramidalarına qədər uzanan bir səyahətə çıxır. Bir neçə dəfə təkrarlanan eyni yuxu həqiqətən də bir mesaj idi, yoxsa insan beyninin ona oynadığı bir oyun? Bəlkə də, insan ona verilən balaca bir işarənin arxasınca getməli və bu yolda iradəli olmalıdır.

Santyaqo yol boyu bir çox insanla qarşılaşır - köhnə bir kralla, tacirlə, Fatimə adlı bir qızla, kimyagər adlı sirli bir şəxslə... Bu səyahət Santyaqonun özünü dərk etməsində, həyatı anlamasında mühüm rol oynayır.

Əsərdə Santyaqonun başına gələnlərlə insanlara bir çox mesaj verilir. Santyaqo səyahət boyu bir çox çətinliklərlə qarşılaşır, başına bir çox iş gəlir və düşünür ki, buna dəyərdimi? Ağlamağa başlayaraq öz yurdunda qoyunlarının yanında xoşbəxt olduğunu, indi isə o xoşbəxtliyi tapa bilmədiyini deyir. İnsan bəzən ən balaca şeylərlə xoşbəxt olur, bir dağ yamacında qoyun otararkən, küləyin səsini dinləyərkən, Günəşin şəfəqini üzündə hiss edərkən və o zaman anlayır ki, xoşbəxtlik əslində sadəlikdədir.

Santyaqo səyahəti zamanı əlində olan pulunu oğurladır. Həmçinin piramidalara getmək böyük məbləğ tələb edir. Bir büllur dükanında işləyərək pul qazanmağa başlayır. Bu bədbəxt hadisəni unudur. Bəlkə, piramidalara getmək onun üçün uzaq bir şeydir artıq? Amma səyahəti boyu bir çox şey qazanmış, bir çox insan tanımış, dil öyrənmiş, çox şeyi dərk etmişdi. Əlində olan pul ilə əvvəl sahib olduğu sürüdən daha böyüyünə sahib ola bilərdi. Bunun üçün dükanda sadəcə bir müddət artıq işləmək lazım gəlirdi. Əsas nəticə də odur ki, qəhrəman başına gələnlərə baxmayaraq, hadisələrə müsbət tərəfdən yanaşır:

“Bəlkə də, bu qəribə ölkəyə gəlib bir oğru ilə rastlaşmaq və bir qəpik belə xərcləmədən sürüsünü ikiyə qatlamaqdı onun əsl xəzinəsi?”.

Bədbəxtlik içərisində xoşbəxtlik axtarmaq, yağan yağış sonrası çıxan göy qurşağını görməyə bənzər. Hər şey doğru baxış bucağından asılıdır.

İnsan əlindəki ilə kifayətlənməyi bacarmalıdır. Daha çoxunu istəmək xoşbəxtlik yox, bədbəxtlik də gətirə bilər.

Əsər ümumilikdə sətiraltı mənalarla zəngin və insan ruhunu tərbiyə edən bir tərzdə yazılıb. Əsəri oxuyarkən sadəcə bir əsər oxumayacaqsınız, həm də arzuların arxasınca getməyin gücünü kəşf edəcək və bu yolda gözlənilməz sürprizlərlə qarşılaşaraq istəyinizə nail olacaqsınız.

Əsl xəzinə qızılda yox, insanın ruhunda, iradəsində, əməlinə sadiqliyindədir. Əsl xəzinə hər bir insanın qəlbində gizlidir.

Santyaqonun timsalında verilən mesaj da odur ki, əsas məsələ xəzinəyə gedib çatmaq deyil, xəzinəyə gedən yolda öyrəndiyin şeylərdir...

Naxçıvan Dövlət Universitetinin Filologiya ixtisası üzrə II kurs tələbəsi

PUBLİSİSTİKA

RƏFAİL TAĞIZADƏ

SƏNİN Kİ, BU QƏDƏR TƏMİZLİYİN VAR

Musa Yaqubun 80 yaşına bu sətirləri İsmayıllı səfərindən sonra yazmaq istədim. Ucalıqları müqayisə edərək...

İsmayıllının ən hündür ağacları, dağları, sıldırım qayaları da Musa Yaqub əzəmətinin qarşısında kiçik görünürdü.

Buludun Musa Yaqub həsrətinə tökdüyü göz yaşı onun görüşünə gələnlərlə ara verdi. Təbiət daha gözəl görünsün deyə, hava, ağaclar, dağlar yuyulub təmizləndi. Bu təbiəti sevən şairə təbiətin sevgisi idi.

Şairin səsini eşidən ağaclar yarpaq pıçıltısını dayandırdı, dilindən şeirini eşidən şəlalə səsini içinə çəkdi. Bu sevgiyə düzənlər qırmızıya büründü. Banuçiçəklər, Turallar lalələrin arasında itdi.

İsmayıllı hələ belə coşqu görməmişdi. "Qız qalası" sözün sehrinə düşmüşdü.

Təbiət şairin səksən yaşını, onu sevənlər söz bayramını qeyd edirdilər. Bu gün burda göy üzü, təbiət dupduru idi. Musa Yaqubun şeirləri kimi.

Hamı bu duruluğun içində təmizlənirdi. Durulurdu. Ruhlar təzələnirdi. Yeni bir ovqata köklənirdi. Musa Yaqub ovqatına.

Onunla təmasda, ünsiyyətdə olanda elə bilirsən ki, təbiətin qoynundasan. Uca bir ağacın sərin kölgəsindəsən. Qayaya söykənmisən. Təbiət sənlə aram-aram danışır.

Musa Yaqubun dilindən şeir dinləmək ayrı bir xoşbəxtlikdir. Onun ləzzəti tam başqadır. Öz doğmalığıyla. Cazibəsiylə. Səsinin ahəngiylə.

Pıçıldaşan misralar bir anın içində coşur. Bilirsən ki, həmin an dağlara yağış yağır, sel-su, çayın səsi aləmi büyüyüb. Sonra şeir yenə aram-aram, öz axarıyla gedir.

Musa Yaqub yaz havalı şairdi. Hərdən payıza, yarpaqların rəngarəng çalarlarına köklənsə belə.

Tez-tez tənhalığa çəkilsə də, cəmiyyət adamıdır. Sözü kimi özü də adamları özünə çəkir. Başına yığır. Başına yığılırlar. Arı pətəyə yığılan kimi. O, gəlişiylə məclisə yeni bir ovqat, yeni ruh gətirir.

Sözləri ürəyə yatan şairin özü də sözü kimidi.

Sözü kimi özü üçün də darıxırsan. Onunçün darıxmamaq olmur. “Öyrətmə özünə, öyrətmə məni”, - deyən şair, hamını özü üşün darıxdırır:

Bəlkə, gözləmirdik bu xoş görüşü,
Yaman qəribədir dünyanın işi;
Heç vaxt yollarında dayanmadığın,
Heç həndəvərində dolanmadığın
Gəlib birdən sənə nə şirin olur!

Onun sevgisi də özü kimi safdır. O, bu yaşda da tərtəmizdir. Hissləri, duyğuları, sözü ilə, özü ilə bir mənəviyyat, əxlaq adamıdır, yəni budur Musa Yaqub:

Tək bənövşə bitib lap yaxınında,
Mənə deyəcəyin gizli sözündü –
Xırda ləçəklərlə titrəyir səsin.
Atam da, anam da yatır yanında,
Necə danışaq ki, eşidilməsin.

Musa Yaqub təbiətin özü, bir parçası olmaqla bərabər, həm də həyatın özüdür. Onun reallıqları ilə birlikdə. Hər şeyin təbii düzənini sevən şairin azadlıq istəyi sonsuzdur:

Azadlıq nə gəzir bu yer üzündə,
Azadlıq gəzirəm elə özüm də.
... Qartal caynağında quş azad deyil,
Saray divarında daş azad deyil.
Nə qədər qurd ağzı, şir pəncəsi var,
Cüyürlər qıçını qatlaya bilməz.
Azadlıq nə gəzir bu yer üzündə.

Musa Yaqubun şeirlərini yayın istisində aranda oxuyanda, dinləyəndə elə bilirsən ki, dağın döşündə, meşənin dərinliyində, sakit bir çayın kənarında dayanmısan. Suyun səsini eşidirsən...

Şeirlərində təbiət adamın gözündə canlanır. O yola düşüb, nəinki sevdiyi bulağı, onun sevdiyi bütün ağacların içində o dediyi yarpağı tapa bilirsən.

İsmayıllı dağları, meşələri, qayaları, daşları Musa Yaqub üçün insanlardan daha çox darıxır. Vəsf olunmaq üçün. Yenidən sevilmək üçün.

O, təbiəti elə təsvir, elə tərənnüm edir ki, təbiət qayıdıb özü-özünə vurulur.

Təbiətin göyərməyən qara daşına, özü-özü ilə sakitcə danışan gecəsinə, ağacına, dağına, adamına yazdığı şeirlər vurğunluq nümunəsidir.

Sən Allah, bu gülün keyfinə dəymə,
Çevirmə üzünü qüruba sarı.
... Bu qızılgüllərdən mənə qanad hör,
Sən Allah, bu gülü yasa aparma.

Gülə ancaq Musa Yaqub belə yanaşa bilər.

Səsiylə, sözüylə, baxışıyla təbiəti canlandıran, insanlara yeni ruh, yaşam həvəsi verən, həyatı, dünyanı şeiri kimi nizama səsləyən, sevgilər içində, əhatəsində olan Musa Yaqubun ömrü təbiətin ömrü qədərdir.

DEYİMLƏR



HACI ƏVƏZ ABDULLAYEV

Yaşamaq, yaşatmaq, sevmək, sevilmək Allah-təalanın insanlara bəxş elədiyi ən ümdə qismətlərdir, lakin bəşəriyyət bu keyfiyyətlərin çatışmazlığından əziyyət çəkir.

***

İnsanlara can sağlığı yox, salamatlıq arzulamaq lazımdır: a) sağdır – səhhəti pis olsa da, hələ yaşayır, b) salamatdır, deməli, bütövdür, daxili və xarici əzaları funksionaldır, səhhəti normaldır.

***

Cəmiyyətdə əsl alim sayılan təklikdə gərək özünü avam saysın.

***

Həyata ağlın gözü ilə, ürəyə ağlın hökmü ilə.

***

Adam var ki, bir otaq dolu kitabı var, lakin insan kimi son dərəcə keyfiyyətsizdir.

***

Səmərəli pul xərcləmək, elə ən çox xərcləməkdir.

***

İnsanın fəaliyyətində bacarmadığı bütün işləri onun əvəzinə başqaları görə bilər, üzməkdən başqa.

***

İnsan əməyini iki məqsədə sərf edir: mənəviyyatını təmin etməyə və maddiyyatını qazanmağa.

***

Kişinin ömür-gün yoldaşı onun üçün çoxdur, məhz ona görə onun gözü azı axtarır.

***

Zaman keçərkən nə qədər uzun görünsə də, keçmiş zaman dəfələrlə qısa görünür.

***

Müharibədə döyüşdən sonra insan ölən yoldaşlarına nə qədər acısa da, ağrısa da, sağ qalmağına sevinir və Allah-təalaya şükürlər edir.

***

Hökumətin qanunlarının 70-80 faizi cəmiyyətin aşağı təbəqəsinə, 10-20 faizi orta təbəqəyə şamil olunur.

***

İnsanın ən ali, ən ülvi saydığı şey öz xarakteridir.

***

Bu dünyanın ən ağır faciəsi uşaqlıq və qocalıq yetimliyidir. Uşaqlıq yetimliyi anadan, qocalıq yetimliyi ömür-gün yoldaşından olur. Qocalıq yetimliyi daha böyük faciədir.

***

Kamilliyə çatmaq üçün bir insan ömrü bəs eləmir.

***

Kiçikliyi bacarmaq böyüklükdür. Böyüklüyü bacarmaq isə dahilikdir!

***

Sevgi məhəbbətin ali ifadəsidir, lakin taleyin hökmündən asılı olaraq müvəqqəti və daimi olur.

***

İnsan - ən vəhşi, yırtıcı, nankor sirlər xəzinəsi.

***

Şəhvət bütün canlılar aləminə, o cümlədən insanlara da mənsubdur ki, bu da heyvani hisslərin təzahürüdür.

***

Dünya bir körpüdür, insan bir tərəfdən girir, üstündə heç zaman bərqərar olmur, o biri sahilə çatır, körpü qalır növbəti insanlar üçün.

***

Dünya mehmanxanaya bənzəyir: biri qalır, boşaldır növbəti gələn üçün.

***

Dünya gəzəyən gözələ bənzəyir: bir müddət birinə, sonra başqasına mənsub olur.

***

Kəfənin cibi olmur.

***

Bu dünya sanki hərəyə müxtəlif şəraitli dustaqxanadır.

***

Bütün insanlar səlahiyyətlərindən, imkanlarından asılı olmayaraq düşdüyü şəraitdə xameleondurlar (buqələmun).

***

Dünyamı dəyişməklə heç şeyə heyfslənmərəm, xalqımızın milli-mənəvi dəyəri musiqi səsindən ayrılmaqdan başqa.

***

Ağıl-kamal var-dövlətdən qiymətlidir. Ağıl-kamalla var-dövlət qazanmaq olar, əksinə, heç cür.

***

İnsan əzalərını nəyə tərbiyə etsə, ona da nail olacaq. Ən əsası dilin tərbiyəsidir. Onu gözəl danışmağa, yaxud yalançılığa öyrətsən, o cür də nəticəsini görərsən.

***

Dünya siyasətində insan tələfatı sonuncu məsələdir.

***

İnsan həyatında ən yüngül cəza ölümdür, ən ağırı isə ölümqabağı ömür.

***

Allah-təala insanları ali şüurlu yaratmaqla onların özlərinə bəla bəxş edib.

***

İnsan ömrü sanki Günəş kimidir: cavanlıqda şərqdən, qocalıqda qərbdən görünər.

***

Cavanlığın qocalmaq ümidi var, qocalığın isə ölümdən uzaqlaşmaq.

***

Kişinin ömür-gün yoldaşına xoş münasibəti övlad üçün ən yaxşı tərbiyədir.

***

Yalan danışmaq həqiqəti oğurlamaqdır.

***

Ölü kimi yaşamaqdansa, sağlam ölmək yaxşıdır.

***

Yaxşılığın növü və sayı çoxdur, lakin qədəri və ölçüsü yoxdur. O, həmişə böyükdür.

***

“Sağ qalmaq”, “ölmək” məfhumları canlı məxluqa aiddir. “Vətən sağ olsun!” yox, “Vətən var olsun!” deyilsə, daha düzgün olar.

***

Hər hansı bir şeyini itirməsinə görə insan çox heyfslənir, ömürdən gedən dəqiqələrə görə isə biganə qalır.

***

Sevilərək sevib evlənmək hər adama qismət olmur. Məhz buna görə sevimli qadını itirmək daha ağırdı, nəinki doğma insanı. Çünki doğmaları sən seçmirsən, sevgilini isə özün seçirsən.

***

İnsanı idarə edən daxili aləmin ən ümdə amili ağıl ilə vicdanın vəhdətidir. Bunlardan hər hansı biri pozulduqda, o, əxlaqsız, tərbiyəsiz və ya cinayətkar olur.

***

Xalqın mədəniyyətini, intellektual səviyyəsini, demokratiyanı aşağıdakı amillər təyin edir: qanun, alim, hakim, həkim, müəllim.

***

İnsanın yaşından asılı olmayaraq, hər hansı bir əqli, fiziki işlə məşğul olmaması faciədir.

***

Ağılsızlığını dərk edən adam ağıllıdır.

***

Cavanlıq xudahafizləşməmiş gedir, qocalıq salamsız-kəlamsız gəlir və heç yerə getmir.

***

Həyat hər hansısa ağır xəstəlikdən sağalan adam üçün daha şirin olur. Hər hansısa xəstəlikdən sağalan adamın bir günü sağlam ömrünün 10 gününə (bəlkə də çox) dəyər.

***

Əgər insan hər hansı bir tərzdə elədiyi səhvlərə, hərəkətlərə, münasibətlərə görə sonralar peşmandırsa, hələ tam tərbiyəsiz, qanacaqsız deyil.

***

Kimi ölmək üçün ölür, kimi yaşamaq üçün. Yaşamaq üçün ölənlər həyatda çox azdır.

***

“Bir yandan boşalır, bir yandan dolur”, insanlar arasında da münasibətlər belə olur. Zaman, məkan, səlahiyyət, mənəvi, maddi asılılıq, maddi imkan, yaşamaq xatirinə münasibətlər də belədir. Qorunub saxlanılana dostluq deyilir.

***

Elm insana bəlli olan və olmayan, bütün aləmin və varlığın qayda-qanunlarını araşdıran insan məfkurəsinin məhsuludur.

***

Sözübütöv olmaq kişiliyin birinci şərtidir, ona yüksək etibar qazandıran amildir.

***

Adətən görən adam yolunu azır, kor adam isə doğru yolunu heç vaxt səhv salmır.

***

İnsanlıq ikidir – adı insan, özü insan.

***

Vətəni, torpağı sevən insanlar yaşayıb ölən yox, ölüb yaşayanlardır.

***

Ömür uzandıqca illər qısalır,
Sürətlər artdıqca yollar qısalır.
İnsan qocaldıqca dərd-qəm çoxalır.
Zəmanə döndükcə bəşəriyyət də Nizami, Füzuli, Səməd, Üzeyir, Bəxtiyar yetişdirə bilmir.

ESSE

SAFRUH ATALI

BİR DOĞMAM VARMIŞ...

(“Uzaq” Balakən rayonunun Qamıştala kəndində bir xeyirxahım, məndən 17 yaş kiçik əkiztayım varmış! Vaqif Osmanlının 2016-cı ildə “Elm və Təhsil” nəşriyyatı tərəfindən buraxılmış “Oxunan dualar” kitabı əsasında içsəs (esse)

“Yer üzündə cismani doğmalar (doğuluşlar) azalacaq - qorxulu hədlərə qədər” - deyirəm. Ürəyimdən keçir ki, keşkə bunun yerini, az da olsa, ruhsal doğmalar tutaydı! Sonra içtelə (məntiqə) qayıtmalı oluram: Səbəb tapılsa - tutar...

Məncə, hər bir itkinin öz səbəbi olur. Məsələn, kitaba marağın azalması, Yurda, Ulusa sevginin, hətta bağlılığın soyuması... Eləcə də hər bir tapıntı, atılmışa, itirilmişə qayıdış səbəbə bağlıdır.

Ali baş səbəb nədir? İnsanın nəcib yaşamı. 1970-ci illərdə yazdığım bir şeirdən yadımda qalmış misralardır:

Mən olmayan yerdə mənim adımı
Bədxah ağızlardan saldıranlara
Mən nə borcluyam?!

Böyük, güclü sevinc duymaq, duya bilmək; körpə insan (kimi) ola bilmək, yıpranışdan silkinib çıxmaq... Bunlara gərəklik duymaq bizi 1-1-ləşməyə, yavaş və məşhurluqsuz yaşamağa (bunu bacarmağa çağırır. Bunlar isə xalq olaraq özinamlığa və yönlərin (qiblələrin) dəyişməsinə çağırır. Dünya beləcə içdən yenilənməlidir.

Vaqif Osmanlının “Oxunan dualar” kitabında Safruhun “Yeni Oğuz Sözü” kitabına münasibəti o Dəyişilmə-əvəzləmə - **əsllləşmə-körpələşmə** yönündə olmuşdur - bunun fərqinə varmadan! Və əslində burada kitabın kitaba yox, şəxsin **(tanımadığı)** şəxsə münasibətindən danışmaq olar - yuxarıdakı misralarda deyildiyi yöndə. Bu münasibətdə cəmiyyət boyası, dünyəvi mülahizəçilik olmamışdır. O qədər gözəldir!

“Oxunan dualar”dakı Safruh “obrazı” Vaqif bəyin öz yaratdığıdır, o həm də onun öz portretidir - “avtoportreti”. Mənə də doğmadır və olduqca xoşdur! Mən də yəqin ki, onun o

haqsevər, Yurdçu, Ulusçu, səmimi, məsum və görücü varlığından güc alıb o cür düşünmüşəm, o varsayımdan (ehtimaldan) güc almışam - mən də eynən onun kimi "fərqinə varmadan!" Vaqif bəyin bəyəndiyi deyimlərimdə.

Vaqif bəyin "Dualar"ından duaçının bilik aclığı, çırpıntısı, bilik eşqi, bilik yanğısı mənə tanış və doğmadır. "Baş daşıma "bilmək istəyirəm!" yazılmayacaqsa, daş başıma!" deyimi var "Yeni Oğuz Sözü"ndə...

"Dualar"ı oxuduqca burada adı çəkilən, əsərlərindən alıntılar verilmiş görkəmlilərin adlarını mən bir 12 vərəqli yazılığa (dəftərə) qeyd eləmişəm nədənsə. Yalnız adlar altı səhifədən çox yer tutub! Dünyanın hər yanından, elmin, ədəbiyyatın, fəlsəfənin, tarixin hər çağından yaradıcılara sevgimiz, sayğımız çatıb! Hamıya, hər yana vurulmuşuq! Doğmalıq idrakımız, doğmalıq ummağımız, yalvarışımız, inamımız-inanmağımız Yer üzünün bütün zaman və məkanlarını "Dualar"ımızda birləşdirib! Safruh adı "Dualar"ı başdan ayağa müşayiət eləyir. Vaqif bəy, mən də sənin duaçınam!

Adlarını böyük şövqlə, səcdə duyğusu ilə çəkdiklərinin özləri ilə şəxsi tanışlığın olsaydı, mənim düşüncəmə görə, onların ya çoxunun, ya da "bir çoxunun" adını "Dualar"dan pozardın. Nə etməli! Sevdiyimiz hər kəsi canlı təmasda tanımaq imkanımız yoxdur. Sözə sığınmağa məcburuq çox hallarda; sözün əsasında kimlər üçünsə söz yaratmağa... Yaxşı tanıdığımız bir nəfər sənin barəndə mənə aylar öncə danışmışdı, "Vaqiflə birlikdə İnam Evinə gələcəyik" demişdi. Aylar ötüb, ancaq mən Qamıştalalı doğmamı hələ görməmişəm. Bunun səbəbi, məni şəxsən tanıyanların dilindən Safruh haqqında səni təəssüfləndirən mətləblər eşitməyin və mənim adımı o görkəmlilər kəhkəşanından silmək istəyin də ola bilər. Mən bundan təəssüflənərəm, amma "Oxunan dualar"da bulduğum doğmamı atmaram. Çünki məncə (və "Dualar"ın etikasına, estetikasına əsasən deyə bilərəm ki, səncə də) indi dünyaya kitabdan, kitabçıdan çox, ruhsal insan gərəkdir. **Mən sənin "Dualar"ında kitab obrazından çox, insan ruhu gördüm - yazarın simpatiya və antipatiyasında (əsasən simpatiyalarında). Bir kitabda bu qədər ad çəkmək xoşluqla, heyranlıqla!..**

İstedadlar və pərəstişkarlar mövzusu var - deyəsən estetikada (sənət nəzəriyyəsində). Orada bizim kimilər pərəstişkarlar sayılırlar. Ancaq "istedadlardan" elələri olur ki, pərəstişkarların tapıntısını mənimsəyir, adını isə çəkmir. Başmaqçıyam - bilirəm bunu. Bizim istedadımızın adı - İnsanilikdir, gerçəkdəki İnsanilik. "Oxunan dualar"ı (və onun yazarını) mənə sevdirən bu oldu. Kitab var - istedadı nişan verir, kitab da var - İnsanı. İstedadı nişan verənlər İnsanı nişan verənlərdən sayagəlməz dərəcədə çoxdur. Ona görə də bol (bol-bol!) istedadlı və kitablı dünyada İnsanlığın işi baş-ayaq gedir.

Bizim yazarlıq talelərimiz də bir-birinə çox oxşayır, ailələrimizdəki böyük qardaş mövqelərimiz də; Dünyaya, Yaşama, İnsana, Yurda, Ulusa, Sənətə, İdraka, Gözəlliklərə baxışlarımız da. Ancaq sənin elmə, sənətə baxışın daha verimli olub, daha zəngindir. Atalar sözləri, yer adları, bəzi təbiət hadisə və təzahürləri ilə bağlı yazı və araşdırmalarının bilimsəl dəyəri də var (bədii-publisistik dəyərlə yanaşı). "Dualar"ında 62 səhifə yer tutan (252-314) deyimlərin də mənim deyimçiliyimlə doğmacasına səsləşir. Mənim də bir az şairliyim olub. (Mən "şair olan"la "şairliyi olan"ı fərqləndirirəm).

..."Uzaq" Balakəndən olan Doğmamla oxşarlığımız dediklərimdən də çoxdur. Ancaq fərqimiz də var. Mən İnam Ata adlı türk Peyğəmbərinini zəka-inanc birliyi üzərində yaratdığı Mütləqə İnam adlı yeni dünyabaxışın daşıyıcısı, yolçusu və yaşadıcısıyam. Səni bilmirəm.

Mənim inamım, inancım (vicdanım) "İnsanlaşın – İnsanlaşdırın!" harayına əsaslandığı üçün Doğmalarımın yaşayacağına inanıram!

Keşkə bu Doğmalıq iş birliyinə çevriləydi!

Atamız var olsun!

29 Od - 01 Yağış ayları, 40-cı il
(29 iyul - 01 noyabr 2018-ci il)
Atakənd. İnam Evi

UŞAQ DİLİ
(İçsəs)

Bu içsəs "İnsanilik daxılı"mın incilərindən birinə – Osmanlı Vaqif bəyə həsr olunur.

Ey sevgilim, ey incəm, ey bircəm - ilkim və sonum! Sən həm hamı kimisən, həm təkcəsən, bənzərsizsən! Buna görə də mən sənlə həm bilgə və bilgin oldum, həm zəngin və ağgün!

***

Yunanı millət-möcüzə (ən gözəl) sayıram, ancaq nədənsə Latını daha uca görürəm. Və yenə nədənsə Latına qanım qaynayır. Bəlkə onu Yunandan daha ciddiyyətli saydığıma görə.

***

Başlanğıcla zirvə arasındakı fərq, başlanğıcını özündə yaşadan zirvə kövrəldir məni! Dünyaca ünlü, ölməz müğənni Bülbül Şuşada doğulduğu daxmaya baş çəkməyə gəlmişdi...

***

Uşaq dili - yalan nədir bilməyən, yalnız doğrunu "bilən". Buna görə də tanrısal (yəni tamam doğal). İlsıra (tarix), irq, coğrafiya bilməyən, yalnız ilk qaynaq bilən (yəni görən, eşidən)... Mən öz yazılarımın bu qəbildən olduğunu düşünürəm və Dünyadan nələriysə öyrəndikcə, yəni onların varlığından soraq tutduqca, bu qənaətin üstündə daha inamla dayanıram.

***

Bir ölümsüzlük bulmaq (kəşf etmək) olar - onun nəyə yarayacağını bilsən. "Ölümsüzlük - ulusumun zərrəsi olan balam". Başqa ölümsüzlük axtarışı darıxdırıcı yararsızlıqdır, aldanışdır.

***

Öz`ün Öz axtarışı - uşağın bildiyi. Ən çox inandığım, sevdiyim, güvəndiyim, olmaq istədiyim.

Öz`ə irfan qatmamalı! İrfanda qarşılaşdırma var (müqayisə var), seçmə var; bunda yanlış, yanılma, yalan ola bilər.

***

Məni də özlərindən sayan əyanili-qiyabili Ocaq Evladlarına önərim: Cansağlığınızı qoruyun, onu Ocağın sərvəti sayın. Sizin cansağlığınız da Türk etnosunun İnamsal-Ruhsal müstəqilliyinə xidmət edən sərvətdir.

***

Biz Şəxs və İnam yaratmaqla özinamlı xalq yaranması ideyasına xidmət edirik. Aydındır ki, bizim əsərlərimizin arasında (və sırasında) yaradıb təsbit etdiyimiz (və "Pir!" deyib tutduğumuz) şəxslər də olmalıdır.

***

Elə sözlər ("quruca sözlər") var ki, mən onlarla qarşılaşmaqdan qorxur, iyrənir və gözləksizləşirəm (ümidsizləşirəm): əsir ticarəti, insan (və qadın...) alveri, orqan köçürülməsi (hətta qaçaqmalçılığı!), yalnız hərbi güc sayəsində ölkə müstəqilliyi...

***

Bu gedişlə insan paradiqmadan (nümunə, model) çıxarılmalı olacaq. Yerinə qoymağa şıltağımıza uyğun başqa bir varlıq tapsaq, insanı elə bu gün oradan çıxardarıq - bu dərəcədə yadlaşmışıq əslimizə.

***

Onda da başqa soru çıxır qarşıya: İnsan üzərində bu oyunları ("manipulyasiyaları") aparan varlığın (və ya qüvvənin) adı nədir?

***

İnsanın-insanlığın "gəlişmə dinamikası" məni elə ürküdür ki, yalnız gələcəyimdən yox, keçmişimdən də nigaran oluram.

***

İmperiya ölür, yığışıb onu gömürlər, o yenə də dirilir - yəni xortlayır. Humanitariya (İnsanlıq) ölür, daha dirilmir.

***

Yəqin ona görə ki, ölən imperiyaya yas saxlayanlar onun xiffətini çəkirlər, Humanitariya öləndə isə yas yerində vaysınanlar Üç, Yeddi, Qırx, ən uzağı İl təziyəsindən sonra dərin bir soluq dərib bu ağır yükdən qurtulmaq sevincini yaşayırlar.

***

İnsana İnam Ata tərifinin neqativi: Dörd cəhətin dördündə də şaşırdıcı bacarıqları olan bəlirsiz ikiayaqlı canlı növü.

***

Həm insanın-insanlığın gələcəyinə gözləksizəm (ümidsizəm), həm də deyimçiliyimi sürdürürəm...

***

Çünki neqativin çox yaxın məsafələrdən atdığı güllələrdən ölmüş olsam da, pozitivdən duyduğum coşqunu unuda bilmirəm.

***

Öyünmək nə deməkdir? Öz zorunu-zorakılığını öyməkmi? Örnəyin, Konstantinopolun 1453-ildəki (və ya nə vaxtsa) fəthi ilə mən öyünməliyəmmi? Bəs "Atakənd" deyə öydüyüm, öpüb gözüm üstünə qoyduğum Bakı şəhərinin 1796 və başqa illərdəki fəthi - işğalı necolsun?! 24.II.2022-də başlanmış Rusiyanın Ukrayna işğalı fonunda, 07.X.2023-də başlanmış İsrail - Həmas (və ya Fələstin) sevişməsi fonunda...

***

Öyünmənin ümumbəşəri bir izahı - əsası olmalıdır. Örnəyin, 15 iyun 2021-ilsıralı Şuşa Bəyannaməsi ilə mən öyünürəm, çünki...

***

Bu günün müttəfiqləri bir-birinə özlərinin potensial öldürücüsü (qatili, düşməni) kimi baxırlar. Mütləqə İnamçılar belələrini insan saymırlar.

***

"Allah qatındakı assı üçün (xeyir üçün) mən nə edə bilərəm?" Özünü hünərlilərdən sayan hər bir kişi (insan) bunu özündən soruşmalıdır.

***

Bunun üçün assının (xeyirin) nələrdən oluşduğu dahiyanə bir yığcamlıq və dolğunluqla dəqiq bəlirlənməlidir.

***

Mən öz yanımdan deyirəm ki, "Allah qatı" əlçatmaz uzaqlarda, dibsiz dərinlərdə, gözişləməz ənginlərdə deyil, insanların arasındadır, bəlkə də hər insanın qəlbindədir.

***

Qəlblər də dahiyanə maarifləndirilməlidir.

***

Rəqiblik (rəqabət) - düşmənliyin bir növüdür; "onsuz gəlişmə olmur" deyirlər. Belə çıxır ki, düşmənlik mütləqdir, insanlıq (ruhsalllıq) - kəsintilidir (nisbidir)? Bəs nədən düşmənliyi öymürük (ən azı, öz adıyla öymürük)?

***

Bəlkə, rəqabət düşmənliyin növü deyil? Axı xalq da belə deyir: " Qonşu qonşuya baxar..."

***

Biclik bolluğunda, acgözlük, kefə düşkünlük bolluğunda yaşamaqdan iyrənir adam...

***

Bic elə bilir ki, düz onun əlinin əyriliyini görmür. Və bir də bic elə bilir ki düz onun əlini basıb düzəldə bilməz.

***

Düzü bu əməldən çəkindirən isə bicin çıxaracağı fəryadlardır.

***

Suç kökünün doğadan gəlməsi suçlunu duruya çıxarırmı - doğada tülkü də var axı; biclə yanaşı, yırtıcı da var axı?

***

Məncə tülkülüyü olmayan yırtıcı yoxdur - nə doğada, nə toplumda.

***

...Hərəsi bir kitab qaralayıb ortaya atdı, yəni ki, Safruhu ötdü, Ataya çatdı.

***

Atadan o yana Bir Kəs görsəydilər, olduğunu bilsəydilər, Atanı da ötərdilər. Ereyimiz (məqsədimiz, yetincimiz) rəqabət deyildimi?!

***

Mənim qınağım və öygüm nə kişiyə yönəlikdir, nə qadına yönəlik; bu hallarımı çağıran şəxslərə və məqamlara yönəlikdir.

***

Yaxşı çox deyil, yox da deyil, ancaq artmır. Yaman çoxdur, həm də artır. Qorxudan, ürküdən, SOS çağırtdıran budur.

***

... Ata qarşısında (və öz qarşımda) mənim borcum düz olmaqdır – yaxşıya da, yamana da, özə də, özgəyə də.

Atamız var olsun!

Yağış və Sərt ayları, 45
(Noyabr - dekabr 2023)
Atakənd. İnam Evi

TƏHLİL

ALİMCAN DÖVLƏTOV

İctimai-mənəvi tədqiqatlar institutunun direktoru, filologiya elmləri doktoru, professor

HƏZRƏT NƏVAİ VƏ HƏZRƏT NƏQŞİBƏNDİN NƏBİRƏSİ[1]

Həzrət Nəvaidən güc alan alim

Ulu ustadlar elmindən və mərifətindən bəhrələnmək bəxtini nəsib etdiyinə görə taleyimdən minnətdaram. Elm və həyat yollarında mənə yol göstərən və əsl müəllimlik edən işıqlı insanlardan biri prof. Müslihiddin Mühiddinovdur. “Hətta ağacdan bir yarpaq da Allahın izni olmadan yerə düşməz” – deyirlər. Həqiqətən də, bu dünyada təsadüflər olmur. Təkrarsız təfəkkür, həssas ürək və misilsiz mədəniyyət sahibi olan bir ustada şagird olmaq, böyük bir insanın dövrdaşı və dövrədaşı ola bilməyin zəminindəki hikmətin səbəblərini, sirlərini müdam dərk və təsəvvür etməyə can atıram.

Mötəbər və mübarək silsilə

Prof. Müslihiddin Mühiddinov nəqişlbəndilik təriqətinə mənsub mötəbər silsilənin altın həlqələrindən biri hesablanan qutluğ bir ailədə dünyaya göz açıb. Ustadın əcdadları əsrlər boyu təriqət başçısı, təsəvvüf yolçusu məqamında el-ulsun mərifətinə, din və dəyanətinə məsul olmuşlar. Xüsusən, Vəlixan eşan XIX əsrin axırları – XX əsrin əvvəllərində Türküstan elinə mənəvi rəhbərlik missiyasını yerinə yetirmişdir. O mübarək zatın vəfatından sonra bu müqəddəs əmanəti – mürşidlik məsuliyyətini sevimli övladı Mühiddinxan öz boynuna götürmüşdür.

[1] Nəbirə - qədim türk dilində nəvə deməkdir.

Türküstan “qırmızı”ların ixtiyarına keçəndən sonra əsrlər boyu islam dininin qüvvəti və şöhrəti olmuş Buxaradakı elm və ədəb əhlinin bir hissəsi ölkəni tərk etməyə məcbur olmuşlar, başqa bir qismi isə yaxşı və nurlu günlər qayıdışına ümid bağlayıb Səmərqənd vilayətindəki Urqut diyarına köç eyləmişlər. Mübariz və yenilməz elm-din fədailəri Uruqutun Çarçinar məvzesində Mühiddinxan eşan başçılığında yaradılan “Mədrəsəyi-çobin”də tələbələr islam mərifətinə əsaslanan elmlərin təlim və tədrisini davam etdirmişlər.

Qədim Türküstanı işğal etmiş çar imperiyası da, onun varisi olan bolşevik rejimi də ölkəmizdəki islami mərifət məşəlini var gücləri ilə söndürməyə çalışmaları, xüsusən, din alimlərini, mərifət və təriqət başçılarını təqib-təzyiqlərə məruz qoymaları hamıya məlumdur. Bütün bunlara baxmayaraq bu işıqlı insanlar uzun dövrlər ərzində xalqa dan ulduzu kimi yol göstərib, onu cəhalətdən mərifətə, istibdaddan hürriyyətə, zülmətdən nura dəvət etdilər. Sovet hökuməti xalq içərisində hörməti və nüfuzu son dərəcə yüksək olan Mühiddinxan eşandan müridləri ilə bir yerdə islam mərifəti və irfani elmlərin tədris edilməsini dayandırmağı tələb etdi. Öz dövrünün “şeyxi-cahan”ı kimi şöhrətlənmiş, irfani və mərifət elmlərinin kamil bilicisi olan Mühiddinxan eşan inancsız cəmiyyət Allah-taala tərəfindən Türküstan mömin-müsəlmanlarına bir sınaq olaraq göndərilmiş dəhşətli bəla, qaçılmaz qismət olduğunu dərindən anlayaraq, həm də günahsız qanlar tökülməsin deyə bu ağır şərtləri qəbul etməyə məcbur olur. Beləliklə, Mühiddinxan eşan vəziyyətin çıxılmazlığını nəzərə alaraq 1928-ci ildə Əfqanıstandan keçərək Həcc səfərinə yola düşür. 1930-cu idə Mədinəyi-Münəvvərədə vafat edir, Sərvəri-Kainat şəhərində əbədiyyətə qovuşur.

Təriqət əhli həmişə el-ulusa həqiqət və mərifət nurlarını bəxş etməyi özünün mənəvi və həyati amalı sayır. Atasından sonra mübarək nəqşbəndilər sülaləsinin və silsiləsinin varisi olan Qütbiddinxan eşan qamçısından qan daman quruluşun zülmlərinə baxmayaraq, nəqşbəndilər çırağını yandırıb, öz zamandaşları mənəviyyatını işıqlandırmaq niyyəti ilə dini-irfani fəaliyyətini davam etdirir. Dürlü zülm və zillətlər, həbs və qadağalar, fasiləsiz təqib və təzyiqlər də bu mübariz insanı öz mübarək və müqəddəs yolundan qaytara bilmir.

Əzəldən həqiqi mərifət və təriqət başçıları həm dini, həm də dünyəvi elmləri dərindən bilən, hərtərəfli mənimsəmiş kamil şəxslər olmuşlar. Qütbiddinxan eşan Mühiddinxanov da dünyəvi və dini elmləri mükəmməl şəkildə əxz etmiş fazil və zəki bir zat idi. Məhz elə bu səbəbdən də Qütbiddinxan eşan Mühiddinxanov uzun müddət Özbəkistan Elmlər Akademiyasının Dil və Ədəbiyyat İnstitutunda səmərəli şəkildə mənəvi-elmi yaradıcılıqla məşğul olmuş, Əlişir Nəvai əsərlərinin izahlı lüğətinin yaradılması işinə, ümumən, klassik ədəbiyyat lüğətşünaslığının inkişafına böyük töhfələr vermişdir. Qütbiddinxan eşan Mühiddinxanovun Daşkəndin Sağban məhəlləsindəki evi elm-irfan ocağı olmuş, akademik və xalq şairi Qafur Qulamdan tutmuş gözəl nəvaişünas alim Parsaxan Şəmsiyevə qədər o dövrün bir çox alimləri və sənətkarları bu mübarək və müqəddəs ocağın qonaqları olmuşlar.

Tarixin və zamanın öncülləri

Professor Müslihiddin Mühiddinov bax belə bir mübarək və mötəbər ailədə doğulub boya-başa çatmış, alim və arif atasından mükəmməl təlim və tərbiyə almışdır. Müqəddəs dinimiz ehkamlarına görə, əsl möminin öz nəsli-nəsəbi ilə fəxr etməyi məqsədə müvafiq görülmür. Amma təkəbbür və özünü başqalardan üstün qoymağa can atmaq kimi mənəvi mərəzlərdən uzaq olaraq onu əminliklə söyləyə bilərik ki, ustad Müslihiddin Mühiddinov bütün həyat yolu ərzində bu ulu silsiləyə həmişə layiq olmuş, elm və mərifət çırağını bütün varlığı ilə söndürməməyə çalışmışdır.

Bəhavəddin Nəqşbənd "Yolumuz – söhbət yoludur", - deyə lütf etmişdi. Müslihiddin müəllim də o dövrlərdə heç bir universitetdə tədris olunmayan təsəvvüf, irfan, mümtaz ədəbiyyat sirlərinə ilk dəfə doğma atasının elmi-mərifi məclislərində aşina olmuşdu. Həmin söhbətlər nəticəsində qəlbində söz sənətinə qarşı peyda olan köz kimi məhəbbət sonralar əsl məşələ çevrildi. Elə bu səbəbə görə də ustadın öz ömrünü mümtaz ədəbiyyata, o cümlədən təsəvvüfün tədqiqinə həsr etməsi təsadüfi deyil. Bizcə, qədim və mötəbər nəqşbəndilər silsiləsinin özünəməxsus bir həlqəsi olan ustad bu müqəddəs ənənəni elm və mərifətə ürəkdən bağlanmaq və xidmət göstərmək vasitəsilə davam etdirməyi qarşısına məqsəd qoymuşdur.

Millətin nicatı və istiqbalı elm-mərifətdə olduğuna dərindən inanan Müslihiddin müəllim 1972-ci ildə Daşkənd Dövlət Universitetinin (hal-hazırda Özbəkistan Milli Universiteti adlanır) aspiranturasında təhsilini başa vuraraq Özbəkistanın əməkdar elm xadimi prof. Qulam Kərimo-vun rəhbərliyi altında namizədlik dissertasiyasını uğurla müdafiə edir. Sovet ictimai-siyasi siste-minin məhdudiyyətlərinə və qadağalarına baxmayaraq, Müslihiddin Mühiddinovun elmi tədqiqa-tının mövzusu da son dərəcə yeni və milli bir səciyyəyə malik idi: "Özbək klassik ədəbiyyatında "Bəhram və Dilaram" həm də "Bəhram və Güləndam" silsiləsi daxil olan dastanlar ("Özbək klassik ədəbiyyatında "Bəhram Gor" süjetinin evolyusiyası"). Yeri həlmişkən onu da qeyd edək ki, Bəhram Gor haqqındakı dastan, qissələr yalnız fars-tacik və özbək ədəbiyyatında deyil, eyni zamanda. Azərbaycan, gürcü, kürd və başqa Qafqaz xalqları ədəbiyyatında da mövcuddur. Həz-rət Əlişir Nəvai isə "Xəmsə"nin "Səbayi-səyyar" dastanında bu süjeti ayrıca qələmə almışdır. Müslihiddin Mühiddinov bu dastanı iki böyük farsdilli Xəmsənəvis – Nizami Gəncəvi və Əmir Xosrov Dəhləvinin təlqinləri ilə müqayisəli təhlil edib, Nəvainin həm süjet yaratmaq sahəsində, həm də bədiilik istiqamətində bir çox poetik kəşflərə və yeniliklərə imza atdığını əsaslandırır. Qısaca söyləsək, məhz 70-ci illərdə görkəmli ədəbiyyatşünas alim Müslihiddin Mühiddinovun özünəməxsus tədqiqatları nəticəsində özbək ədəbiyyatşünaslığında müqayisəli-topoloji təhlil üsulu yenə də dərinləşdi, zənginləşdi və növbəti mərhələyə yüksəldi.

Klassik ədəbiyyatı dərk etmək, onun məna dərdinliklərinə qəvvas kimi baş vurmaq ədəbiyyatşünas alimdən dərin bilik və təcrübədən başqa həm də sövqi-təbiilik, həssaslıq və fövqəladə təfəkkür imkanları tələb edir. Çünki Qurani-Kərim və Hədisi-Şərif bulaqlarından su

içmiş mümtaz ədəbiyyat nümunələrini ağıl-idrakın gücü və qüdrəti ilə tam şəkildə duyub anlamaq imkansızdır. Onlara könül gözü ilə baxmaq zəruridir. Müslihiddin Mühiddinov klassik ədəbiyyat nümunələrini təhlil edərkən sirr pərdəsi altındakı mənaları da həssaslıqla hiss və dərk etməyi yüksək səviyyədə bacarmışdır.

Görkəmli ədəbiyyatşünas alim Müslihiddin Mühiddinovun klassik ədəbiyyatda insan konspepsiyası haqqındakı fundamental tədqiqatları da diqqətə layiqdir. Mümtaz söz sənətimizin bilicisi kimi şöhrətlənmiş alim 1995-ci ildə "Əlişir Nəvai və onun sələfləri yaradıcılığında insan konsepsiyası ("Xəmsə"lərin birinci dastanları əsasında") mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyası da, ümumən, Mərkəzi Asiya elmi-mədəni mühitində mühüm yenilik kimi qiymətləndirildi. Həqiqətən, öz mənşəyi və şəcərəsi cəhətdən də yuxarıda qeyd etdiyimiz müqəddəs və mötəbər təriqətə mənsub ustadın doktorluq dissertasiyası üçün eynən bu mövzunu seçməsi də onun ulu əcdadlara dərin ehtiramının və münasib varislik borcunun ifadəsi idi. Zatən, təriqət sahibləri və başçıları həmişə, bütün həyatları boyu kamil insan tərbiyə etməyi və bu ideal uğrunda çalışmağı özlərinin ən ali vəzifəsi, borcu bilmişlər. Məlum olduğu kimi, bu qayə və məqsəd həm də təsəvvüf təlimi və fəlsəfəsinin nüvəsi, şah damarı hesab olunur.

Yeri gəlmişkən, burada xüsusi qeyd etməyə dəyər ki, dinsizliyi və mənəvi inamsızlığı təbliğ edən sabiq sovet cəmiyyətində Əlişir Nəvainin fəlsəfi-irfani görüşlərinin dərindən əks etdiyi "Heyrət ül-əbrar" dastanı amansız senzuranın dəhşətli zərbələrinə daha çox tuş gəlmişdi. "Xəmsə"nin qısaldılmış variantını nəşrə hazırlayarkən "Heyrət ül-əbrar"ın ilk fəsilləri yerli-dibli yox edilmişdi. Halbuki məhz həmin fəsillərdə Nəvainin fəlsəfi-irfani görüşləri daha yaxşı və ətraflı əks etdirilmiş, həmin hissələr dahi mütəfəkkirin dünyəvi və ictimai görüşlərini dərindən anlamaq üçün imkan yaradırdı.

Məhz istiqlal bizə milli və dini mənliyimizi dərindən dərk etmək, anlamaq bəxtini bəxş etdi. Milli azadlığımızın verdiyi imkanlardan səmərəli surətdə yararlanan prof. Müslihiddin Mühiddinov "Xəmsə"lərin ilk dastanlarında kamil insan konsepsiyasıını müqayisəli şəkildə araşdırmağa girişdi. Bununla zəhmətkeş alim sabiq ictimai-siyasi münasibətlər şəraitində dahi mütəfəkkirimiz Nəvai şəxsiyyətinə və yaradıcılığına nisbətən edilmiş müxtəlif haqsızlıqlara son qoymağı, milli-tarixi ədaləti yenidən bərpa etməyi və "Heyrət ül-əbrar" dastanını zamandaşlarımız üçün yenidən kəşf etməyi qarşısına məqsəd qoymuşdu.

Görkəmli nəvaişünas alim "Heyrət ül-əbrar" dastanını tədqiq etmək prosesində ən çətin və ən doğru yolu müəyyənləşdirdi. O, Nəvai dastanını Nizami Gəncəvinin "Məxzən ül-əsrar", Əmir Xosrov Dəhləvinin "Mətlə ül-ənvar" həm də Əbdürəhman Caminin "Töhvət ül-əhrar" dastanları ilə müqayisəli şəkildə araşdırıb, Əlişir Nəvainin cahan bədii təfəkkür xəzinəsinə bəxş etdiyi misilsiz töhfələri kəşf etdi.

Bundan otuz-qırx il əvvəl dahi Nəvainin yaradıcılığının cövhəri tövhid və islam mərifəti olduğunu söyləməyə hər alimin cürəti yetməzdi. Etiraf etməliyik ki, hətta bu gün də bu cür yanaşmalara ögey nəzərlərlə baxanlar mövcuddur. Prof. Müslihiddin Mühiddinov birincilərdən olaraq xəmsənəvislikdə insan konsepsiyası ən əvvəl Qurani-Kərim və Hədisi-Şərifdən qidalandığını elmi cəhətdən əsaslandırdı, mənəvi kamillik qayəsi təsəvvüf təlimi ilə üzvi surətdə bağlı olduğunu elmi cəhətdən hərtərəfli isbat etdi.

"Öz vücuduna təfəkkür eyləgil, Hər nə istərsən – özündən istəgil" deyə söyləmişdir dahi Əlişir Nəvai. Həqiqətən də , insanın özünü və öz mahiyətini dərindən anlaması qədim yunan fəlsəfəsindən ta hal-hazırkı sivilizasiyaya qədər – bütün zamanlarda filosofları və mütəfəkkirləri həmişə düşündürmüşdür. Bizdə də müstəqillik qazandağımız ilk illərdə milli mənliyimizi dərk etmək cəmiyyətimizin əsas məqsədi və vəzifəsi idi. O vaxtlar "Ədəbiyyat yaşayarsa – millət yaşayar" inancından çıxış edərək mümtaz söz sənətinə də ayrıca və həssas münasibət şəkillənməyə başladı. Milli ədəbi mühimizdə bu cür mənəvi-fəlsəfi və qayəvi-estetik axtarışlar genişləndiyi bir vaxtda prof. Müslihiddin Mühiddinovun insanşünaslıq barəsindəki elmi işləri çox böyük əhəmiyyət kəsb etdi. Başqa sözlə, prof. Müslihiddin Mühiddinov ustadları və həmkarları ilə birlikdə çağdaş Nəvaişünaslığın elmi-metodoloji əsaslarını yeniləmək və yaratmaq barəsində çox böyük fədailik və təşəbbüskarlıq nümayiş etdirdi.

Ərəb, fars-tacik və özbək dillərinin aparıcı mövqeyə malik olduğu ədəbi-mənəvi mühitdə kamala yetən ustadımız tərcümə nəzəriyyəsi və əməliyyəsi, tərcümə tarixi üzrə də sanballı tədqiqatlara imza atdı. Özbək və tacik xalqları arasındakı ədəbi əlaqələr, züllisanaynlik (ikidillilik) hadisəsi, "Şahnamə"nin özbəkcə tərcüməsi, Əlişir Nəvai əsərlərinin tacik dilinə tərcümələri, Məhəmmədrza Agahinin mütərcimlik məharəti və s. mövzulardakı son dərəcə aktual və elmi-mədəni mühit üçün zəruri olan tədqiqatları müstəqillik dövründə milli filologiyamızın qazandığı böyük müvəfəqiyyətlər sırasındadır. Vətənpərvər və fədakar alimin ictimai xadim, elm və təhsil təşkilatçısı, həm də hamisi kimi çoxşaxəli fəaliyyəti də diqqətə layiqdir.

Həm elmdə, həm də hilmdə ibrət nümunəsi

Abdulla ibn Abbasa istinad edilən məşhur hədisdə deyilir ki, Peyğəmbərimiz Məhəmməd (s.a.s) "Adamların ən yaxşısı – başqalarına daha çox xeyir verəndir", - deyə söyləmişlər. Əlişir Nəvai "Nəsayim ül-məhəbbət" təzkirəsində bir sıra vəli və övliyalar sırasında Səmərqənddə oxuduğu vaxtlarda gördüyü Mövlana Mir İmam adlı bir şəxsi də xatırlayır. Mövlana Mir İmam başına müsibət gələn, müxtəlif fəlakətlərlə üzləşən insanları xilas etmək, onların ağır faciələrini yüngülləşdirmək üçün yayın istisində, qışın çilləsində də zəmanə ərbabları və sahiblərinin hüzuruna cəsarətlə getdiyini təsirli bir tərzdə bəyan edir.

Hər bir sahədə həzrət Nəvaidən dərs və nümunə alan prof. Müslihiddin Mühiddinov da həyatda və elmdə hamıya, bütün ehtiyacı olanlara yardım etməyi özünün məsləkinə, baş məqsədinə çevirdiyini xüsusi qeyd etməliyik. Ustad heç bir vaxt öz qayğıları və şəxsi maraqları üzündən heç bir hakimiyyət və ya iş sahibinə müraciət etməyib. Amma yetirmələri, şagirdləri və dost-yarlarının işi, qayğıları ucbatından can yandırmaqdan qətiyyən yorulmur. Əziz və möhtərəm ədibimiz Abdulla Qədiri "Ötən günlər"in qəhrəmanı Yusifbəy Hacı xanədanını tərif edərkən, bu dərgahdan heç kim narazı olub getmədiyini əlahiddə vurğulayır. Müslihiddin müəllim də başqalarına yaxşılıq etməyi və səadət bağışlamağı özünün mənəvi rahatlığı kimi dəyərləndirir. Allah bizə və ümumən, həyatda, elmdə ibrətamiz nümunələr göstərən ulu ustadımızın bu fəzilətlərini hamımıza nəsib etsin!..

Ağıl ağacı

Prof. Müslihiddin Mühiddinov "Yer üzünün möcüzəsi" deyə həmişə tərifləndən Səmərqəndin sadiq və saleh övladıdır. Nəvaişünaslıq elminin ilk təməl daşları və bünövrəsi bu şəhərdə qoyulduğu hamıya məlumdur. Ustadımız dərin zəkalı alim, mahir elm təşkilatçısı kimi Səmərqənd elmi və mədəni mühitini daha da zənginləşdirmək, nəsillərin yaratdığı Nəvaişünaslığın tarixi ənənələrini göz bəbəyi kim qorumaq, mötəbər əmanəti gələcək nəsillərə dolğun şəkildə çatdırmaq üçün var gücü ilə, yorulmadan əmək və zəhmət çəkməkdədir.

Özbəkistanın əməkdar gənclər hamisi prof. Müslihiddin Mühiddinov bu günlərdə qutluğ 80 yaşını böyük yaradıcılıq zəfərləri ilə qarşılamaqdadır. Ustad bu yaşında da bir dəqiqə nəfəs dərmədən, iynə ilə quyu qazmaq zəhmətlərini azaltmadan möhtəşəm ağıl ağacı kimi yüksəlməkdədir. Bütün şagirdləri və dostları səmim-qəlbdən arzu edir ki, göylərə yüksələn bu elm və mərifət ağacı öz bərəkəti və səxavəti ilə elm istəyənlərin qəlbini həmişə nurlandırsın. Ən azı 500 ildən bəri bu xanədanda elimizə və yurdumuza nur – işıq saçan elm və mərifət məşəli Qiyamətə qədər sönməsin!..

Özbəkcədən çevirən: YAŞAR QASIMBƏYLİ,
filologiya elmləri doktoru, professor,
AMEA Nizami Gəncəvi adına
Ədəbiyyat institutunun baş elmi işçisi

TƏHLİL

AYGÜN BAĞIRLI

Filologiya üzrə fəlsəfə doktoru, dosent

“TALEYİMİZ QƏLƏM VERDİ ƏLİMİZƏ...”

Təbiətin və tarixin əsrarəngiz ansambl, harmoniya yaratdığı Şəki şəhərində dünyaya göz açan Bəxtiyar Vahabzadə öz yaradıcılığında bu qədim yurda xas mozaik gözəllik və xüsusiyyətləri əks etdirmişdir. Dünyayla tanışlığı hər fəsildə bir rəng alan dağlar və meşələrlə əhatələnmiş, tarixi tikili, saray və abidələr, daş döşəmələrin kompozisiyasından ibarət olan füsunkar məkanda başlayan Vahabzadə həm vətəndaş, həm şair, həm alim, həm ictimai xadim statusunu öz şəxsində uğurla birləşdirmişdir. 100 yaşını qeyd etdiyimiz şairin yaradıcılığı ilə yaxın tanışlıqdan sonra gəlinən qənaət budur ki, Vahabzadə daha çox fikir şairidir, təfəkkür şairidir, idrak şairidir, həm də istiqlal şairidir. O, təbiətdəki hər hansı varlıqdan – dağdan, təpədən, çaydan, vulkandan, yarpaqdan danışanda belə fəlsəfi fikirlərini ifadə edib. Duyğularını və duyğularından doğan düşüncələrini bölüşüb. Sevgi şeirlərinin əksəriyyətində də sevdiyi ona onun üçün maraqlı və eçazkar olub ki, özündə sirr və məna gizləyib, həmişə sehrini saxlaya bilib, belə deyək, sevgilinin cazibəsi gizlədə bildiyi məna, sahib olduğu hikmət qədər olub. Bəxtiyar Vahabzadə tarixin cəmi bir əsrinə şahidlik edib, 100 ilinə. Amma sanki o, tarixlə yaşıddı, insan oğlunun həyat var olandan çəkdiklərinə, yaşadıqlarına bələddir. Onun şeirində Nəsiminin fəlsəfəsi Füzulinin kədəri ilə qovuşuqdur, amma müasir insanın öz fəlsəfəsi hesab edəcəyi qədər sadə və eyni zamanda dərin. Onun poeziyasında Nizami və Vurğunun hikməti də bir dalğadadır. Anlaşılan və həmişə aktual.

Bəxtiyar Vahabzadənin poetik “mən”i daima “ikinci səs”i ilə savaşdadır. Oxucuya elə gəlir ki, şair içindəki səslə heç vaxt barışıq mövqeyində olmayıb. Daim tənbeh, ittiham və tənqid... Elə bu məqamda şairin məşhur “tək ondan razıyam ki, özümdən narazıyam”, – misrası yada düşür. Şairin iç dünyası iki zidd qütbün – şadlıqla kədərin, qorxuyla sevginin mücadilə meydanına bənzəyir. Əminliklə demək olar ki, Bəxtiyar Vahabzadəni heç kim özü qədər sorğu-suala çəkməyib. O, özünün ən yaxşı həmsöhbəti, ikinci səsi ilə dialoqlarında maraqlı tərəf müqabili olub.

Bəxtiyar üçün gözü görməyən insan hələ kor deyil, onun üçün özü kor olanla gözü kor olanın fərqi var. Göz baxmaq üçün yox, görmək üçündür və bu qənaət poetik qənaət olmayıb, şairin

bütün yaradıcılığında görünən tendensiyadır. Bəxtiyarın poetik "mən"i həmişə mahiyyəti görə bilib. Ümid, xəyal, inam və sevgi Bəxtiyar şeirinin əsas qəhrəmanlarıdır.

İşığın gücünün zülmətdə, elmin gücünün cəhalətdə bilindiyini deyən şair zəncir olmasa azadlığın, qəm olmasa şadlığın bilinmədiyini deyir, Allahı ruhunda tapandan bihudə düşüncələrdən uzaq olduğunu yazırdı. Bütün ziddiyyətlərin insanın daxilində qoşa olduğunu yazan şair "Bütövlük" şeirində poetik "mən"inin obrazını XIII əsrdəki sələfi kimi oxucuya təqdim edirdi:

Matəm də mənəm,
Toy da mənəm, mən.
Arif də mənəm,
Kor da mənəm, mən.
Dünya da mənəm,
Gor da mənəm, mən.
Şadlıq da mənəm, qəm də mənəm, mən.
Cənnət də, cəhənnəm də mənəm, mən.
Mehrab da mənəm, səcdə edən də.
Dünya özü əksiylə də vəhdətdədi məndə.
Nəşəm də doğur dərdi-qəmimdən.
Ziddimdə tamam, bir bütövəm mən.

"Dağda şəlalə kimi" şeiri də şairin qayəsini açıqlayan şeirlərdəndir. Ömründə bir neçə dəfə "ölənlər"in ölümünün səssiz olduğunu yazır, orta yol seçənlərin, gah səhərə, gah axşama, gah qışa, gah bahara dəm tutanların mövqeyinə təəssüflənirdi. Ağlayanda hönkürən, güləndə qəh-qəh çəkən, atlarını daşlığa səyirdənlər idi onun dəstəklədikləri. Dənizin xəfif sakitliyinə yox, qasırğalı dalğasına aşiq olan şair əslində bununla öz həyat və yaşam, insanlıq və kişilik meyarlarını açıqlayırdı. "Dağ şəlaləsi" onun istəklərinin hüdudlarının bəyanı idi. Bir rəngi yox, göylərin min rəngini sevirəm, bir gülü yox, güllərin çələngini sevirəm, – deyən şairin sevgisi sərhəd tanımır, o öz yaradıcılığında insanın və zamanın, tarixin və təbiətin, barışın və savaşın palitrasını yaradırdı.

Bəxtiyar Vahabzadə Koroğlunun dəlilərindən ehtiyatlı, savadlı "ağıllılar"ın törəməsindən narahat idi.

Bizi ehtiyata çağıran ağlı
Bir çimdik qeyrətə dəyişdirərdim –

deyən şair dünyanın siyasi xəritəsini dəyişdirən, yeni yollar açan, cığırlar salanların ağıldan çox qeyrət və cəsarətə söykəndiyini düşünür və ağıllı başlardan həm də "dəlilik" umurdu. Şair hesab edirdi ki, qollardakı kilidləri, ayaqdakı zəncirləri, təfəkkürdəki qandalları əzmkarlıq və cəsarətlə açmaq mümkündür.

Şairin istər ana dili, istər istiqlaliyyət, milli azadlıq təfəkkürü uğrunda mücadiləsi fəaliyyətinin bütün istiqamətlərində özünü göstərirdi. Həm pedaqoq, həm alim, həm şair, daha sonra millət vəkili olan Vahabzadənin bütün fəaliyyət istiqamətləri eyni hədəfə xidmət edirdi: haqqını dərk edən, millət olaraq öz hüquqlarını qoruya bilən, tarixinə sahib çıxan, cəsarət və əzmkarlıq nümayiş etdirən xalqın var olması üçün ona verilmiş bütün tribunalardan layiqincə istifadə edirdi. Bütün yaradıcılığında - şeir, poema, pyes və publisistikasında, həm elmi tədqiqatlarında milli və bəşəri dəyərləri əks etdirirdi. Onun əsərlərində xalqın bütöv obrazı var, desək, yanılmarıq. Şərəfli keçmişə malik, zaman-zaman taleyin acı sınaqları ilə üz-üzə qalan, amma hər dəfə külündən yenidən törəyən xalq obrazı.

Bəxtiyarın poetik "mən"i başqalarını özünə yox, özünü hər kəsə, hər şeyə borclu hesab edir. Əyilib gözündən su içdiyi bulaqdan tutmuş, xalq qarşısında, Vətən qarşısında özünü borclu bilən şair düşünür ki, hər kəs öz borcunu anlasa, Vətən bağını şeytan alağı basmaz. Şair sələfi Füzuli kimi kədərdən qorxmur. Qəm onun üçün fikirlərə açar, dərin düşüncələrə ustaddır.

Bəxtiyar Vahabzadənin şeirində əşyalar var ki, onun ətrafında bir fəlsəfi kompozisiya qurulur. Beşik, saat, ayaqqabı, siqar, zindanda döyülən dəmir və s. Şair "Beşik" şeirində beşiyi insanın ilk mənzili, ilk yuvasının simvolu kimi təqdim edir. Beşik insanın dünyayla ilk tanış olduğu evdir. Yaddaşı var, ata da, baba da yırğalanıb bu beşikdə. Şair beşiyin üzərindən asılan "Quran", üzərlik, şax-şaxı elə canlı təsvir edir ki, oxucu özünü o beşiyin ətrafında hiss edir. Beşik evdir, ocaqdır. Anaların laylayla ruha Vətən içirdiyi bir yurd yeridir. Laylanın davamı kimi şairin yaradıcılığında bir fəlsəfi missiyası dəqiqliklə ifadə olunan səs muğamdır. Muğam Vahabzadə üçün təkcə "daş ürəkləri sındıran, kürü qurudan, kinli ürəklərə su çiləyən, buzu yandıran, qəzəbi söndürən, vicdanı oyadan" səs deyil. Muğam ananın laylayla ruha süzdüyü Vətən sevgisini canlandıran, tarixin guşəsinə işıq tutan, yaddaşı oyadan sədadır.

Saat da maraqlı obrazlaşdırılıb şairin əsərlərində. Saatsaz emalatxanasında olan müəllif zamanı göstərən, vaxtın itkisini bildirən bir əşyanın bu qədər bəzənib süsləndiyini, müxtəlif formalarda təqdim olunmasını anlaya bilmir. Saat şairin sevmədiyi əşyalardandır, onun fikrincə saatın səsini ancaq məhkumlar sevə bilər. Zamanı biçdiyi üçün, onları azadlığa yaxınlaşdırdığı üçün. Bütün saatların səsi, çıqqıltısı eyni olsa da, hökmlərinin fərqli və müxtəlif olduğunu bildirən şair saata həm də fəlsəfi məna yükləyir.

Yaxud dəmirin öz dəmir həmcinsi ilə döyülməsinə dözməyib fəryad etməsini görən qızılın, – məni də sənin kimi döyüb əzirlər, amma mən sənin qədər incimirəm, - iradına, - səni döyən özgə, məni döyən özümünküdür, - deyə cavab verir. Ümumiyyətlə, gördükləri, şahid olduqları hər hansı həyat hadisəsini mənalandırmaq yaradıcı şəxsiyyətlərə xas xüsusiyyətdir. Bəxtiyar Vahabzadə də müşahidə etdiyi hadisələrin, yaşantıların qələmlə tablosunu yaradıb oxucusuna göstərə bilir. "Qocalar" şeirindəki kimi,

Çənə əl üstündə, əl çomaq üstə,
Qocalar əyləşir tin başlarında.
Sinə bayatılı, könül şikəstə,
Ömür varaqlanır yaddaşlarında.

Yaxud, Qədir Rüstəmovun yanıqlı ifasını seyr edən şair Qədiri Şuşasız yetim uşağa, Qədirsiz Şuşanı adi torpağa bənzədir.

"Taleyimiz qələm verdi əlimizə" – deyən şair əlində qələm olmağın, əliqələmli olmağın, şair olmağın məsuliyyətini bilir, bu adın haqqını həm vətəndaş kimi, həm yaradıcı insan kimi sonunacan ödəməyə çalışırdı. Taleyimiz qələm verdi əlimizə, – deyəndə təkcə özünü, şəxsi taleyini yox, xalqın, Vətənin taleyini də nəzərdə tutur, onun bütün ağrılarından, yaralarından yazmağı, çarə düşünməyi özünə borc bilirdi. Şair bütün bunları həm poeziyasında, həm dramaturgiyasında, həm publisistikasında eyni həyəcan və eyni duyğuyla ifadə edirdi. Dar otağına bütün cahanı sığdıra bilən, yazı masasına söz ordusunu toplayan şair dünyanın harasında bir ocaq varsa, ürəyinin, fikrinin orda olduğunu yazır, söz adamını, düşüncə adamını dünyanın bütün dərdlərinə məsul hesab edirdi. Bəxtiyar Vahabzadə üçün:

Şair – fikirlərin çırpınan seli,
Şair – həqiqətin müğənnisidir.
Şair – təbiətin danışan dili,
Şair – cəmiyyətin üsyan səsidir.
Şair – zəmanənin, əsrin vicdanı,
Şair – tarixlərin şərəfi, şanı.
Şair – bu dünyada zamanın sözü,
Şair – həqiqətin, haqqın güzgüsü! – dür.

DÜNYA ƏDƏBİYYATI

VİSLAVA ŞİMBORSKA
(1923-2012)

Polşanın ən görkəmli müasir şairlərindən biri olan Vislava Şimborska, eyni zamanda ədəbiyyat tənqidçisi, felyetonçu və tərcüməçidir.

O, çoxlu sayda beynəlxalq mükafatlar laureatıdır. O cümlədən Koşçelski adına Fondun Mükafatı (1960), Polşa PEN klubunun mükafatı (1980, 1996), Herder Mükafatı (1995) və "İronik dəqiqliklə bioloji qanunları tarixi hadisələri, insan reallığının həqiqətlərini göstərən" şeirlərinə görə Nobel Ədəbiyyat Mükafatına layiq görülüb.

2001-ci ildə Amerika İncəsənət və Ədəbiyyat Akademiyasının fəxri üzvü seçilən Vislava Şimborska həm də Polşa Yazıçılar Birliyinin həmtəsisçisi idi.

QƏFİL GÖRÜŞ

Uzun illərdən sonra baş tutan xoş görüşdə
necə də mehribanıq bir-birimizlə.

Bizim pələnglər süd içir,
Bizim qırğılar uçmağı unudub.
Bizim köpək balıqlarımız suda batır.
Bizim canavarlar açıq qəfəsin qarşısında
əsnəyir.

Bizim əjdahalar şimşəklərdən silkələnib,
meymunlar ruhdan düşüb, tovuz quşlarının
lələkləri yox olub, itib.
Və nə zamandı yarasalar da toxunmur
saçımıza.

Söhbətin yarısında susuruq.
Heç rişxənd də xilas edə bilmir bizi.
Danışmağı unudub
bizim adamlar.

SON VƏ BAŞLANĞIC

Hər müharibədən sonra
öz-özünə yaranmır
səliqə-sahman.
Səliqə-sahmanı kimsə yaratmalıdı.
Meyid daşıyan maşın
keçə bilsin deyə,
yığılan qalağı
kimsə təmizləməlidi.

Külə, palçığa
açılmış yataq yaylarına,
şüşə qırıntılarına,
qanlı əskilərə,
kiminsə ayağı bulaşmalıdı.

Qapını yerinə salıb,
pəncərəni bərkidib,
divara dayaq verməyi
kimsə etməlidi.

Bu, fotogenik görünüş deyil,
keçməlidi bir neçə il.
Artıq başqa müharibəyə yollanıb
bütün fotoqraflar.
Bükülmüş
qolluqlar çürüyür,
amma yeni körpülər,
vağzallar tikilməlidi.
Səhər
küçəni süpürərkən
kimsə yada saldı,
necə də dəhşətli idi;
və kimsə sağ qalmış başı ilə işarə etdi:
Allah eləməsin, bir də təkrarlansın.
Yanında kimsə bərkdən əsnədi.

Xarab olmuş qalıq dəlillər gizlədilib
hansısa kolun altında;
təəssüflənmədən
kimsə onları zibil qutusuna atır.
Burda nə baş verdiyini
bilənlər,
az bilənlərə,
azdan da az bilənlərə
və ya heç bilməyənlərə
güzəşt etməlidi.

Səbəb və nəticəylə
iliyinəcən ot basmiş çəmənlikdə
sünbülü dişləriylə sıxaraq,
axı kimsə uzanıb
dəli kimi buludları seyr etməlidi.

MƏNZƏRƏ

Yad kimi ayrıldılar,
sözsüz, baxışsız,
qadın dükana gedən yoldadı,
kişi maşın olan yolda.

Bəlkə, həyəcandandı,
ya fikirlər dağınıq,
ya da unudublar
bu qısa zamanda,
bu az zamanda,
bir-birilərini necə sevdiklərini.

Bunların onlar olduğuna
bir əminlik yox.
Bəlkə, uzaqdan belə görsənir,
yaxından o qədər də yox.
Pəncərədən gördüm onları,
lakin kim yuxarıdan baxırsa,
səhvə yol verə bilər çox asanlıqla.

Şüşəli pəncərə arxasında
qadın yox oldu, itdi,
kişi sükanın arxasına keçdi və cəld getdi.
Yəni heç nə baş vermədi,
hətta əgər baş versəydi belə.

Gördüklərimə
bir anlıq inanıram,
bu təsadüfi şeirdə
inandırmağa çalışıram, Sizi, Oxucular:
bu mənzərə çox kədərli idi.

YOXLUQ

Bir az da keçsəydi,
mənim anam
Volya Zdunskadan pan B. Zbiqnevə ərə gedə bilərdi.
Və onların doğulacaq qızı mən olmazdım.
Adları, sifətləri,
bəlkə də, bircə dəfə eşitdiyi musiqini unutmazdı.
Quşları ayırd edə bilərdi bir-birindən
səhv etmədən,
fizika və kimyadan əla,
polyak dilindən yaxşı qiymətlər ala bilərdi,
həm də xəlvətcə şeirlər yazardı,
mənimkindən qat-qat maraqlı.

Bir az da keçsəydi,
mənim atam da o vaxt Zakopanedən olan
Panna Yadviqanı özünə arvad edərdi.
Və onların doğulacaq qızı mən olmazdım.
Bəlkə də, tərs, dediyindən dönməz olardı.
Cəsarətlə suyun dərinliyinə baş vurardı.
O, kütləvi hisslərə meylli olardı.
Durmadan hər yana göz qoyardı,
hərdən də kitab oxuyardı,
tez-tez həyətdə top qovan oğlanların yanına qaçardı.
Ola bilsin ki, ikisi də,
hətta eyni məktəbdə, eyni sinifdə oxuyardılar.
Aralarında heç bir bağlılıq,
qohumluq yox,
və məktəb şəkillərində bir-birindən aralı.
Buyurardı fotoqraf,
- Qızlar burda dayanın,
- boydan bəstələr öndə,
hündürlər arxada.
Nə vaxt işarə etsəm, gülümsəyərsiniz.
Amma bir də sayın -
hamı burdamı?
- Bəli, pan fotoqraf, hamı burdadı.

Tərcümə edən: Rəfail Tağızadə

DÜNYA ƏDƏBİYYATI

ÇİNGİZ AYTMATOV

(1928-2008)

Qırğız yazıçısı və ictimai-siyasi xadim. Dünya ədəbiyyatının bənzərsiz örnəklərini yaradan, əsərlərinin dünyada tərcüməsi və nəşr edilməsinə görə çox nadir yazıçılara xas miqyasa sahib olan yazıçı Aytmatovun əsərləri dünyanın 174 dilinə tərcümə olunub.

KÖÇƏRİ QUŞLARIN AĞISI

Hekayə

Ov itləri, nədənsə, atlıların dəstə ilə yola çıxmasını xoşlayırlar. Qarışıq halda yola çıxan alaydan geri qalmayan itləri nə qədər qorxutsalar, geri qovsalar da, xeyri olmurdu. Onlar inadkarcasına geri qalmamağa çalışır, uzaqbaşı qorxub kənara çəkilirdilər. Qəribə heyvandırlar bu itlər – onlara geniş çöl ver, adamla dolu, səs-küylü meydan ver, fərqi yoxdur, sanki bundan ötrü yaranmışlar. Yəqin, ona görə ki, ov itidirlər…

Eleman itinin arxasınca gölə qədər qaçmalı oldu. O, qardaşı Turmana ikiyaşar cöngəni bağlamaqda kömək edirdi. Buğa hüzr yerində kəsilməliydi. Tazı – adı Uçar idi – fürsətdən istifadə edib dəstənin arxasınca qaçır, otları iyləyir, kolların ətrafına fırlanır, hürür, adamları yola düşməyə tələsdirirdi. Eleman onu nə qədər səsləsə də, aldatmağa çalışsa da, xeyri yox idi. Ağılsız it heç vəchlə başa düşmək istəmirdi ki, onlar ova getmirlər. Adamlar başqa aula – Almaşın qəfil ölmüş on yeddi yaşlı bacısının hüzr məclisinə gedirdilər. Çaparların – istər at, istərsə də qatır minmiş dəstənin içində sürətlə çapan bircə nəfər də cigit yox idi. Yazıq it haradan

biləydi ki, həmin gün bütün kişilər, ən yaxşı atlar, silah tuta bilən bütün İssık-göl ətrafı qırğızları bu doğma dağlardan çox uzaqdadırlar, buradan üç günlük məsafədə yerləşən Talçuy vadisində qəfil hücum edən cunqarların ordusu ilə döyüşə getmişlər. Aradan beş gün keçsə də, Talçuy vadisindən heç bir xəbər yox idi. İt ki, it… belə bir anda ova getmək kimin ağlına gələ bilərdi? Halbuki bütöv bir xalqın taleyi hazırda bir tükdən asılı idi.

Əslinə qalsa, adamların kədərlənməsi, müharibə xofu, həyəcan və ölümü, ümumiyyətlə, onların qayğıları itin nə vecinəydi. Onu yalnız heyvanların – tülkü və ya dovşanların arxasınca qaçmaq maraqlandırırdı. Belə vaxtlarda atlanmış insanların özləri də itlər kimi amansız olur, ovlarını təqib etməkdən usanmaq bilmirlər.

Səbirsizlikdən zingildəyərək gah dala-qabağa qaçan, gah da kəsik-kəsik hürüb bütün hərəkətləri, oyur-oyur oynayan gözləriylə adamları tələsməyə çağıran Uçar heç cür Elemana ram olmaq istəmirdi. Bu qara ov iti atlıların çaparaq onun dalınca gəlməsini, üzəngidə dayanaraq qəh-qəhə çəkməsini, bu zaman yaranan səs-küydə qüvvətlə uğuldayan küləklə birgə həyatın qaynayıb qarışmasını istəyirdi. O, hələ də onları çağırırdı…

Ancaq yox! Bu adamlar – onlara qohumluğu çatan Senirbayevlərin gəlini Almaşın kədərə qərq olmasından məyus olmuş qoca kişi və qarılar öz qohumluq boqcunu yerinə yetirərək hüznlü halda susur, Uçara gözucu belə baxmırdılar. Bu narahat, təhlükəli vaxtda canını dişinə tutaraq hüzrə getmək, bacısı vaxtsız vəfat etmiş gənc gəlinə görə deyil – o, cəmi yarım il əvvəl Senirbayevlərin evinə gəlin gəlmişdi – hazırda Talçuyda döyüşən gənc əri Koyçumana hörmət əlaməti idi. Ən başlıcası isə kiçik və yoxsul Bozoylar nəslinin qüruru, mahir yurt ustası Senirbaya görə gedirdilər.

Üç gün idi ki, Senirbay ürək ağrısından əziyyət çəkirdi. Bu mərəz ona çoxdan əziyyət verirdi. Və birdən qudalarından on yeddi yaşlı – anadan bir, atadan ayrı gəlinlərinin bacısı Uulkanın günün-günorta çağı lapdan öldüyünü eşidəndə Senirbay özü tələsik matəm mərasiminə getmək istəmişdi. Bunu qohumluq borcu, adət tələb edirdi. O, şubasını geyinib həyətə çıxdı. Yəhərlənmiş at onu gözləyirdi. Yeniyetmə oğlanları Eleman və Turman əlindən tutub onu ata oturtmaq istədilər. Amma ürək ağrısı ona ayağını üzəngiyə keçirməyə imkan verməsə, zorla atın yalından yapışıb inildədi, müvazinətini itirsə də, yıxılmadı.

Əvvəllər olduğu kimi Kertolqo-zayip yenə də rəhbərliyi əlinə aldı. O, lazım gələrsə cəsarətlə hərəkət etməyi bacarırdı. Kertolqo-zayip oğulları ilə birgə ərini dülgər yurtuna aparıb yatağa uzadaraq Senirbaya dedi:

- Usta, qudangilə yasa gedə bilmədiyinə görə Allah səni bağışlayar. Bu işi mənim öhdəmə burax. Səndən sonra bu ailənin böyüyü mənəm. Onsuz da əvvəl-axır Bozoylar nəslinin böyük anası mən olacağam. Əgər bozoyları ağıya mən çağırsam, qudalar inciməzlər. İndi heç incimək vaxtı da deyil. Bir Allah bilir, hazırda Talçuyda nə baş verir, cigitlərimizin vəziyyəti necədir: qələbə çalıblarmı, şəhid olublarmı, heç bir xəbər yoxdur. Özün görürsən ki, hamı vahimə içindədir. Sən sağalmağınçün Allaha dua et! Orada, qanlı çarpışmalarda olanlar barədə fikirləş! Özünü qoru! Sən Bozoyların ən hörmətli adamısan. İcazə ver, bu acı mərasimə mən qatılım. Sən isə tərpənmə, uzan. Eleman səninlə qalacaq, biz isə hamımız gedəcəyik…

Sifəti ayazımış, alnını soyuq tər basmış Senirbay uzanılı halda astadan dilləndi:

- Haqlısan, arvad. Mən gedə bilmirəmsə, sən özün get. Bütün Bozoy nəslini topla. Qoy bizim Almaş özünü orada tənha hiss etməsin. Ucadan ağı deyin, qoy ətrafda hamı eşitsin ki, siz də ağlayırsınız. Qoy sizin harayınız onların kürəkəni, bizim oğlumuz Koyçumanın, mən xəstənin orada olmadığını hamıya unutdursun. Qoy hamı bilsin ki, müharibə yaxında olsa da, ölənləri ağlamağa, dəfn eləməyə qüvvəmiz çatar. Nə qədər ki, biz insanlar…

Kiçik Bozoy nəslinin üzvləri – qocalar, qadınlar, uşaqlar hüzr yerinə – dəfn mərasiminə bu cür gedirdilər. Həmin vaxt elə bir adam tapmaq olmazdı ki, cunqar oyratları ilə döyüşün taleyi barədə fikirləşməsin: görəsən, orada – Talçuy vadisində vəziyyət necədir? Axı niyə heç bir xəbər yoxdur? Niyə heç kəs heç nə bilmir? Cigitlər öz nəsillərinin şərəfini qorumaq üçün bu döyüşə yollandılar.

Eleman Uçara çatıb xaltanı boynuna keçirincə, xeyli tər tökməli oldu. Yoxsa, it dəstə ilə birlikdə çıxıb gedəcəkdi. Uçar xaltada da sakitləşmək bilmir, qaçıb getmək istəyirdi. Amma onu heç cür buraxmaq olmazdı, qonşu auldakı itlər yığışıb axırına çıxacaqdılar. Buna heç bir şübhə ola bilməzdi.

Eleman dayandı, bilmədi ki, nə etsin: axı dəfnə gedənlərə "yaxşı yol" demək düzgün olmazdı. O, özünü itirmiş halda dayanmışdı. Yəhərdə oturan anası qəfil cilovu çəkib ona tərəf çevrildi:

- Nə durmusan burda, tez evə get, – deyə astaca dilləndi. – Atana yaxşı bax, eşitdin, ondan bircə addım da uzaqlaşma.

Eleman razılıq əlaməti olaraq başını tərpətdi. Anasının qocalmış gərgin, qırışlı çəhrayı üzünə baxdı: o, anasını heç vaxt belə qayğılı görməmişdi.

- Anacan, bizdən ötrü narahat olma, mən daha balaca deyiləm. Nə lazımdırsa, eləyərəm, atamı gözdən qoymaram. Keşkə bizim Koyçuman yəhərdə uzadılmış halda deyil, ayağı üzəngidə qayıdaydı. Qoy bütün cigitlərimiz yük kimi yox, at belində qalib kimi qayıtsınlar. Mənə və atama görə isə fikir eləmə, hər şey ürəyincə olacaq, anacığım.

Kertolqo-zayip sonbeşiyini dinləyərkən qəfildən ürəyi sancdı: görəsən, indi Koyçuman necədir? Sağdırmı, yoxsa oyrot nizələriylə dəlmə-deşik edilib? Sabah onları nə gözləyir, başlarına nə iş gələcək, bəs xalqın taleyi necə olacaq?

Bu dəhşətli fikirlər ananı əndişələndirdi.

- Qaç, oğul, aula qaç, səni də, atanı da Tenqri Allaha tapşırıram. – Bir qədər irəliləyib, yenidən dayandı. – Evə çatan kimi həmin o otdan atan üçün dəmləyərsən…

- Baş üstə, - Eleman onu əmin etdi.

Sonra anası dərmanın hazırlanma qaydalarını ətraflı izah etdi.

- Eleman, məni anladınmı? – Kertolqo-zayip əmin olmaq istədi.

Hər şeyin qaydasında olduğunu biləndən sonra, sahil boyu uzaqlaşan yolçuların ardınca çapmağa başladı. Lakin ətrafa göz gəzdirərək yenidən dayanaraq atdan düşdü:

- Eleman, yaxın gəl, – o, oğlunu çağırdı. – Yüyəni tut, mən ibadət etmək istəyirəm. Getdik.

Bu sözlərdən sonra, o, üzünü gölə tərəf çevirdi. Tələsmədən, ehtiramla suya yaxınlaşdı. O, aşıb-daşan dalğaların yuduğu təmiz, qırmızımtıl sahil qumunun üstü ilə addımlayırdı. Başındakı ağ çalma sifətini çənəsinədək örtsə də, qocaldığı sezilirdi. Buna baxmayaraq, o, yenə də təravətli və gözəl görünürdü. Canı hələ sulu, qaməti düz idi. Gəlini Almaş gələnəcən evin bütün işlərini özü görürdü. Evdə dörd kişi vardı – əri və üç oğlu. Gündəlik ev işlərində isə onlardan heç bir xeyir yox idi. O, həyəcanlı halda quma ayaq basdıqca, adi, gündəlik qayğılarını unudurmuş kimi sakitcə gölə tərəf yeriyirdi. Suyun mavi, zərif parıltısı uzaqlarda daha da tündləşir, xəyali, ağ dağ silsiləsinin zirvələrində ilğıma bənzəyən buludlar sürünürdü. Bu, insan ağlının qəbul etmədiyi, ancaq onunla yaşayan, ondan asılı olan əsrarəngiz dünya idi. Bu dünya Allah kimi hər şeyi bəxş etməyə qadir idi. Sanki torpağa çevrilən Allahın özü idi bu dünya.

Kertolqo-zayip xırda, dənəvər çınqıllarla dolu ləpələrin çırpılıb köpükləndiyi sahilin lap qırağında dayandı. Bir əliylə itin xaltasından, o biri əliylə isə atın cilovundan yapışan Eleman da onunla idi. Kertolqo-zayip dizi üstə çökdü. Oğlu da onun hərəkətini təkrar elədi. Ana astadan dua eləməyə başladı:

- Ey İssık-kul, sən torpağın gözüsən, həmişə göylərə baxırsan. Sənə, heç zaman donmayan, əbədi İssık-kul, sənə müraciət edirəm. Mənim dualarımı taleyimizin ağası, göylər Allahı Tenqriyə çatdır.

Ey Tenqri, bu ağır günlərdə, düşmən oyratlarla müharibədə bizə güc, qüvvət ver! Dağlarda, çöllərdə-çəmənlərdə mal-qara otarıb, bəxş etdiyin nemətlərlə dolanan altı nəsilli qırğız xalqını hifz elə. Qoyma ki, bizim ocaqlarımız oyrat atlarının tapdağı altında qalsın. Ədalətini əsirgəmə, bu açıq döyüşdə qələbəmizə yardımçı ol. Orada, dağların arxasında – Talçuy vadisində nə baş verir? Döyüş meydanından nə bir xəbər, nə də gələn var. Gözlərimizin kökü saralıb, həyəcandan ürəyimiz qanla dolub. Görən, oralarda nələr baş verir? Bəs sabah bizi nə gözləyir? Özün qoru döyüşə gedənləri, Tenqri Allahım, özün qoru! Onları dəvənin üstündə bükülmüş halda yox, at belində, yəhər üstündə bizə qaytar! Eşit məni, Tenqri, mən üç oğul anasıyam…

Eleman dizi üstə oturmuşdu. O, böyük gölün sanki canlı kimi nəfəs almasına, dalğalı köksünün qalxıb-enməsinə tamaşa eləyirdi. Göl sakit idi. Yalnız üzündə xırda ləpələr vardı. Uzun sürən qışdan sonra, erkən yazda İssık-kulun sahilləri çılpaq səhranı xatırladırdı. Tusan ağacları yarpaqsız, otlar sarı və quru, aullar isə tüstüsüz idi. Nə çaparlar, nə köçərilərin karvanı, nə də otlayan sürülər gözə dəyirdi. Amma İssık-kulda qışlamış köçəri quşlar baharın gəlişini, yeni ölkələrə uçacağı anı hiss edib böük dəstələrlə gölün üzərində dövrə vurur, qatarlanır, sürətlə qanad çalaraq dağların ətəyi boyunca uzaqlaşırdılar. Onların həyəcan dolu səs-küyü ətrafı bürümüşdü.

Budur, qırmızı pəncəli boz qazların alayı lap yaxından hay-küylə uçub getdi. Onlar o qədər alçaqdan uçurdular ki, nəinki çıxartdıqları müxtəlif səslər, hətta qanadlarının ahəngdar şappıltısı belə eşidilirdi. Eleman səbrlə gölün üzərində dövrə vuran köçəri quşları seyr edirdi. O, sübhəsiz, onların qaz, ördək, qu quşu, yaxud uzunayaq qızılı flaminqo olduğunu deyə bilməzdi. Onlar həm çox uzaqdan, həm də çox yüksəkdən uçurdular, səsləri isə gah aydın, gah da zəif gəlirdi. "Deməli, bu gün-sabah uçub gedəcəklər" – o qət etdi.

Anası isə elə hey ibadət edir, qəlbində yığılmış bütün istəklərini hərarətlə göylər Allahı Tenqriyə ünvanlayıb yalvarırdı: təki tanrı onun əri, mahir yurt ustası Senirbaya aman versin, köksündəki ağrılar birdəfəlik çəkilib getsin.

- Ey ulu Tenqri, usta atamızı özün qoru! Bizim diyarda elə yurt tapılmaz ki, orda onun əlinin izi olmasın. Ömrü boyu nə qədər tikili ucaldıb bu mahir usta. Axı hamıya ev lazımdır: cavana-qocaya, varlıya-kasıba, qoyunotarana, at sağıcısına da.

Kertolqo-zayip həmçinin xahiş etdi ki, Allah ona ömür versin ki, nəvə görsün, nəvə böyütsün.

O, elə hey dua edirdi… Azmı dərdi var insanın…

Böyük mavi göl isə qarlı qayaların, dağların arasından gözlərini sakitcə göyə zilləmişdi. Gölün canlı orqanizm kimi qalxıb-enən suları diyirlənib tutqun dərinliklərə axaraq böyük, güclü dalğalar yaradır, sonra həmin dalğalar heç nədən ölüb gedirdilər. Gecə tufan qoparmaq üçün göl sanki indidən toparlanır, daxili hazırlıq görürdü.

Hələlik isə yaz Günəşinin şüalarına qərq olmuş tərtəmiz gölün geniş, aydın səmasında köçəri quşlar halay vurur, qışqırıq salır, tezliklə özgə diyarlara yola düşəcəklərini hiss edib həyəcanlarını boğa bilmirdilər.

Anası isə daha qızğın, daha ürəkdən ibadət edirdi:

- Səni ananın bəyaz südünə and verirəm, Tenqri, eşit, eşit mənim sözlərimi! Biz sənin Yerdəki gözün, müqəddəs İssık-kula gəldik ki, Sənə müraciət edək: Ey talelərin böyük hakimi, göylər Tenqrisi! Bax, bu mənəm, yanımda dayanan isə sonbeşik oğlum Elemandır. Bundan sonra doğub-eləyən deyiləm. Daha dünyaya nə yaxşı, nə pis insan gətirməyəcəyəm. Səndən xahiş edirəm, sonbeşiyimə atası Senirbayın istedadını, ustalığını ata elə – o, özü də bu sənətə meyl edir… Eleman həm də qardaşı Koyçuman kimi "Manas"söyləyən olmaq istəyir. Sən onu rədd etmə. Hər şeydən qabaq sən ona ulu Sözün gücünü ver. Qoy Söz onun qəlbində ağac kimi kök atsın. Qoy nəsillərdən nəsillərə gələn Sözü uşaqları, nəvələri üçün qoruya bilsin. Sən sonbeşiyimə elə güc, elə qüdrət ver ki, o, əcdadlarımızın qırğız kimi tanındığı vaxtda yaratdığı Sözü yaddaşına həkk edə bilsin…

Mən üç uşaq anasıyam, Tenqri, eşit dualarımı, eşit! Həmişə bizimlə olan bu dilsiz heyvanlar, ovda tayı-bərabəri olmayan, oğlumun sağ tərəfində dayanan itimiz Uçar, hər il balalayan kürən yallı madyanımız – hamımız səndən xahiş edirik…

Anası astaca dua etsə də, Elemana elə gəlirdi ki, onun səsi dalğa-dalğa ətrafa – gölün eninə-uzununa, uzaq sahillərinə qədər cəzbedici, hərarətli bir şəkildə yayılır, ətraf dağlardan həyəcanlı bir əks-səda ilə geri qayıdırdı: "Eşit məni, Tenqri, eşit, eşit…"

Anası ata minib gölün qırağıyla kiçik bir dəstə ilə uzaqlaşan yolçuların arxasınca çapmağa başladı. Eleman Uçarın xaltasından yapışıb xeyli dayandı. O hələ bilmirdi – çünki kifayət qədər uşaq idi – ömrü boyu dəfələrlə bu günü – anasının gölün kənarındakı ibadətini həm sevinc, həm də kədərlə xatırlayıb ağlayacaq, taleyinə minnətdar olacaqdı ki, anasının etdiyi dualar ulu Tenqriyə çatıb. Xalq Elemanı məşhur "Manas" söyləyən kimi tanıyaraq, ildırım kimi gurultulu

manasçı Eleman çağırıcaqdı. O, hələ bilmirdi ki, gənclik illəri oyrat zülmünün tüğyan etdiyi dövrə təsadüf edəcək. Adamlar "Manas"ı dinləməkçün uzaq, xəlvət dərələrdə yığışacaqlar. O, hələ heç ağlına belə gətirmirdi ki, hər dəfə "Manas"ı söyləməyə başladığı zaman öz dastançı oğlunu gizlətdiyi üçün, gölün qırağında dua edən zaman oyratlar tərəfindən öldürülən anası yadına düşəcək. Buna görə də, müqəddimədəki gizli fikirlər qəlbində ruh yüksəkliyi yaratmaqla əcdadlarının yaratdığı sözün gözəllik və dərinliyindən təsəlli tapacaqdı. Çünki bu sətirlərdə xalqın ölməzliyi tərənnüm edilirdi. Amma o, hələ bilmirdi ki, nəfəs almağa belə qorxan adamlara "Manas"ı xatırlatmaq onun qismətinə yazılıb:

"Ey qırğızlar, bizim aramızda ən böyük olan haqqında – Manas haqqında olan bu dastanı eşidin".

O günlərdən bu günlərədək saysız-hesabsız gecələr bir-birinin ardınca qum kimi axıb getdi gedər-gəlməzə. İllər və əsrlər karvanı izsiz-tozsuz getdi uzaqlara. O vaxtlardan dünyaya nə qədər insan gəlibsə, bir o qədər də daş peyda olub. Bəlkə, bir az da çox. Bunların arasında böyük adamlar da olub, kiçiklər də. Xeyirxahlar da olub, pislər də. Dağabənzər pəhləvanlar, pələngəbənzər batırlar, hər şeydən agah müdriklər, bacarıqlı ustalar, böyük saylı xalqlar da olub. Onlar çoxdan yoxa çıxıblar, ancaq adları yaddaşlarda qalıb.

Dünən olan – artıq bu gün yoxdur. Bu dünyada hər şey gəldiyi kimi də yox olub gedir. Bu düyada təkcə ulduzlar daimidir. Daim Ayın işığında öz yollarına hakimlik edirlər. Əbədi Günəş Şərqdən ucalır. Qaradöşlü Yer isə özünün daimi məkanındadır. Yerdə yalnız insanın yaddaşı hər şeydən uzun yaşayır. İnsana isə çox qısa vaxt ayrılıb – qaşlar arasındakı məsafə qədər. Lakin insandan insana keçən fikir ölməzdir, lakin nəsillərdən nəsillərə keçən söz əbədidir…

O vaxtdan bu günə kimi Yer öz simasını dəfələrlə dəyişib. Dağ olmayan yerlərdə nəhəng dağlar ucalıb, dağlıq olan yerlər quru düzənlərə dönüb. Dərələr xəmir kimi birləşib, çayların sahilləri bir-birinə qovuşub. Bununla belə, yağışın yuması nəticəsində yeni yarğanlar, dərələr yaranıb. Oradakı dünya yaranan gündən dənizin mavi dalğaları oynaşardı. İndi həmin yerlərdə qumlu səhranın susqun ənginlikləri durur… Şəhərlər ucaldılıb, xarabazara çevrilib. Köhnə divarların üstündə yeni divarlar tikilib… O günlərdən bu günlərə sözdən söz doğulub, fikirdən fikir doğulub, mahnı mahnıyla çulğaşıb, olmuşlar dastana çevrilib. Qırğız soylarının çoxsaylı düşmənlərə qarşı müdafiəsində dayağa çevrilən Manas və oğlu Semetey haqqında dastan da bizə belə gəlib çatıb…

Bu dastanda biz ata-babalarımızın səsini yenidən diriltdik. Bu dastanda biz həmçinin çoxdan uçmuş quşların pərvazlanan səsini, at dırnaqlarının tappıltısını, döyüşən batırların nərəsini, həlak olanlara ağını, qaliblərin qələbə çığırtısını eşidirik. Bu qədim sözdə dirilərin gözü qarşısında keçmiş həyat yenidən canlanır; dirilərin şərəfinə, dirilərin şəninə…

Gəlin nəhəng Manas və onun igid oğlu Semetey haqqında dastanımıza başlayaq – dirilərin şərəfinə, dirilərin şəninə…"

Uşaqcığaz hələ bilmirdi ki, o, xalqının cunqarların zülmü altında inildədiyi bir dövrdə Allahın köməyi ilə haqqın carçısı olacaq. O bilmirdi ki, düşmən onun başına min seçmə at dəyərində qiymət qoyacaq. Xəyanət nəticəsində qızmar qazax çölündə cismi parçalanmış, gözləri çıxarılmış halda həlak olacaq. Və qan içində susuzluqdan can verdiyi sonuncu anlarında bu günü, bu saatı, anasının səcdə qıldığı bu gölü, uzaq diyarlara hazırlaşan bu quşları yadına salacaq. Hər şeyin həqiqət olduğuna inanaraq "Ana" qışqırıb öləcək. Bütün bunlar hələ qarşıda idi – şöhrət də, mübarizə də, ölüm də…

İndi isə o, anasının dua etdiyi yerdə – İssık-kulun sahilində dayanmışdı. Uçarın qayışından bərk-bərk tutmuşdu ki, əlindən çıxaraq artıq gözdən itməkdə olan dəstənin ardınca qaçmasın. Birdən xəstə atası yadına düşüb tələsdi.

***

- Getdik, Uçar, getdik! – o, əmr verib sahilə yaxın dağların arasında yerləşən aula sarı getməyə başladı. Göldən uzaqlaşdıqca, o, yenə də arxadan həmin quş dəstələrinin narahat səs-küyünü, çığırtısını eşidirdi.

Həmin gecə səhərə yaxın yurt ustası Senirbay kiçik oğlu Elemanın gözü qarşısında vəfat etdi. Atasının son nəfəsdə artıq ona tabe olmayan diliylə, xırıltılı səslə söylədiyi sözləri, demək olar ki, ayırd etmək mümkün deyildi. Ağlaya-ağlaya atasının başı üzərinə əyilən oğlan tonqalın işığında onun dodaqlarının tərpənişindən nə dediyini hiss etdi. O, cəmi iki sözü tutdu:

- Hə… Talçuy.

Və bu sözlərin mənasının anlayıb dodaqlarını dişləyərək ağladı, özünü saxlaya bilməyib ucadan hönkürərək qışqırdı:

- Yox, ata, heç bir xəbər yoxdur! Mən səni aldada bilmərəm! Heç nə məlum deyil. Mən burda təkəm. Eşidirsənmi? Mən qorxuram. Ölmə, ata, ölmə. Anam tezliklə qayıdacaq, anam tezliklə qayıdacaq…

Oğlunun sözləri ölən atanın şüuruna çatdımı – bunu heç kəs deyə bilməzdi. O, həmin andaca gözləri açıq halda canını tapşırdı. Bu zaman ölümün ildırım sürətli kölgəsi atasının üzünə yad və qorxunc ifadə verdi. Oğlan dəhşətlə yurtdan bayıra atıldı, heç nə anlamayaraq qorxu və ümidsizlik içində yurtdan uzaqlaşmağa başladı. O ağlayıb çığıraraq harasa qaçır, Uçar da qorxudan quyruğunu qısıb sahibindən geri qalmamağa çalışırdı. Eleman yalnız gölün coşub-daşan sahilinə çatanda özünə gəldi. Birdən donub qaldı. Bu gecə İssık-kul qəzəbli idi. Burum-burum qaynayan, şahə qalxan dalğaları sakitləşmək bilmirdi. Yuxarıdan Elemanın qulağına arası kəsilməyən müxtəlif səslər gəldi. O, başını qaldırıb işıqlanmağa başlayan boz səmada intəhasız sayda quş dəstəsi gördü. Saysız-hesabsız quşlar Gölün üzərində dövrə vurub irəlidəki dağ silsiləsini aşmaq üçün yuxarı qalxırdılar. Budur, onlar son dövrəni vuraraq çay kimi uzanıb lap yüksəklərə uçdular. Sonra Boom dərəsinə, aşırımdan o taya, Talçuya tərəf istiqamət aldılar. Oğlan başa düşdü ki, onlar lap uzağa, həm də uzun müddətə uçurlar. Talçuy vadisi isə onların yolları üstündədir. Vadidən o yana uzaq, yad ölkələr başlanır. Canını dişinə tutub var gücüylə qışqırdı:

- Atamız öldü! Qardaşım Koyçumana çatdırın – atamız öldü! Atamız öldü, öldü, öldü!..

***

Biz dağların üstüylə xeyli uçduq. Aşırımda güclü külək tutqun, acıqlı buludları topa-topa üstümüzə qovurdu. Əvvəlcə yağış çiləndi. Ardınca qar yağdı. İslanmış qanadlarımız buz bağlamağa başladı. Uçmaq çətinləşdi. Dəstəmiz geriyə döndü – arxamızca da başqa dəstələr. Yenidən göl üzərində dövrə vura-vura daha yüksəyə qalxıb yola düzəldik. Bu dəfə dağlardan, buludlardan da yuxarıda uçub səhəri, Günəş şüalarını arxada buraxdıq. Biz aşırımı adlayıb aşağıda – uzaqlarda uzanan geniş Talçuy vadisini gördük. Böyük çöllərə gedib çıxan bərəkətli Talçuy vadisi başdan-başa Günəş işığına qərq olmuşdu, torpaq otlardan göyərmişdi, ağacların tumurcuqları bala gözləyən madyanların qarnı kimi şişmişdi.

Çu çayı parıldayaraq qıvrıla-qıvrıla vadinin ortası ilə axırdı. Səmadan vadini həsrət dolu səsimizlə salamlayır, çay boyunca yavaş-yavaş aşağı enib yerə yaxınlaşırdıq. Axı bizim – quş karvan yolunun ilk dayanacağı bura, bu qamışlı körfəz idi. Burda istirahət etməli, çinədanımızı doldurmalı, yenidən yolumuza davam etməliydik. Fəqət adi sığınacağa enmək bizə qismət deyilmiş.

Quyruq və qanadlarımızla hərəkətimizi dayandırıb sevimli körfəzimizə dəstə-dəstə enmək istəyərkən, aşağıda insan qırğınının şahidi olduq. Bu, çox dəhşətli mənzərə idi. Saysız-hesabsız adamlar – minlərlə atlı, minlərlə piyada burada, bizim körfəzdə qırğına çıxmışdılar. Vəhşi qışqırıqlar, gurultu və uğultu, haray-həşir, zingilti və inilti, kişnərti və xorultu ətrafa yayılırdı. Geniş bir sahədə qanlı döyüşə atılan adamlar bir-birini qırırdılar. Gah əllərində nizə dəstə ilə qışqıra-qışqıra qarşı-qarşıya gəlir, gah da toqquşaraq bir-birlərini yerə yıxır, bir-birlərini atla tapdalayırdılar. Bəzən isə hərə bir tərəfə üz tutur, kimisi qaçır, kimisi də qovurdu. Digərləri qamışlıqda xəncər və qılıncla vuruşurdu. Boğazlar kəsilir, qarınlar yırtılırdı. İnsan və at meyitləri dağ kimi ucalmışdı. Çoxlu sayda meyit geniş körfəzdə suyun qabağını kəsir, qırmızı rəngə boyanmış su laxtalanmış qan tikələrini aparır, at dırnaqları qan qarışıq suyu qanlı horraya çevirirdi.

Dəstələrimiz qorxudan bir-birinə qarışdı. Səmada hay-küy başladı. Sıralarımız pozuldu. Biz – qorxmuş quşlar göydə qarışıq buludlar kimi dövrə vurmağa başladıq. Uzun müddət özümüzə gələ bilmədik, bir-birlərini öldürən bu bədbəxt insanların üzərindən xeyli uçduq. Çətinliklə dəstəmizi toparlaya bildik. Bir xeyli vaxt sakitləşə bilmədik. Orada düşərgə salmaq üçün yerə enə bilmədiyimizdən bu lənətlənmiş yeri tərk edib irəli getməyə başladıq.

Köçəri quşlar, bağışlayın! Bütün olanlara görə, olacaqlara görə bağışlayın! Nə mən izah edə bilərəm, nə də siz məni anlaya bilərsiniz. Niyə insanların həyatı belə qurulub, niyə bu qədər ölən, öldürülən var yer üzündə… Yolu tərtəmiz ənginliklərdən keçən səma quşları, bağışlayın, Allah eşqinə, bağışlayın…

Döyüşdən sonra leşyeyənlər orada bayram edirdilər. Çinədanlarını qusana qədər doldurduqları üçün qanadlarını tərpətməyə heyləri qalmamışdı. Savaşdan sonra çaqqallar orada məclis qurmuş, o qədər meyit yemişdilər ki, qarnı üstə sürünürdülər.

Uçun, bu dəhşətli yerlərdən, uzaqlara uçun.

***

Təbiət yarandığı gündən belə qurulub: hər dəfə vaxt yetişəndə – nə gec, nə tez – quşlar uzaq yerlərə getmək üçün havaya qalxırlar. Onlar hökmən köçürlər. Ancaq özlərinin bildiyi və heç vaxt dəyişilməyən yollarla dünyanın bir başından o biri başına və əksinə uçurlar. Gecə-gündüz, ildırımda-tufanda yorulmadan qanad çalır, hətta uçuş zamanı yatırlar, belə. Bu canlıların mahiyyəti belədir, bu təbiətin qaçılmaz qanunudur. Hər il quş karvanları yuva qurub bala çıxartdıqları böyük çaylara uçurlar. Payızda isə böyümüş, bərkimiş balaları ilə cənuba qayıdırlar – nə əvvəli bilinir, nə axırı…

Bax, neçə gündür ki, fasiləsiz uçuruq. Torpaqdan uzaq elə ucalıqda uçuruq ki, burada buz kimi küləklər uğuldayır intəhasız çaylar kimi. Bu çay – zaman çayı ucsuz-bucaqsız kainatda gözə görünmədən harasa naməlum bir yerə axır, heç kəsə də məlum deyil ki, hara?

Bizim boynumuz ox kimi gərgin, bədənimiz isə ürək kimi yorulmazdır. Biz hələ çox uçmalıyıq – qanad çalın, qanad çalın…

Biz uçduqca elə hey yuxarı, yuxarı qalxırıq. O qədər qalxırıq ki, dağlar yastı görünür. Sonra dağlar da, yerin özü də görünməz olur. Hər şey şəklini itirir: Asiya hayandadır, Avropa hayanda? Okean hansıdır, torpaq hansı? Ətraf elə boşdur ki, sahilsiz kainatda təkcə bizim kürə çöldə azmış dəvə balası kimi sakit-sakit yırğalanır, yavaşca üzüb anasını axtarır. Axı hanı o, – o – ana dəvə haradadır? Hanı bu torpağın anası, hanı bütün torpağın anası? Cavab yoxdur! Təkcə külək uğuldayır bomboş yüksəkliklərdə. Əsən külək. Və yer yavaşca üzür və yırğalanır. Elə bil yetim uşaqdır, elə bil uşaq əmgəyidir. Yer nənnidir, yer beşikdir, yırğalanır…

Görəsən, bu qədər xeyirxahlıq ona necə sığışır, bu qədər yamanlıqlar necə bağışlanır? Bu qədər xeyirxahlıq ona necə sığışır? Bu qədər yaman işlər necə bağışlanır?

Yox, bağışlamaq olmaz, yox, bağışlamaq lazım deyil. Yalvarıram Sizə, ey tüstü yaradanlar, ey fikir yaradanlar, ey qisməti yaradanlar, yalvarıram Sizə, yaman işləri bağışlamayın!

Mən yalnız bu uçan dəstədə qanadlı quşam. Durnayam, durna dəstəsiylə də uçuram. Biz durnalar qaranlıq gecələrdə ulduzlara əsasən zəmilərin, şəhərlərin üzərindən uçuruq. Mənim də öz fikirlərim var.

Uçuram və ağlayıram,
Uçuram və ağlayıram,
Uçuram və ağlayıram,
Adamlara və Allahlara and verirəm,
Ey adamlar, yerlə ehtiyatlı olun…
Deyirsiz, nədir durnanın göz yaşları?
Onda, silin üzünüzdən!
Yenə də, yenə də, yenə də.
Ey insanlar, Allah sizi bu işlərdən qorusun –
Sönmək bilməyən yanğınlardan,
Ağılsız adamların törətdiyi
Qanlı qırğınlardan qorusun.
Ey adamlar, Allah sizi düzəlməyən işlərdən,
Təbii fəlakətlərdən qorusun…

Dəstə uzaqda gözdən itir. Artıq qanadlarının ahəngdar hərəkəti də görünmür. Bax, bax, orda nöqtəyə dönür və tamam itir…

Budur, yenə bahardır və yenə də səmanın ənginliklərindən durna çığırtısı eşidilir…

Tərcümə edən: Nəriman Əbdülrəhmanlı